**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİNƏ DAİR

## H E S A B A T

**(2023-cü il üzrə)**

**Bakı – 2024**

Hesabatda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş Milli Preventiv Mexanizm qismində fəaliyyəti çərçivəsində 2023-cü il ərzində həyata keçirdiyi fəaliyyət, irəli sürülən təklif və tövsiyələr əks etdirilir.

Milli Preventiv Mexanizm funksiyalarının həyata keçirilməsi prosesində BMT-nin İşgəncələrin qarşısının alınması üzrə Komitəsinin (CAT), İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitənin (SPT) və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT), Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin (CEDAW), Uşaq Hüquqları üzrə Komitənin (CRC), Əlilliyi Olan Şəxslərin Hüquqları üzrə Komitənin (CRPD), habelə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə (UPR) İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş təklif və tövsiyələri nəzərə alınmışdır.

Başçəkmələrin nəticəsi olaraq təhlillər əsasında hazırlanmış məlumatlar, statistik göstəricilər, habelə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu hesabata əlavə edilmişdir.

**MÜNDƏRİCAT**

**Ön söz**....................................................................................................4
Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar.....................................................5

**BÖLMƏ 1. MİLLİ PREVENTİV MEXANİZM MANDATININ HÜQUQİ ƏSASLARI**.........................................................................................................7
1.1. Fakültativ Protokolun tələbləri.........................................................................7
1.2. Milli qanunvericilik..............................................................................................8
1.3. Milli Preventiv Mexanizmin fəaliyyət istiqamətləri...........................................9

**BÖLMƏ 2. MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR**.........................................................................................................10
2.1 Preventiv başçəkmələrin təşkili.........................................................................10
2.1.1. Plan üzrə başçəkmələr......................................................................................10
2.1.2. Plandankənar başçəkmələr..............................................................................10
2.2. Başçəkmələrin həyata keçirilməsi.....................................................................11
2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri..............................................................12
2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri.............................24
2.2.3. Səhiyyə Nazirliyinin müəssisələri....................................................................32
2.2.4. Elm və Təhsil Nazirliyinin müəssisələri..........................................................38
2.2.5. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri.......................43
2.2.6. Uşaq evləri.........................................................................................................46
2.2.7. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri...............................................47
2.2.8. Dövlət Miqrasiya Xidmətinin tabeliyindəki müəssisə.....................................48

**BÖLMƏ 3. HÜQUQİ TƏHLİL**...................................................................................50

**BÖLMƏ 4. HÜQUQİ MAARİFLƏNDİRMƏ**.................................................................56

**BÖLMƏ 5. İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**...59

**BÖLMƏ 6. TƏKLİF VƏ TÖVSİYƏLƏR**......................................................................62

Əlavə 1...........................................................................................................................67

Əlavə 2...........................................................................................................................69

## ÖN SÖZ

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolunun ratifikasiya edilməsi və Azərbaycan Respublikasında həmin protokolda nəzərdə tutulmuş milli preventiv mexanizmin (MPM) yaradılması dövlətin insan hüquqlarını daha yüksək səviyyədə təmin olunmasına xidmət edən beynəlxalq standartları dəstəkləmək iradəsindən irəli gəlmişdir.

İnsan hüquqlarının müdafiəsi, təbliği və təmini sahəsində həyata keçirdiyimiz fəaliyyətin tərkib hissəsi olaraq, müvafiq dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, kütləvi-informasiya vasitələri, beynəlxalq təşkilatlar, xarici ölkələrin Milli İnsan Hüquqları Təsisatları, yerli və beynəxalq ekspertlərlə olan əlaqələrimiz Müvəkkilin Milli Preventiv Mexanizm qismində də fəaliyyətinin inkişafına, hüquq pozuntularının qarşısının alınmasına, uğurlu və konstruktiv əməkdaşlıq əlaqələrinin qurulmasına, faydalı müzakirələr, treninqlər və təcrübə mübadilələrinin təşkilinə imkan vermişdir.

MPM qismində işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə fəaliyyətimiz çərçivəsində istər praktik yanaşma, istərsədə qanunvericiliyə təklif və tövsiyələrin verilməsi, habelə təşkilati baxımdan mövcud fəaliyyətin təkmilləşdirilməsi məqsədilə təşəbbüs və töhfələrimizi əsirgəmirik. Nəticə olaraq isə, bu funksiyaların icrasından irəli gələn vəzifələrin yerinə yetirilməsi Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununa edilən 2023-cü il 9 iyun tarixli dəyişikliklərlə milli preventiv mexanizmə başçəkmələr zamanı texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyat aparmaq və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələrini (o cümlədən prokurorluğun nümayəndəsini) dəvət etməklə tədbirlər görmək səlahiyyəti verilmişdir. Bu dəyişikliklər işgəncə və pis rəftar hallarının qarşısının alınması istiqamətində preventiv tədbirlərin effektivliyinə töhfə verməklə Ombudsmanın MPM kimi mandatını genişləndirir və öz iradəsi ilə tərk edə bilmədikləri yerlərdə olan şəxslərin hüquqlarının səmərəli müdafiəsinə imkanlar yaradır.

Azərbaycan MPM-nin 2023-ci il üzrə fəaliyyətini əhatə etməklə, görülmüş işlər, preventiv başçəkmələr və onların nəticələri, verilmiş təklif və tövsiyələr və onların icrası vəziyyəti, eləcə də MPM-in həyata keçirdiyi hüquqi maarifləndirmə və digər fəaliyyət istiqamətlərinə dair tədbirlər bu hesabatda əks olunmuşdur.

Ümid edirəm ki, hesabatda qaldırdığımız məsələlələr,verdiyimiz təklif və tövsiyələr aidiyyəti qurumlar və şəxslər tərəfindən nəzərdən keçiriləcək, Fakültativ Protokolun tələblərinə uyğun şəkildə müvafiq istiqamətlər üzrə fəaliyyətin daha da təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

**Səbinə Əliyeva**
*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*

## MƏTNDƏ İSTİFADƏ OLUNMUŞ ANLAYIŞLAR VƏ İXTİSARLAR

**Azadlıqdan məhrum etmə** – şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması

**Azadlıqdan məhrum edilmiş şəxs** – barəsində azadlıqdan məhrum etmə tətbiq edilmiş şəxs

**Azadlıqdan məhrum etmə yeri** – şəxsin öz iradəsi ilə tərk etmə hüququ olmadan saxlanıldığı və ya saxlanıla bildiyi istənilən yer

**Aparat** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı

**AİHM** – Avropa İnsan Hüquqları Məhkəməsi

**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

**AR** – Azərbaycan Respublikası

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**BİT**- Bakı İstintaq Təcridxanası

**CÇM** – Cəzaçəkmə müəssisəsi

**CM** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

**DTX** – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**FP** – “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”nın Fakültativ Protokolu

**İHOSM** – İnzibati həbs olunanların saxlanma Mərkəzi

**İXM** – Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi

**İQA** – BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (SPT)

**İQAK** – Avropa Şurasının İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Komitəsi (CPT)

**İQK**– BMT-nin İşgəncələrin Qarşısının Alınması Komitəsi (CAT)

**İşgəncə** – İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza

**İT** – İstintaq təcridxanası

**KİV** – Kütləvi informasiya vasitələri

**Konstitusiya Qanunu** – “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu

**Konvensiya** – BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası”

**MPQ** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli preventiv qrup

**MPM** – BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm

**MSY** – müvəqqəti saxlama yeri

**Müvəkkil** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

**PX** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti

**RPİ** – Rayon polis idarəsi

**RPŞ** – Rayon polis şöbəsi

**ŞRPŞ** – Şəhər rayon polis şöbəsi

## BÖLMƏ 1.

## MİLLİ PREVENTİV MEXANİZM MANDATININ HÜQUQİ ƏSASLARI

### 1.1. Fakültativ Protokolun tələbləri

2023-cü ildə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyasının Fakültativ Protokolunda (FP) nəzərdə tutulmuş milli preventiv mexanizmin (MPM) funksiyalarını yerinə yetirən təsisat kimi fəaliyyətini uğurla davam etdirmişdir.

Məlum olduğu kimi, FP-nin əsas məqsədi işgəncələrin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarətdir. FP konstruktiv dialoqun vacibliyini vurğulayır və tənzimlənən münasibətlərə reaksiyaya əsaslanan münasibət deyil, preventiv – qarşısını alma münasibətinin göstərilməsini təsbit edir. FP-nin innovativliyi, həm də onun hər hansı yeni hüquq və ya standartı, yaxud pozulmuş hüquqların bərpasını deyil, mövcud standartın, yəni işgəncəyə məruz qalmamaq hüququnun pozulmasının qarşısının alınmasını əks etdirməsində təzahür edir.

İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, bütün azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən sənədin ehtiva etdiyi əsas ideyadır. FP-yə əsasən, preventiv mandata malik olan beynəlxalq və milli qurumlar yaradılır (buraya BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (İQA) və MPM-lər daxildir). Beynəlxalq səviyyədə yaradılmış İQA BMT-nin yeni nəsil saziş qurumudur.

FP-nin 17-ci maddəsinin tələblərinə görə hər bir iştirakçı dövlət tərəfindən protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq dəstəklənməli, təyin və ya təsis edilməli olan MPM azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin milli səviyyədə müntəzəm monitorinqlərini aparır. MPM-lərin mandatı ən azı aşağıdakıları əhatə edir:

- azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələlərə müntəzəm olaraq baxılması;
- BMT-nin müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi və işgəncələrin qarşısının alınması;
- qüvvədə olan qanunvericilik aktlarına və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

Göstərilən mandatın uğurla həyata keçirilməsi üçün, MPM-lərin yaradılması zamanı onların funksional müstəqilliyinin, habelə işçi heyətinin müstəqilliyinin təmin olunması əsas şərtdir.

FP həmçinin MPM-lərin aşağıdakı əsas hüquqlarını təsbit edir:

- azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onlarla rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında, həmçinin azadlıqdan məhrum etmə yerlərinin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək;

- bütün azadlıqdan məhrum etmə yerlərinə maneəsiz daxil omaq;

- azadlıqdan məhrum edilmiş şəxslərlə və ya müvafiq məlumat verə biləcək istənilən şəxslə fərdi söhbətlər aparmaq;

- baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək;

- İQA ilə əlaqələr qurmaq, əməkdaşlıq etmək və onunla görüşmək.

## 1.2. Milli qanunvericilik

Azərbaycan Respublikası tərəfindən FP 15 sentyabr 2005-ci il tarixdə imzalanmış, 02 dekabr 2008-ci il tarixli qanunla ratifikasiya edilmişdir.

Müvafiq qanunun dərc edilməsindən etibarən – 15 yanvar 2009-cu il tarixdən FP Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə FP-də nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir.

Ötən dövrlər ərzində Konstitusiya Qanununa edilən əlavə və dəyişikliklərlə Müvəkkilin səlahiyyət dairəsi, eləcə də müstəqilliyi FP-də MPM-lər üçün nəzərdə tutulmuş tələblərə cavab verən səviyyəyə çatdırılmış, həmçinin Müvəkkilin MPM qismində fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə Aparatda şəffaf prosedurlar əsasında Milli Preventiv Qrupun (MPQ) yaradılması, onun üzvlərinə dair tələblər, habelə onların hüquqları və toxunulmazlığının təminatları kimi məsələlər təsbit edilmişdir.

Konstitusiya Qanununa əsasən, milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkil və MPQ üzvləri istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis idarələrinə, bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə (CÇM), qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən şəxslə təkbətək və ya zəruri hesab etdiyi halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq hüququ vardır. Müvəkkilin, səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ da adı çəkilən qanunda müəyyən edilmişdir.

Ötən müddət ərzində Müvəkkilin MPM qismində fəaliyyətinin effektiv təşkili məqsədilə qanunvericilik aktları təkmilləşdirilmiş, Müvəkkilin və MPQ üzvlərinin yuxarıda göstərilən səlahiyyətləri barədə müddəalar müvafiq qaydada normativ hüquqi aktlarda təsbit edilmişdir.

Müvəkkilin FP-yə uyğun olaraq MPM qismində funksiyalarının səmərəli həyata keçirilməsinin təmin edilməsi məqsədilə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə

verilmiş, habelə İQK (CAT), İQA (SPT) İQAK-ın (CPT) təklif və tövsiyələri də nəzərə alınmışdır.

### 1.3. MPM-in fəaliyyət istiqamətləri

MPM-nin fəaliyyəti aşağıdakı dörd əsas istiqamət üzrə həyata keçirilən tədbirlərdən ibarətdir:

- Preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi;
- Hüquqi təhlil – həyata keçirilən fəaliyyətin, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, həmçinin aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;
- Hüquqi maarifləndirmə – işgəncələrin qarşısının alınması işinin təşviqi məqsədi ilə Aparatın əməkdaşları, MPQ üzvləri, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin işçiləri, eləcə də belə yerlərdə saxlanılan şəxslər, habelə aidiyyəti təhsil müəssisələri və akademiyaların tələbə-müdavimləri üçün hüquqi maarifləndirmə tədbirlərinin, o cümlədən onlayn tədbirlərin təşkil olunması, müvafiq əyani vəsaitlərin (buklet və broşürlərin) hazırlanıb paylanılması;
- İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq – yerli, regional və beynəlxalq təşkilatlarla, həmçinin xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılmasının, həyata keçirilən tədbirlərdə qarşılıqlı iştirakın, həmçinin birgə tədbirlərin təşkilinin təmin olunması, habelə MPM-in fəaliyyətinin KİV-də və internet resurslarında işıqlandırılmasının təşkili.

## BÖLMƏ 2.

## MPM-in FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR

### 2.1. Preventiv başçəkmələrin təşkili

Fakültativ Protokolun 20-ci maddəsinin "a" bəndinə əsasən, Milli Preventiv Mexanizmlərin öz mandatını yerinə yetirə bilməsi məqsədilə, iştirakçı dövlətlər Fakültativ Protokolun 4-cü maddəsinin tətbiqi üçün şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrin və orada saxlanılanların sayı, yerləşdiyi yer haqqında istənilən məlumatı təqdim etməyi öhdələrinə götürürlər.

Bu məlumatlar Müvəkkilin sorğusu əsasında müvafiq dövlət orqanlarından alınır və həmin sorğular üzrə daxil olmuş məlumatlar əsasında hazırlanmış illik plana uyğun olaraq başçəkmələr həyata keçirilir. Zərurət yarandıqda, ilin sonunda müvafiq orqanlarla dəqiqləşdirmələr aparılaraq növbəti il üçün məlumatlar yenilənir.

Preventiv başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən həyata keçirilir və bunları plan üzrə başçəkmələr və plandankənar başçəkmələr olmaqla iki qrupa bölmək olar.

#### 2.1.1. Plan üzrə başçəkmələr

Plan üzrə başçəkmələr Müvəkkil tərəfindən təsdiq olunan illik plan əsasında həyata keçirilir. İllik planın layihəsi hər ilin sonunda növbəti il üçün MPQ üzvlərinin iştirakı ilə keçirilən iclasda müzakirə olunur, nəticələr protokollaşdırılır, qəbul edilmiş plan təsdiq olunmaq üçün Müvəkkilə təqdim edilir. Planın açıqlanmaması başçəkmələrin effektivliyi baxımından çox əhəmiyyətlidir. Bu səbəbdən onun məxfiliyi MPQ-nin üzvləri tərəfindən təmin olunur.

Bu və ya digər müəssisənin plana hansı ardıcıllıqla daxil edilməsi, həmçinin müəssisəyə təkrar başçəkmələrin təyin edilməsi həmin müəssisənin rejiminin xüsusiyyəti, ötən illərdə şərait və rəftarla əlaqədar qeydə alınmış hallar, ərazi uyğunluğu, eləcə də Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin təhlili nəticəsində MPQ-yə verilmiş məlumatlar kimi amillər nəzərə alınmaqla aparılır.

Başçəkmənin həyata keçirilməsi üçün sərf olunan vaxt isə müəssisənin həcmindən, orada saxlanılan şəxslərin sayından, rejim və digər xüsusiyyətlərindən, eləcə də başçəkməyə cəlb olunmuş MPQ üzvlərinin sayından asılı olaraq dəyişir.

#### 2.1.2. Plandankənar başçəkmələr

Plandankənar başçəkmələr əsas etibarilə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, MPM-ə bu və ya digər formada məlumat ötürmüş şəxslərə qarşı təqib hallarının baş verməsinin qarşısının alınması, o cümlədən saxlanılan şəxslərlə aparılan söhbət zamanı onların əvvəllər saxlanıldıqları müəssisə haqqında verdikləri məlumatların və Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin, Qaynar Xəttinə (Çağrı Mərkəzinə) daxil olmuş müraciətlərin təhlili, MPQ-yə verilmiş məlumatların araşdırılması, kütləvi informasiya vasitələrində, internetdə rast gəlinən və MPM-i

maraqlandıran informasiyaların yerində yoxlanılması, habelə Müvəkkilin təşəbbüsü ilə həyata keçirilir.

### 2.2. Başçəkmələrin həyata keçirilməsi

Başçəkmələrin effektivliyinin təmin olunması üç əsas mərhələnin əhatə olunmasını tələb edir. Bunlar nəzərə alınaraq Azərbaycan MPM-i tərəfindən başçəkmələr aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

• başçəkməyə hazırlıq;
• başçəkmənin həyata keçirilməsi;
• başçəkmədən sonrakı tədbirlər.

Başçəkməyə hazırlıq adətən iki iş gününədək davam etməklə zəruri məlumatların toplanılması; başçəkmənin məqsədlərinin müəyyən edilməsi; başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsindən ibarət olur.

Hazırlıq zamanı, zəruri məlumatların toplanılması prosesində əvvəlki başçəkmələrdə əldə edilmiş və ya digər mənbələrdən alınmış məlumatlar, Müvəkkilin ünvanına daxil olmuş müraciətlər, KİV-lərdən, sosial şəbəkələrdən alınmış məlumatlar, habelə bəşçəkmənin həyata keçiriləcəyi müəssisənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar və beynəlxalq standartlar təhlil edilir.

Başçəkmənin məqsədləri saxlanılma şəraitinin və rəftarın ümumən qiymətləndirilməsindən; saxlanılma şəraiti və rəftarla bağlı konkret halların öyrənilməsindən (məsələn, intizam cəzalarının həyata keçirilməsi, tibbi xidmətin keyfiyyəti və s.); əvvəlki başçəkmələr zamanı aşkar olunmuş halların aradan qaldırılıb-qaldırılmamasının, habelə verilmiş təklif və tövsiyələrin icrası vəziyyətinin yoxlanılmasından; xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirilməsindən və digər tədbirlərdən ibarət olmaqla müəyyən edilir.

Başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsi zamanı qrup üzvlərinin sayı, ixtisası, cinsi və s. amillər nəzərə alınmaqla başçəkmə qrupunun tərkibi formalaşdırılır, başçəkmənin məqsədindən asılı olaraq başçəkmə və müsahibə suallarının siyahısı, məhkumlarla söhbətin protokollaşdırılması üçün blank formaları, sorğu anketləri və s. hazırlanır.

Başçəkmənin həyata keçirilməsi özündə bir neçə mərhələni ehtiva edir:

Əvvəlcə müəssisənin rəhbərliyi ilə ilkin söhbət aparılır, söhbət zamanı qrup üzvləri özlərini təqdim edir, başçəkmənin məqsədi barədə onu məlumatlandırırlar. Daha sonra müəssisə barədə ümumi məlumat alınır.

Müəssisənin rəhbərliyi ilə ilkin söhbətdən sonra müəssisənin binalarına baxış keçirilir. Bu zaman müəssisədə saxlanma şəraiti – müəssisənin binasının, kamera və ya otaqların vəziyyəti, ölçüsü, tutumu, faktiki yerləşmə, işıqlandırma, ventilyasiya, mebel təchizatı, şəxsi gigiyena və sanitariya şəraiti, qidalanma məsələləri qiymətləndirilir; tibbi xidmətlərin təmin olunması vəziyyəti və s. araşdırılır.

Daha sonra sənədlərə baxış keçirilir, saxlanılan şəxslərlə kollektiv və ya təkbətək, konfidensial şəkildə söhbət aparılır. Saxlanılan şəxslərlə kollektiv söhbətlərin aparılması əsas etibarilə başçəkmənin məqsədindən asılıdır. Vəziyyətdən asılı olaraq söhbətlərin

hansı şəkildə aparılmasını MPQ üzvləri başçəkmə yerində müəyyən edə, yaxud ilkin razılaşmaya düzəliş edə bilər.

Müəssisə əməkdaşları ilə söhbət də başçəkmənin vacib məsələlərindəndir. MPQ üzvləri başçəkmə həyata keçirərkən saxlanılan şəxslərə görə cavabdehlik daşıyan müəssisə əməkdaşlarının rəftar baxımından yanaşmalarını qiymətləndirmək məqsədi ilə onlarla müsahibələr təşkil edirlər. Bəzi hallarda müəssisələrin personalı ilə söhbətlə yanaşı onlar üçün nəzərdə tutulmuş xüsusi sorğu anketlərindən də istifadə olunur.

Başçəkmənin sonunda müəssisə rəhbəri ilə yekun söhbət aparılaraq MPQ tərəfindən aşkar edilmiş hallarla bağlı məlumat verilir. Yerində aradan qaldırıla biləcək nöqsanlar onun diqqətinə çatdırılır və müvafiq tövsiyələr verilir. Eyni zamanda nəticələrlə bağlı müəssisənin tabe olduğu müvafiq orqanın rəhbərliyinə müraciət ediləcəyi bildirilir.

Beynəlxalq təcrübəyə görə başçəkmədən sonrakı tədbirlər başçəkmənin bilavasitə özündən daha əhəmiyyətlidir. Çünki MPM-in fəaliyyətinin məqsədi yalnız müvafiq yerlərə başçəkmədən ibarət deyil, müxtəlif müəssisələrdə saxlanılan şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılmasına istiqamətlənmiş prosesi təşkil etməkdir.

Məhz ona görə də başçəkmədən sonra onun nəticələrinə dair hesabat tərtib edilir, rəftar və şəraitin yaxşılaşdırılması üçün tövsiyələr hazırlanaraq müvafiq qurumlara göndərilir.

Adətən MPQ-nin zəruri hesab etdiyi hallarda başçəkmədən sonrakı yaxın dövr ərzində müəssisə ilə əlaqədar verilmiş tövsiyələrin icrası vəziyyətinin yerində yoxlanılması məqsədi ilə təkrar başçəkmə günü təyin edilir və müvafiq olaraq həyata keçirilir.

### 2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm mandatı çərçivəsində 2023-cü il ərzində Daxili İşlər Nazirliyinin tabeliyində polis idarə və şöbələrinin müvəqqəti saxlama yerlərinə, polis bölmələrinə planlı və plandankənar olmaqla 51 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr zamanı rəftar məsələləri, saxlanma şəraiti və sənədləşmə monitorinq edilmiş, bu müəssisələrdə saxlanılan şəxslərin hüquqlarının, o cümlədən işgəncə və pis rəftara məruz qalmamaq, müraciət etmək, hüquqi yardım almaq və s. hüquqlarının təmini və gələcəkdə pis rəftar hallarının baş verməsinin qarşısının alınması məqsədilə müəssisə rəhbərliyi və əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Həyata keçirilən başçəkmələr zamanı aşkar edilmiş bəzi nöqsan və çatışmazlıqlarla bağlı Daxili İşlər Nazirliyinə məktublar ünvanlanmış, toplanmış faktlar təqdim edilməklə müvafiq tədbirlərin görülməsi, göstərilən halların qarşısının alınması, habelə polis orqanlarının təlimatlandırılması və görülmüş işlərin nəticələri ilə bağlı məlumat göndərilməsi tələb olunmuşdur. Ombudsmanın ünvanına daxil olmuş cavab məktublarında aşkar edilmiş bəzi çatışmazlıqların tam aradan qaldırıldığı, müvəqqəti saxlama yerlərinin fəaliyyəinin nəzarətdə saxlanılması barədə ərazi polis orqanlarının rəhbərlərinə əlavə tapşırıqların verildiyi bildirilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın tapşırığı əsasında Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən ***Daxili İşlər Nazirliyinin İnzibati Həbs Olunanların Saxlama Mərkəzinə (İHOSM)*** başçəkmə həyata keçirilmişdir.

BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd Ombudsmanın ünvanına daxil olmuş müraciətin araşdırılması olmuşdur.

Rəftar və saxlanma şəraitinin araşdırılması məqsədilə müəssisədə saxlanılan şəxslər fərdi qaydada qəbul edilmiş. Saxlanılan şəxslərdən biri 30 gün müddətinə inzibati həbs olunmasına dair məhkəmə qərarına etiraz əlaməti olaraq aclıq etdiyini bildirmişdir. MPQ-nin ixtisasca həkim üzvünün də iştirak etdiyi qəbul zamanı həmin şəxsə aclığın orqanizmdə yarada biləcəyi fəsadları barədə məlumat verilmiş, hüquqları izah edilmişdir.

Qəbul edilən şəxslərlə söhbət əsnasında bəzi şəxslər müəssisədəki saxlanma şəraitindən narazılığını qeyd etmişdir. Belə ki, müəssisədə saxlanılan şəxslərin ailə üzvləri ilə görüşünə, həmçinin sovqat qəbuluna qoyulmuş məhdudiyyətin qanunsuz olduğu, telefon danışığının məhdud verildiyi, yeməklərin keyfiyyət, kalori və miqdar baxımından çox aşağı olduğu, doyumlu olmadığı, saxlanılan şəxslərin gəzinti hüququnun təminində problemlərin olduğu (yalnız siqaret çəkən şəxslərin 1 saatdan bir 5 dəqiqəlik siqaret çəkmək üçün gəzinti yerinə çıxarıldığı) bildirilmişdir.

Yekunda Milli Preventiv Qrupun üzvləri tərəfindən müəssisə rəhbərliyinə qida qəbulundan imtina edən şəxsin səhhətinin həkim nəzarətində saxlanılması, habelə saxlanma şəraiti və rəftar məslələlərinin təkmiləşdirilməsinə dair müvafiq tövsiyələr verilmişdir.

Ombudsman Səbinə Əliyeva və onun Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən İHOSM-a keçirilən növbəti başçəkmədə məqsəd inzibati qaydada həbs edilmiş şəxslərin saxlanma şəraiti, onlarla rəftar və hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olmuşdur. MPQ-nin ixtisasca həkim və psixoloq üzvlərinin də iştirak etdiyi başçəkmə çərçivəsində Laçın sərhəd-buraxılış məntəqəsində saxlanılan və 10 gün müddətinə inzibati qaydada həbs olunan 3 nəfər – Alen Sarqsyan, Vahe Hovsepyan və Levon Qriqoryan da qəbul edilmişdir.

Ombudsman konfidensial qəbul zamanı həmin şəxslərin beynəlxalq və milli qanunvericiliyə əsasən hüquqlarının təmini vəziyyətini öyrənmiş və müraciətlərini dinləmişdir. Eyni zamanda, onların saxlanıldığı kameraya və gəzinti yerinə baxış keçirilmiş, saxlanma şəraitinin standartlara uyğun olduğu müəyyən edilmişdir. Qəbul edilmiş şəxslər saxlanma şəraitindən, onlarla rəftardan, qidalanmadan, habelə tibbi-psixoloji yardımdan razılıqlarını bildirmişlər. Başçəkmənin gedişində həmin şəxslərin ailə üzvləri ilə telefon danışığı da təmin edilmişdir.

İnzibati qaydada həbs edilmiş şəxslərə hüquqları, Azərbaycan Ombudsmanının səlahiyyətləri izah edilmiş, Ombudsmanın 916 Çağrı Mərkəzinə müraciət imkanlarına dair məlumatlandırıcı nəşrlər, öz dillərində insan hüquqları sahəsində qanunvericilik aktları və beynəlxalq sənədlər təqdim edilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın tapşırığına əsasən, Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən Daxili İşlər Nazirliyinin ***İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin nəzarətində olan İnsan alveri qurbanları üçün nəzərdə tutulmuş sığınacağa*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı müəssisənin yataqxanasına, tibb, yeməkxana, mətbəx otaqlarına baxış keçirilmişdir. Sığınacaq sakinləri qəbul olunmuş, onlarla konfidensial qaydada söhbət aparılmış, müraciətləri dinlənilmişdir. Qəbul edilmiş şəxslərə Ombudsmana müraciət formaları, 24 saat fəaliyyət göstərən 916 Çağrı Mərkəzi barədə ətraflı məlumat verilmişdir.

Müəssisədə insan alveri qurbanlarına normal saxlama şəraitinin təmin olunduğu, onların təhlükəsizliyinin və orada sığınacaq tapan şəxslərin qida və dərman preparatları ilə təmin edildiyi, onlara tibbi, psixoloji, sosial və hüquqi yardımın göstərilməsi üçün müvafiq şərait yaradıldığı müşahidə olunmuşdur.

Başçəkmənin sonunda müəssisə rəhbərliyi və əməkdaşları ilə görüş keçirilmiş, hüquqi maarifləndirici söhbət aparılmışdır.

***Nizami Rayon Polis İdarəsinin MSY-inə*** başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, kameralara baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışığı, kameradan çıxarılma ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Müəssisənin bəzi kameralarında təbii işıqlanmanın zəifliyi və istiliyin olmaması, hüquq və vəzifələrin əks olunduğu yazılı lövhələrin asılmadığı müşahidə edilmişdir.

Başçəkmə zamanı hmçinin müşahidə edilmişdir ki, daxili intizam qaydalarının tələblərinə zidd olaraq ilk dəfə tutulan şəxslər əvvəllər məhkumluğu olan şəxslərlə bir kamerada saxlanılır. Bu hal “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 35-ci maddəsinin pozuntusudur.

Gəzinti yerinin standartlara uyğun təşkil edilmədiyi, üstünün tamamilə örtülü olduğu müəyyən edilmişdir. Müəssisədə gəzinti yerinin üstünün tamamilə bağlı olması şəxslərin açıq havada gəzmək və münasib fiziki hərəkətlər etmək hüququnun təminatında problemlərin olduğunu göstərir.

Nizami RPİ-də qeydiyyat kitablarının qaytanlanmadığı, müxtəlif qeydiyyat kitablarında (saxlanılan şəxslərin tibbi müayinədən keçirilməsi və tibbi yardımın göstərilməsinin qeydiyyatı) qeydiyyatın natamam aparılması müəyyən edilmişdir.

Saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən sənədlərlə tanışlıq zamanı Nizami RPİ-nin baş təhqiqatçısı tərəfindən tərtib olunmuş (24 noyabr 2022-ci il, saat 18:00) cinayət törətməkdə  şübhəli şəxsin tutulması haqqında Protokolda şübhəli şəxsin imzasının olduğu, lakin müdafiəçisinin imzasının olmadığı müəyyən edilmişdir. Bu isə Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 147-ci maddəsinin pozuntusudur.

Nizami RPİ-nin 24 və 25-ci polis şöbələrində araşdırma kameralarının şəraitinin qənaətbəxş olmadığı, bəzi kameralarda işıqlanmanın zəif olduğu, istiliyin işləmədiyi, oturacaq və masanın olmadığı müşahidə edilmiş, bu barədə müəssisə rəhbərləri ilə söhbət aparılmış, çatışmazlıqların aradan qaldırılması istiqamətində tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən ***Qaradağ Rayon Polis İdarəsinə*** həyata keçirilən başçəkmə zamanı “Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı” kitabına və

“MSY-də saxlanılan şəxslərin qeydiyyatı və uçotu kitabı”na baxış zamanı sənədləşmə ilə bağlı çatışmazlıqların olduğu müəyyən edilmişdir.

Şübhəli şəxslərin tutulması haqqında protokollarda vəkillərin imzasının, bir protokolda şübhəli şəxsi qəbuletmə ilə bağlı MSY rəisinin müvafiq imzasının olmadığı, prosessual müddətlərdə bəzi pozuntulara yol verildiyi, şəxsi işlərin surətlərinin saxlanılmadığı, saxlanılan Ruslan Xalıqovla bağlı heç bir qeydiyyat aparılmadığı aşkar edilmişdir. Qeydiyyat kitablarındakı natamam sənədləşmə şəxslərlə bağlı hansı tədbirlərin görüldüyünü müəyyənləşdirməkdə çətinliklərə səbəb olmuşdur.

MSY-də “Yoxlamanı icra edən şəxslərin qeydləri və təklifləri” kitabında qeydin formal şəkildə aparıldığı müəyyən edilmişdir.

Müəssisənin tibb otağında istifadəyə yararlılıq müddəti 4 aya yaxın keçmiş dərmanların (analgin ampulası) olması aşkar edilmişdir.

Başçəkmə gedişində müəyyən edilmişdir ki, İdarənin Növbətçi hissəsində saxlama (araşdırma) otağı yoxdur və idarəyə gətirilən şəxslər inzibati binada müxtəlif xidməti otaqlarda saxlanılır.

*Qaradağ RPİ-nin 10-cu Polis Bölməsinə* başçəkmə zamanı buradakı saxlama yerində oturacağın olmadığı müşahidə edilmişdir. Burada da sənədləşmə ilə bağlı çatışmazlıqların olduğu müəyyən edilmişdir. “Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı” kitabında 594-cü sırada şəxsin 25.04.2023-cü il saat 09:40-da bölməyə gətirildiyi qeyd edilsə də, başçəkmənin həyata keçirildiyi 26.04.2023-cü il tarixə aid azad etmə ilə bağlı və ya digər bir tədbirin görülməsi barədə hər-hansı qeydin olmadığı, 572-ci sırada saatların göstərilmədiyi, digər sıralarda qeydlərin tam aparılmadığı müəyyən edilmişdir.

MPQ üzvləri tərəfindən ***Yasamal Rayon Polis İdarəsinə*** başçəkmə həyata keçirilmişdir***.*** Polis İdarəsinin növbətçi hissəsində saxlama (araşdırma) yerinin olmadığı müşahidə edilmişdir.

Başçəkmə zamanı MSY-nin Növbətçi otağında əl qandallarının açıq yerdə olduğu müşahidə edilmişdir. Bu da xüsusi vasitələrin saxlanılması ilə bağlı qaydalara riayət edilmədiyini göstərir. MSY-nin kameralarında işıqlanmanın da zəif olduğu, saxlama şəraiti ilə bağlı ümumi vəziyyətin qənaətbəxş olmadığı aşkar edilmişdir. RPİ-nin rəisi əsaslı təmir işlərinin aparılacağını da bildirmişdir.

Burada da bəzi dərman preparatlarının (no-şpa, sopral və s.) yararlılıq müddətinin keçdiyi müşahidə edilmişdir.

MSY-də saxlanılan şəxslərlə konfidensial söhbət zamanı şübhəli şəxs A.S. ona telefon danışığı verilmədiyini bildirmişdir. Telefon danışığının qeydiyyatı araşdırılarkən də həmin şəxsin telefon danışığından istifadə etməsinə dair hər hansı qeydə rast gəlinməmişdir. Bundan başqa, həmin şəxsin Bakı İstintaq Təcridxanasından etap olunan təqsirləndirilən şəxslərlə birgə saxlanıldığı müşahidə edilmişdir.

Şəxsi işlər araşdırılarkən bəzi tutma protokollarında möhürlərin və müvafiq vəkillərin imzasının olmadığı müşahidə edilmişdir.

Eyni zamanda, şəxs məhkəmədə ola-ola MSY-dən çıxarılması barədə əvvəlcədən qeydlər var. Qeydiyyat kitablarında, xüsusilə də tarixlərdə və saatlarda dəyişiklərin olduğu, bəzilərində ümumiyyətlə saatların qeyd edilmədiyi müşahidə edilmişdir.

Sənədləşmə araşdırılarkən tibbi qeydiyyat kitablarında da nöqsanlar müşahidə edilmişdir. Belə ki, tibbi qeydlər əksər hallarda həkim tərəfindən deyil, polis əməkdaşları tərəfindən aparılır.

Yasamal RPİ-nin 28-ci polis bölməsi və 29-cu polis şöbəsində saxlama kameralarının şəraitinin qənaətbəxş olmadığı, kameralarda işıqlanmanın olmadığı (təbii işıqlandırma və elektik yoxdur), sənədləşmədə nöqsanların olduğu – qeydiyyat kitablarının möhürlənmədiyi, bəzi qeydlərin natamam aparıldığı müşahidə edilmişdir.

Başçəkmə anında 29-cu polis şöbəsində qaranlıq kamerada 2 nəfər saxlanılan şəxs olmuşdur. Burada da sənədləşmədə nöqsanların olduğu, kitablar möhürlənmədiyi və qaytanlanmadığı müşahidə edilmişdir.

MPQ üzvləri tərəfindən Daxili İşlər Nazirliyinin ***Səbail Rayon Polis İdarəsinin (RPİ) Müvəqqəti Saxlama Yerinə, 8-ci, 9-cu, 39-cu və 41-ci Polis Bölmələrinə*** başçəkmələr həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisələrdə saxlanılma şəraitinin və rəftarın, saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı bəzi nöqsanlar aşkar edilmişdir. Belə ki, MSY-nin kameralarında həm təbii, həm də süni işıqlandırmanın zəif olduğu, havalandırma ilə bağlı nöqsanların olduğu aşkar edilmişdir. Zirzəmidə yerləşən MSY-nin yeni tikili ilə əvəz edilməsinə, geniş ərazidə yerləşən RPİ-nin ərazisində MSY binasının tikilməsinə ehtiyac vardır.

Kameralara baxış keçirilərkən ilk dəfə saxlanılan şəxsin əvvəllər məhkum edilmiş şəxslə bir yerdə saxlanması müəyyən edilmişdir.

MSY-nin Tibb otağının çox kiçik olduğu, hər hansı müayinə üçün burada müvafiq şəraitin olmadığı MPQ üzvləri tərəfindən müəyyən edilmişdir. MSY-də saxlanılan şəxslərin gəzintisi üçün nəzərdə tutulmuş yerin üzərinin tam bağlanıldığı müşahidə edilmişdir.

Təkbətək söhbət zamanı saxlanılan şəxslər yataq dəstlərinin xeyli müddət keçməsinə baxmayaraq dəyişdirilmədiyini, bəziləri isə yataq dəstlərini evdən gətirdiklərini bildirmişlər.

MSY-nin kameralarında siqaret çəkən şəxslərlə siqaret çəkməyən şəxslərin bir yerdə saxlanıldığı, kameralara yerləşdirmə zamanı bu xüsusa diqqət yetirilmədiyi müəyyən edilmişdir.

Qeydiyyatla bağlı da müəyyən çatışmazlıqlar mövcud olmuşdur. Belə ki, "Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı" kitabında müxtəlif sıralarda qeydiyyatın tam aparılmadığı, gətirilmiş şəxslərin İstintaq şöbəsinə təhvil verildiyinin qeyd olunmasına baxmayaraq, nəticənin (sonrakı mərhələdə həmin şəxsin barəsində hansı tədbirlərin görüldüyü) kitabda əks olunmadığı aşkar edilmişdir.

*Səbail Rayon Polis İdarəsinin 8-ci Polis Bölməsinə* həyata keçirilən başçəkmə zamanı araşdırma otağında işıqların yanmadığı müəyyən edilmişdir. Məsul növbətçi bunu sistematik xarakter daşıyan qısaqapanma ilə izah etmişdir. Burada saxlanılan şəxslərin qeydiyyatı kitabında bəzi şəxslərlə bağlı qeydiyyatın tam olmadığı müəyyən edilmişdir.

Səbail Rayon Polis İdarəsinin 9-cu Polis Bölməsinin araşdırma otağında işığın (elektrik lampasının) olmadığı aşkar edilmişdir.

Başçəkmələrin sonunda saxlama şəraitinin, rəftarın və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı həmin müəssisələrin rəhbərliyinə müvafiq tövsiyələr verilmişdir.

Ombudsmanın tapşırığı ilə MPQ üzvləri tərəfindən ***Göyçay Rayon Polis Şöbəsinə*** başçəkmə zamanı saxlanılan şəxslərin gəzinti hüququnun təmini üçün nəzərdə tutulan gəzinti sahəsinin təşkilində çatışmazlığın olduğu aşkar edilmişdir. Bununla bağlı müəssisə rəhərliyinə müvafiq tövsiyə verilmişdir.

Burada da istifadəyə yararlılıq müddəti keçmiş dərman vasitəsi (Captopril) aşkar edilmişdir.

Göyçay RPŞ-nin MSY-nin kameralarında saxlanılan şəxslərin hüquq və azadlıqlarının əks olunduğu lövhələrin vurulmadığı, kameralarda işıqlandırmanın zəif olduğu müəyyən edilmişdir.

Sənədləşmə araşdırılarkən qeydiyyat kitablarında çatışmazlıqların olduğu müəyyən edilmişdir. Məsələn, saxlanılan şəxslərin qeydiyyatı kitabında qeydlərin tam aparılmadığı (məsələn, saatların qeyd edilmədiyi) müəyyən edilmişdir.

Nizami RPİ, Qaradağ RPİ, Səbail RPİ, Yasamal RPİ və bölmələrinə, habelə Göyçay RPŞ-ə həyata keçirilən başçəkmələrin nəticələri və aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində Ombudsmanın təklif və tövsiyələrinin əks olunduğu məktub daxili işlər nazirinə ünvanlanmışdır.

MPQ üzvləri tərəfindən Daxili İşlər Nazirliyinin ***Ağdaş Rayon Polis Şöbəsinə*** başçəkmə həyata keçirilmişdir.

BMT-nın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun, CPT və SPT-nin tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlama şəraitinin və rəftarın, sənədləşmənin öyrənilməsi olmuşdur.

MSY-ə başçəkmə zamanı orada 5 nəfərin saxlanıldığı, bunlardan 4 nəfərin inzibati həbs edilmiş şəxs olduğu müəyyən edilmişdir. Müəssisənin gəzinti yerində idman qurğusunun quraşdırılması müşahidə edilmişdir ki, bu da saxlanılan şəxslərin asudə vaxtlarının səmərəli keçirilməsi, açıq havada idman etmələrinə şərait yaratdılması baxımından müsbət hal kimi qiymətləndirilir.

Bununla yanaşı, müəssisədə bəzi nöqsanlar da aşkar edilmişdir. Belə ki, kameralara baxış zamanı, burada təbii işıqlanmanın zəif olduğu, gigiyenik vasitələrin olmadığı müşahidə edilmişdir.

Tibb-sanitar hissəyə baxış zamanı vaxtı keçmiş dərman vasitəsinə rast gəlinmişdir.

Sənədləşmənin araşdırılması zamanı isə müvafiq qeydiyyat kitablarının tam doldurulmadığı müəyyən edilmişdir.

Başçəkmənin sonunda müəssisə rəhbərliyi ilə aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində söhbət aparılmış, müvafiq tövsiyələr verilmişdir. Başçəkmənin gedişində kameraların gigiyenik vasitələri ilə təminatı məsələsi müsbət həll edilmiş, vaxtı keçmiş dərman vatisəsi məhv edilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Biləsuvar Rayon Polis Şöbəsinin MSY-nə*** plan üzrə başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd MSY-də saxlanma şəraiti və rəftarın qiymətləndirilməsi, tutulmuş və ya həbs edilmiş şəxslərin tutularkən Azərbaycan Respublikasının Konstitusiyası, Cinayət-Prosessual Məcəlləsi və digər müvafiq normativ hüquqi aktların tələblərindən irəli gələn hüquq və azadlıqlarının təmin edilməsi vəziyyəti, tutulduqdan dərhal sonra vəkillə təmin edilmələri, ailə üzvlərinə məlumat verilib-verilməməsi, qidalanma, dərman təchizatı, tibbi xidmət, istilik təchizatı və digər məsələlərin yoxlanılmasından ibarət olmuşdur.

Başçəkmə zamanı saxlanılan şəxslərin hər biri ilə söhbət aparılmış, onların hüquq və vəzifələri, Ombudsmanın səlahiyyətləri izah olunmuşdur.

MSY-də müəyyən nöqsanlar aşkar olunmuşdur. Əvvəllər məhkum olunmuş şəxslərlə, ilk dəfə cinayət törətməkdə təqsirləndirilən şəxslə eyni kamerada birlikdə saxlanıldığı müşahidə edilmişdir.

Tutulmuş və həbs edilmiş şəxslərin MSY-yə qəbul edilərkən və azad edilərkən tibbi müayinələri formal qaydada həyata keçirilir. Tibbi müayinənin keçirilməsi və tibbi yardımın göstərilməsinin qeydiyyatı kitabı həkimlər tərəfindən düzgün yazılmır.

Başçəkmə zamanı kameraların zəif işıqlandırıldığı, hüquq və vəzifələri əks etdirən lövhələrin olmadığı müşahidə edilmişdir. MSY-dəki kameraların çoxunda saxlanılan şəxslərin şəxsi-gigiyena vasitələrinə rast gəlinməmişdir.

İnzibati qaydada həbs olunmuş şəxslər üçün nəzərdə tutulmuş 1 nömrəli kamerada yerə bərkidilmiş masa və oturacaqlar heç bir standarta uyğun deyil. Baxış zamanı həmin kameranın sanitar qovşağının qapısının 35 santimetr eni olduğu müşahidə edilmişdir ki, həmin qapıdan rahat keçmək mümkün deyil.

Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyat kitabında müvafiq qrafaların doldurulmaması, müəyyən ağartmaların edilməsi müşahidə olunmuşdur.

Başçəkmə zamanı aşkar olunan nöqsanlar MSY rəisi və əməkdaşlarının diqqətinə çatdırılaraq onların aradan qaldırılması üçün lazımi tövsiyələr verilmişdir.

***Cəlilabad Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** plan üzrə başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində araşdırma otağına, MSY-nin kameralarına, mətbəx, hamam, istintaq, görüş, tibb və ibadət otağına, gəzinti sahəsinə baxış keçirilmiş, sənədləşmə araşdırılmışdır.

Cəlilabad RPŞ-nin MSY-nə başçəkmə həyata keçirilən zaman MSY-də saxlanılan 15 nəfər şəxsin hər biri ilə ayrı-ayrılıqda söhbət aparılaraq, hüquqları izah edilmiş, onlara Ombudsmanın səlajhiyyəti barədə geniş məlumat verilmişdir.

Astara Rayon Polis Şöbəsinin MSY-nə başçəkmə həyata keçirilən zaman MSY-də saxlanılan 8 nəfər şəxsin hər biri ilə ayrıca söhbət aparılaraq, hüquqları ətraflı izah edilmiş, Ombudsmanın səlahiyyətləri və MPM barədə onlara geniş məlumat verilmişdir.

MSY-nin 4 nəfərlik kameralarında cəmi 2 oturacağın olduğu müşahidə edilmişdir.

MSY-yə qəbul edilən şəxslərin həkim tərəfindən müvafiq qaydada müayinə edilməsi formal aparılır. Həkim tibbi müayinəni tibb otağında deyil, MSY-nin dəhlizində aparır. Tibbi müayinənin keçirilməsi və tibbi yardım göstərilməsinə dair qeydiyyat kitabında göstərilən tibbi yardım və ya çağırışa gələn həkimin qeydlərini oxumaq mümkün olmamışdır.

Sənədləşmə araşdırılarkən MSY-nin qeydiyyat kitabların səliqəsiz doldurulduğu müşahidə olunmuşdur.

***Lənkəran Şəhər Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində araşdırma otağına, MSY-nin kameralarına, mətbəx, hamam, istintaq, görüş, tibb və ibadət otaqlarına, gəzinti sahəsinə baxış keçirilmiş, sənədləşmə araşdırılmışdır.

Tutulmuş və həbs edilmiş şəxslərin ədəbiyyat və yazı ləvazimatının əldə edə bilməsi üçün MSY-də müvafiq imkanın yaradılması tövsiyə olunmuşdur.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Lerik Rayon Polis Şöbəsinin MSY-nə*** başçəkmə həyata keçirilmişdir.

Lerik Rayon Polis Şöbəsində saxlanılıb gətirilmiş şəxslərlə araşdırma otağının olmadığı müşahidə edilmişdir. Saxlanılan şəxslər polis şöbəsinə gətirilən şəxslərin Lerik RPŞ-nin 2-ci mərtəbəsində yerləşən otaqlardan birində saxlanıldığını bildirdilər. MSY-də saxlanılan şəxslərin heç birinin şəxsi gigiyena vasitələrinin olmadığı müəyyən edilmişdir.

MSY-də havalandırma sisteminin quraşdırılmadığı, ibadət otağının olmadığı, MSY rəisinin otağından həm də tibb otağı kimi istifadə edildiyi müşahidə edilmişdir.

Sənədləşmə araşdırılarkən Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyat kitabında qeydlərin tələblərə uyğun qeyd edilmədiyi, çoxlu qaralama və ağartmaların edildiyi müşahidə edildimişdir.

MPQ üzvləri tərəfindən ***Ağstafa Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində şöbənin MSY-də saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, kameralara baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışığı, kameradan çıxarılma ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Yeni tikilərək 2022-ci ilin dekabr ayında istifadəyə verilmiş MSY-də saxlanma şəraitinim yaxşı olduğu müşahidə edilmişdir.

Başçəkmə zamanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş **“Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaları”nın** 2.31.3-cü bəndinin tələbinin pozulduğu, ilk dəfə cinayət törətmiş şəxsin əvvəllər azadlıqdan məhrumetmə yerində cəza çəkmiş şəxslə birgə saxlanıldığı müəyyən edilmişdir.

Başçəkmə zamanı Ağstafa RPŞ-nin MSY-də saxlanılan şəxslərə verilməsi üçün gigiyenik təmiz şəxsi ləvazimatların mövcud olmadığı müəyyən edilmişdir.

***Daşkəsən Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Müəssisədə otaq çatışmazlığı səbəbilə tibbi müayinə, istintaq, ibadət, görüş, axtarış otağı kimi eyni otaqdan istifadə olunduğu müəyyən edilmişdir ki, bu da saxlanılan şəxslərin qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarının səmərəli şəkildə həyata keçirilməsinə imkan vermir. MSY-də tibb otağı kimi ayrıca otaq nəzərdə tutulmadığından dərman preparatlarının saxlanıldığı tibb dolabçası müəssisə rəisinin otağında yerləşir.

Qeyd edilən qanunvericiliyin tələblərinə baxmayaraq başçəkmə zamanı Daşkəsən RPŞ-nin MSY-də saxlanılan şəxslərə verilməsi üçün gigiyenik təmiz şəxsi ləvazimatların mövcud olmadığı müəyyən edildi.

Daşkəsən RPŞ-dən verilən məlumata görə, MSY-də sovqat qəbulu 2020-ci ildən etibarən COVID-19 pandemiyasına görə DİN əmri ilə dayandırılmış və hazırki vaxtdadək bərpa edilməmişdir. Halbuki, digər rayon və şəhərlərin MSY-də sovqat qəbulu ilə bağlı hazırda heç bir məhdudiyyət yoxdur. Qeyd edilən hal Daşkəsən RPŞ-nin MSY-də saxlanılan şəxslərə gətirilən sovqatlara əsassız məhdudiyyət tətbiqi kimi qiymətləndirilir.

Həmçinin Daşkəsən RPŞ-nin "Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı" kitabında şöbəyə gətirilmiş bəzi şəxslərin azad edilməsinin tarixi və saatı barədə qeydlərin aparılmadığı, saxlanılan şəxslərin görüşə təqdim edilməsi ilə bağlı çağırış tələbnamələrinin tərtib olunmadığı müəyyən edilmişdir.

MPQ üzvləri tərəfindən ***Gədəbəy Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** 2023-cü ildə iki başçəkmə həyata keçirilmişdir. Başçəkmələr zamanı müəssisə ərazisinə baxış keçirməklə yanaşı MPQ üzvləri saxlanılan şəxslərlə konfidensial söhbət aparmış, müraciətlərini dinləmişlər. Saxlanılan bəzi şəxslərin Müvəkkilə ünvanlanmış ərizəsi qəbul edilmişdir.

Burada da cinayət törətdiyinə görə əvvəllər məhkum edilərək azadlıqdan məhrum etmə cəzası çəkmiş şəxslə ilk dəfə cinayət törətməkdə şübhəli bilinən şəxsin bir kamerada saxlanılması aşkar edilmiş, MPQ üzvlərinin müdaxiləsindən sonra məsələ qanunamüvafiq şəkildə həll edilmişdir.

MPQ üzvləri tərəfindən ***Goranboy Rayon Polis .öbəsinin Müvəqqəti Saxlama Yerinə*** planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı MSY-nin kameralarında cari təmir işlərinin getdiyi müşahidə olunmuşdur.

"Sovqat, Bağlama və Banderollarda aşkar olunmuş ərzaq məhsullarının və əşyaların qeydiyyatı jurnalı"da MSY-də inzibati qaydada saxlanılan şəxslərə gətirilmiş ərzaq məhsullarının qeydə alınmadığı, həmçinin "Telefon danışıqlarının qeydiyyatı jurnalında" da inzibati qaydada saxlanılan şəxslərin yaxınları ilə telefonla danışmaqları barədə qeydlərin mövcud olmadığı müəyyən edilmişdir.

MSY-də aşkar edilmiş nöqsanlar diqqətə çatdırılaraq aradan qaldırılması istiqamətində tapşırıqlar verilmişdir.

MPQ üzvləri tərəfindən ***Göygöl Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** də planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı saxlanılan şəxsin gecələməsi üçün çarpayının olmadığı, stol və stulların üstündə yatdığı müəyyən edilmişdir. Bununla yanaşı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş **"Müvəqqəti saxlama yerlərinin Daxili İntizam Qaydaları"-nın** 10.13-cü bəndinin tələbinə baxmayaraq tutulmuş və ya həbs edilmiş şəxslərə həftədə 1 dəfədən az olmayaraq çimmələri üçün MSY-də duşxana təşkil olunmamışdır.

MSY-nin tibb otağı ilə tanışlıq zamanı dərman preparatlarının saxlanılması və tibbi müayinələr üçün zəruri şəraitin mövcud olduğu müşahidə olunmuşdur. Bununla yanaşı MSY-nin əşya və əmlak saxlancı üçün nəzərdə tutulmuş şkaflarında və MSY-nin rəisinin

otağındakı dəmir seyfdə də dərman preparatlarının saxlanılması müəyyən edilmişdir ki, bu da dərmanların saxlanılması qaydalarının pozuntusudur.

Saxlanıan şəxslər yaxınlarından sovqat qəbul etdiklərini bildirsələr də sənədlərə baxış zamanı "Sovqat, Bağlama və Banderollarda aşkar olunmuş ərzaq məhsullarının və əşyaların qeydiyyatı jurnalı"da saxlanılan şəxslərə gətirilmiş ərzaq məhsullarının qeydə alınmadığı müəyyən edilmişdir.

Həmçinin Göygöl RPŞ-nin "Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyatı" kitabının bəzi sıralarında şöbəyə gətirilmiş şəxslər barəsində görülmüş tədbirlər və azad edilmənin tarixi və saatı barədə qeydlərin aparılmadığı müəyyən edilmişdir.

MSY-də aşkar edilmiş nöqsanlar rəisin diqqətinə çatdırılaraq aradan qaldırılması istiqamətində tapşırıqlar verilmişdir.

Milli Preventiv Qrupun üzvləri ***Naftalan və Qazax rayon polis şöbələrinin müvəqqəti saxlama yerlərinə*** planlı başçəkmələr zamanı milli və beynəlxalq qanunvericiliyin tələblərinə baxmayaraq saxlanılan şəxlsərə verilməsi üçün gigiyenik təmiz şəxsi ləvazimatların mövcud olmadığı müəyyən edilmişdir.

MPQ üzvləri tərəfindən ***Şəmkir Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** planlı başçəkmə həyata keçirilmişdir. Kameraların birində 4 nəfər şəxsin saxlanıldığı müşahidə olunsa da, həmin kamerada ümumi sahənin adambaşına 4 kv.m-dən az olduğu müəyyən edilmişdir.

MSY-nin tibb otağı ilə tanışlıq zamanı dərman preparatlarının saxlanılması və tibbi müayinələr üçün zəruri şəraitin mövcud olduğu müşahidə olunsa da, MSY-nin koridorunda olan əşya və əmlak saxlancı üçün nəzərdə tutulmuş yerdə dərman preparatlarının saxlanıldığı müəyyən edilmişdir.

Sənədlər araşdırılarkən təqsirləndirilən şəxslərdən Z.M. barəsində tərtib olunmuş axtarışda olan şəxsin tutulması haqqında protokolun möhürlənmədiyi müəyyən edilmişdir. Tibbi yardımın təşkili və tibbi müayinələrin qeydiyyatı kitabı dolsa da, yeni kitabın açılmadığı, Sanitar təmizlik jurnalında heç bir qeyd aparılmadığı müəyyən edilmişdir. "Sovqat, Bağlama və Banderollarda aşkar olunmuş ərzaq məhsullarının və əşyaların qeydiyyatı jurnalı"da saxlanılan şəxslərə gətirilmiş ərzaq məhsullarının qeydə alınmadığı müəyyən edilmişdir.

MSY-də aşkar edilmiş nöqsanlar MSY rəisinin diqqətinə çatdırılaraq aradan qaldırılması istiqamətində tövsiyələr verilmişdir.

Ombudsmanın Milli preventiv Qrupunun üzvləri tərəfindən ***Tovuz Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı təqsirləndirilən E.Ə.-nin şəxsi işinin içindəki Tibbi kitabçası ilə tanışlıq zamanı həmin şəxsin yerdəyişmələri və yerdəyişmələr zamanı tibbi müayinələrdən keçirilməyi barədə məlumatların qeyd olunmadığı aşkar edilmişdir. Eyni zamanda, saxlanılan şəxslərlə görüş zamanı onlar sovqat qəbul etdiklərini desələr də, "Sovqat, Bağlama və Banderollarda aşkar olunmuş ərzaq məhsullarının və əşyaların qeydiyyatı jurnalı"nda saxlanılan şəxslərə gətirilmiş ərzaq məhsullarının qeydə alınmadığı müəyyən edilmişdir.

Həmçinin təqsirləndirilən E.Ə. vəkili ilə MSY-də görüşdüyünü bildirsə də, MSY-nin görüşlərin qeydiyyatı kitabında görüş barədə qeydlərin aparılmadığı, müstəntiqlər tərəfindən dindirmələr zamanı çağırış tələbnamələrinin tərtib edilmədiyi müəyyən edilmişdir.

Müəssisənin kameralarında saxlanılan şəxslərin hüquq və vəzifələri barədə məlumatın yerləşdirilmədiyi müəyyən edilmişdir.

MSY-də aşkar edilmiş nöqsanlar barədə MSY-nin rəisinin diqqətinə çatdırılaraq aradan qaldırılması istiqamətində tövsiyələr verilmişdir.

***Yevlax Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı müəssisənin kameralarında cari təmir işlərinin getdiyi müşahidə edilmişdir. Bununla yanaşı, MSY-də saxlanılan şəxlsərə verilməsi üçün gigiyenik təmiz şəxsi ləvazimatların mövcud olmadığı müəyyən edildi.

MSY-nin ibadət otağında olan əşya və əmlak saxlancı üçün nəzərdə tutulmuş dolabda dərman preparatlarının da saxlanılması müəyyən edilmişdir ki, bu da dərmanların saxlanılması qaydalarının pozuntusudur.

Saxlanılan şəxlərin tibbi kitabçalarında tibbi müayinələr barədə qeydlərin aparılmadığı müəyyən edilmişdir.

Həmçinin MSY-də dindirmələr zamanı saxlanılan şəxlsərin çağırış tələbnamələrinin tərtib olunmadığı müəyyən edilmişdir.

Daxili İşlər Nazirliyinin ***Samux Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** planlı başçəkmə həyata keçirilmişdir. Burada da kameralarda saxlanılan şəxslərin hüquq və vəzifələri barədə məlumatın yerləşdirilmədiyi müəyyən edilmişdir.

MSY-nin tibb otağı ilə tanışlıq zamanı dərman preparatlarının saxlanılması və tibbi müayinələr üçün zəruri şəraitin mövcud olduğu müşahidə olunmuşdur.

Əşyaların saxlanılması üçün nəzərdə tutulmuş şkafda tibbi vasitə olan testlərində də saxlanıldığı aşkar olunmuşdur ki, bu hal da tibbi vasitələrin saxlanılması qaydalarının pozulması kimi qiymələndirilir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Quba Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə həyata keçerilmişdir.

MSY-nin şəraiti əsasən tələblərə cavab verir. Lakin, sənədləşmə ilə bağlı bəzi nöqsanlar aşkar edilmişdir. Belə ki, istintaq təcridxanasından MSY-ə etap olunmuş şəxslərin, tibb kitabçalarında müəssisəyə yerləşdirilmələri ilə əlaqədar müvafiq qeyd aparılmamışdır. Şübhəli şəxs H.Q.-nin tutulması haqqındada protokolda müdafiəçinin adı və imzası yoxdur. Bundan başqa, bəzi qeydiyyat kitablarının qaytanlanaraq, surğuclanması formal xarakter daşıdığı və bəzi hallarda vərəqlərin sayının göstərilmədiyi aşkar edilmişdir.

***Qusar Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə həyata keçerilmişdir.

Kameralarda döşək ağlarının mövcud olmadığı, eyni zamanda şəxslərin hüquq və azadlıqlarının əks olunduğu lövhənin yerləşdirilmədiyi müşahidə olunmuşdur. Tibb otağına baxış zamanl isə, son istifadə müddəti bitmiş dərman (analgin) aşkar edilmişdir.

Şübhəli şəxs qismində saxlanılan R.A.-nın tibbi kitabçasında onun Qusar RPŞ-nə gətirilməsi haqda qeydin olmasına baxmayaraq, gətirilmə tarixi qeyd olunmamışdır.

Bütövlükdə 2023-cü il ərzində müəssisəyə beş əcnəbinin gətirilməsi barədə rəis tərəfindən şifahi məlumat verilməsinə baxmayaraq, bu barədə müvafiq kitabda qeydlər aparılmamışdır.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Siyəzən Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlam Yerinə*** başçəkmə həyata keçirilmişdir.

Burada da saxlanılan şəxslərin hüquq və vəzifələrini bildirən lövhələr yerləşdirilməmişdir. MSY-nin kitabxanasının mövcud olmadığı da müəyyən edilmişdir.

Sənədlərə baxış keçirilən zaman möhür vurulmayan tutma haqqında protokola rast gəlinmişdir.

MSY-də tibb otağında son istifadə müddəti bitmiş şprislər aşkarlanmış, onların götürülməsi tövsiyyə olunmuşdur.

Yekunda, müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, müvafiq tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Xaçmaz Rayon Polis Şöbəsi nin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə həyata keçerilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş, müvəqqəti saxlama yerlərinin daxili intizam qaydalarının 2.15-ci maddəsinin tələblərinə zidd olaraq, saxlanılan şəxslər müəssisəyə yerləşdirilərkən tam axtarış olunan zaman, alt paltarlarının çıxarıldığı müəyyən olunmuşdur.

Burada da kameralarda döşək ağlarının mövcud olmadığı aşkar edilmişdir. Bundan başqa MSY-nin tibb otağında dərmanların az olduğu müşahidə olunmuşdur. Bununla bağlı müəssisə rəhbərliyinin mülahizəsi öyrənilərkən, dərman sayının tezliklə artırılacağı qeyd edilmişdir.

İstintaq təcridxanasından MSY-ə etap olunmuş şəxslərin tibb kitabçalarında müəssisəyə yerləşdirilmələri ilə əlaqədar müvafiq qeyd aparılmamışdır. Tutulmuş, şəxslərin telefonla danışmalarının qeydiyyatı kitabında bəzi hallarda qrafalar natamam doldurulmuş, tarixlər və saatlar göstərilməmişdir.

MPQ üzvləri tərəfindən konfidensial olaraq qəbul edilmiş şəxslərdən biri MSY-də vəkillə təmin olunmadığını və kameraların soyuq olduğunu bildirmişdir. Ümumən kameların soyuq olduöu müşahidə edilmişdir. MSY rəisi istiliyin mövsümi qrafikə uyğun olaraq veriləcəyini qeyd etmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Xızı Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə həyata keçirilmişdir.

Burada da qeydiyyat məsələlərinə formal yanaşıldığı müşahidə edilmişdir. Belə ki, tutulmuş şəxslərin tibb kitabçalarında yerdəyişmələr haqqında qeydin sonuncu dəfə başçəkmədən 4 ay əvvəlki tarixdə aparıldığı müəyyən edilmişdir. Bundan başqa, saxlanılan şəxslərin norma ilə yeməklə təminatına dair paylama cədvəlində nahar və şam yeməyi vaxtlarının çatmadığı halda cədvəllərin əvvəlcədən imzalandığı aşkar olunmuşdur.

Bundan başqa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş, müvəqqəti saxlama yerlərinin daxili intizam qaydalarının 2.15-ci maddəsinin tələblərinə zidd olaraq, saxlanılan şəxslər o, cümlədən

inzibati qaydada həbs olunanlar, MSY-nə yerləşdirilərkən tam axtarış olunan zaman, alt paltarlarının çıxarıldığı müəyyən olunmuşdur.

***Şabran Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə zamanı MSY-də saxlanılan şəxslərə çatdırılan sovqatların qeydiyyatı kitabında sovqatı qəbul edənin imzasının olmadığı, bəzi tibbi kitabçalarda natamam qeydiyyatın olduğu, müəssisədə dərman preparatlarının az olduğu müşahidə edilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Qax Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə çərçivəsində müəssisənin kameralarına, tibb otağına, mətbəxə, gəzinti meydançasına və duşxanaya baxış keçirilmişdir.

MSY-də saxlanc otağı, ibadət otağı və görüş otağının olmadığı, saxlanc və ibadət üçün tibb otağından, görüşlər üçün isə istintaq otağından istifadə edildiyini müəyyən edilmişdir.

Tutulmuş şəxslərin telefonla danışmalarının qeydiyyatı kitabında telefonla danışılma tarixi, saatı, neçə dəqiqə danışıldığı qeyd olunmamışdır.

Müəssisədəki bir sıra digər qeydiyyat kitablarında da qeydlərin tələblərə uyğun aparılmadığı müşahidə olunmuşdur. Şəhər, rayon, xətt polis orqanlarına gətirilən şəxslərin qeydiyyatı kitabına baxış zamanı bir sıra hallarda şəxsin nəyə görə gətirilməsinin, kim tərəfindən gətirilməsinin, hansı tədbirlər görülməsi, yaxud haraya göndərilməsinin, azad etmənin (göndərilmənin) tarixi və saatının qeyd olunmadığı müşahidə edilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən **Zaqatala və *Balakən rayon polis şöbələrinin müvəqqəti saxlama yerlərinə*** başçəkmə çərçivəsində hər iki müəssisənin kameralarına, istintaq, tibb, ibadət, görüş otaqlarına, mətbəxinəə, gəzinti meydançasına baxış keçirilmiş, müxtəlif qeydiyyat kitablarında natamam doldurulma hallarına rast gəlinmişdir.

***Oğuz Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə*** başçəkmə zamanı kameralarda işıqlanmanın zəif olduğu, qeydiyyat işinin yaxşı təşkil edilmədiyi müəyyən edilmişdir.

2023-cü ildə Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Masallı, Neftçala, Salyan RPŞ-lərin MSY-nə*** başçəkmələr həyata keçirilmişdir.

### 2.2.2. Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində 2023-cü ildə də Ədliyyə Nazirliyi (ƏN) Penitensiar Xidmətinin müəssisələrində saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi istiqamətində preventiv başçəkmələr və tədbirlər həyata keçirilmişdir.

İl ərzində belə müəssisələrə planlı və plandankənar olmaqla 169 başçəkmə həyata keçirilmişdir. Bütün başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən keçirilmiş və MPQ üzvlərinə lazımi şərait yaradılmışdır.

Başçəkmələr çərçivəsində təsadüfi seçim əsasında və ya özü, yaxud ailə üzvlərinin Ombudsmana müraciətindən sonra təqsirləndirilən şəxslərlə və məhkumlarla konfidensial görüşlər keçirilmiş, onların saxlanma şəraiti, hüquqlarının təmini və müdafiəsi, işgəncə və pis rəftarın qarşısının alınması diqqət mərkəzində olmuşdur.

2023-cü ildə Ombudsman və MPQ-nin üzvləri tərəfindən dəfələrlə Penitensiar Xidmətin ***Bakı İstintaq Təcridxanasına (BİT)*** başçəkmələr həyata keçirilmişdir. BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd burada saxlanma şəraitinin və rəftarın, tibbi yardımın, habelə Ombudsmana edilən müraciətlərin araşdırılması, saxlanılan şəxslərin qəbul edilməsi, əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsanların aradan qaldırılması istiqamətində verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr zamanı karantin bölməsi, cərimə təcridxanası, məhbusların saxlanma kameraları, qısa və uzunmüddətli görüşlər üçün otaqlar, yeməkxana və digər bölmələrə baxılmış, kamera və karantində olan saxlanılan şəxslərlə söhbət aparılmışdır.

BİT-də əsas narahatedici məqamlardan biri sıxlıq problemidir. 2023-cü il ərzində müəssisəyə həyata keçirilən başçəkmələr zamanı burada limitdən artıq şəxsin saxlanıldığı müşahidə edilmişdir. Monitorinqlər göstərir ki, saxlanma limiti 2500 olan təcridxanada müxtəlif vaxtlarda 4000 nəfərə yaxın şəxs saxlanılır. Sıxlığın müəssisə daxili şəraitə və bütün xidmətlərə mənfi təsir etdiyi danılmazdır.

Qəbul edilmiş şəxslərin bəzilərinin Ombudsmana edilən müraciətləri əsasında müxtəlif qurumlara, o cümlədən Baş Prokurorluğa, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə, Tibb Baş İdarəsinə sorğular göndərilmişdir. Yerində həll edilməsi mümkün müraciətlər başçəkmə gedişində müsbət həll edilmişdir.

Bakı İstintaq Təcridxanasında saxlanılan şəxslər əksər hallarda barələrində aparılan istintaqdan və məhkəmə icraatından şikayət etmiş, onların qaldırdıqları məsələlərlə bağlı hər birinə Ombudsmanın səlahiyyətləri izah edilməklə hüquqi məsləhət verilmiş, bəzilərinin təqdim etdiyi ərizələri qəbul olunmuş və aidiyyəti qurumlara müvafiq tapşırıqlar, sorğular ünvanlanmışdır.

Müxtəlif digər müraciətlər içərisində müayinə və müalicə, vəkillə telefon danışığı, kitabla təchizat, peşəkar psixoloq yardımı, asudə vaxtın səmərəli təşkili üçün müəyyən əməyə və dərnəklərə cəlb olunma ilə bağlı köməklik göstərilməsi xahiş edilmiş, yeməyin keyfiyyətinin aşağı olduğu bildirilmişdir.

Həyata keçirilən başçəkmələrdən biri tematik xarakterli olmuş, yetkinlik yaşına çatmayan şəxslərlə rəftar, onların saxlanılması ilə bağlı milli və beynəlxalq tələblərə riayət edilməsi vəziyyəti monitorinq edilmişdir. Başçəkmə zamanı bu şəxslərin saxlanıldığı kameralara baxış keçirilmiş, saxlanma şəraiti, rəftar məsələləri, sağlamlıq, qidalanma, telefon danışığı, görüş və digər hüquqlarının təmin olunması vəziyyəti ilə bağlı qəbul edilən şəxslər arasında sorğu aparılmış, fərdi və konfidensial qəbul zamanı saxlanılan şəxslərə hüquqları, Ombudsmanın səlahiyyətləri və müvafiq qanunvericiliyin tələbləri izah olunmuşdur.

Başçəkmələrin yekununda müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən Avropa Penitensiar Qaydalarına müvafiq şəkildə saxlanma şəraiti və rəftarla bağlı tövsiyələr verilmişdir.

Penitensiar Xidmətin ***2 saylı istintaq təcridxanasına*** həyata keçirilən başçəkmə zamanı 7 nəfər yetkinlik yaşına çatmayan şəxsin yalnız ikisinin birlikdə saxlanıldığı, digərlərinin yetkinlik yaşına çatmış şəxslərlə saxlanıldığı müəyyən edilmişdir. Bu isə yetkinlik yaşına çatmamış şəxslərin mənafeləri baxımından digərlərindən ayrı saxlanılması ilə bağlı milli və beynəlxalq normaların tələblərinin pozuntusu kimi qiymətləndirilir. Aşkar edilən hal müəssisə rəisinin diqqətinə çatıdırıldıqda həmin şəxslərin təhlükəsizliyinin təmin olunması və aralarında yarana biləcək münaqişəli vəziyyətin baş verməməsi üçün belə addım atıldığı bildirilmişdir.

Başçəkmə gedişində yetkinlik yaşına çatmayan şəxslərin saxlaıldıqları bütün kamerala baxış keçirilmişdir. Yetkinlik yaşına çatmayan bir şəxsin saxlanıldığı 10 nəfərlik kamerada 18 nəfərin olduğu aşkar edilmişdir. Qeyd edilən hal, yetkinlik yaşına çatmayan şəxsin mənafeyi baxımından digərləri ilə saxlanlması mülahizəsini istisna edir. MPQ üzvlərinin tapşırığından sonra həmin yetinlik yaşına çatmayan şəxs sıxlıq olmayan digər kameraya köçürülmüşdür.

**Penitensiar Xidmətinin müəssisələrində yetkinlik yaşına çatmayanların saxlanılması rejiminə riayət edilməsinə, saxlanılmanın daxili intizam qaydalarına uyğun təmin edilməsinə diqqətin artırılması zəruridir.**

Ombudsmanın tapşırığı ilə MPQ-nin üzvləri Ədliyyə Nazirli Penitensiar Xidmətinin ***2 saylı cəzaçəkmə müəssisəsinə*** planlı başçəkmə həyata keçirmişlər.

BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası”nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd məhkumlarla rəftar, saxlanma şəraiti, tibbi yardımın təşkili vəziyyəti, müvafiq sənədlərin araşdırılması olmuşdur.

Başçəkmə zamanı sıxlığın olduğu, saxlanma limiti 1200 olan müəssisədə başçəkmə günü 1411 nəfər məhkumun cəza çəkdiyi müəyyən edilmişdir.

Müəssisənin Cərimə Təcridxanasına (CT) baxış zamanı oranın əsaslı təmirinə ehtiyacın olduğu, mövcud kameralarda sanitariya və gigiyena şəraitinin qənaətbəxş olmadığı, məhkumlar üçün əl-üzyuyanların və sanitar qovşaqlarda qapıların olmadığı, bəzi kameraların istifadəyə yararsız, bir çox kamerada mövcud çarpayıların köhnə və nasaz olduğu müşahidə edilmişdir.

CT-dəki nəzarətçi otağında yararlılıq müddəti keçmiş dərman preparatları, qeyri-steril bintlər, anti-sanitariya şəraitində saxlanılan tibbi ləvazimatlar aşkar olunmuşdur.

Rəftar məsələlərinin araşdırılması məqsədilə müəssisədə, o cümlədən cərimə təcridxanasında saxlanılan məhkumlar konfidensial olaraq qəbul olunmuşdur. Onlar saxlanma şəraiti və rəftarla bağlı bəzi şikayətlərini bildirmişlər. Söhbət zamanı rejim qaydalarını pozan bəzi məhkumların CT-ə gedən yolda mövcud olan, pəncərələri şüşəsiz, heç-bir sanitar şəraiti olmayan ayrıca bir otağa salındığını, orada soyuq havada saxlanıldığını bildirmişlər. Başçəkmənin gedişində MPQ üzvləri həmin yerə baxış keçirmiş və oradakı ağır şərait öz təsdiqini tapmışdır.

Yekunda müəssisə rəhbərliyi ilə başçəkmənin nəticələri ilə bağlı söhbət aparılmış, aşkar edilmiş nöqsanlar diqqətə çatdırılmış, müvafiq tövsiyələr verilmişdir. Rejim qaydalarının pozulmasına görə CT-ə gedən yolda mövcud olan və məhkumların salındığı iddia edilən otaqla bağlı müəssisə rəisinin mülahizəsi öyrənilmişdir. O, həqiqətən də kiçik

rejim pozuntularını törədən şəxsləri cərimə təcridxanasına salmamaq məqsədilə, qısa müddətə həmin otağa yerləşdirildiyini etiraf etmişdir.

Ombudsmanın MPQ üzvləri tərəfindən ***Penitensiar Xidmətin Həbsxanasına*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd burada saxlanma şəraiti və rəftar məsələlərinin, saxlanılan şəxslərin daxili intizam qaydalarına və beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin, habelə Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması olmuşdur.

Başçəkmə zamanı müəssisənin bir çox obyektlərinə, o cümlədən cərimə təcridxanasına, yeməkxanaya, mətbəxə və Tibb-sanitar hissəsinə baxış keçirilmiş, 20-dən artıq məhkum qəbul edilmişdir.

Müəssisə rəisi burada 474 məhkumun cəza çəkdiyini, onlardan 250-nin ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxs olduğunu qeyd etmişdir.

Cərimə təcridxanasında aparılan müşahidə zamanı bəzi kameralarda masa və oturacağın, habelə istiliyin olmadığı, yataq dəstlərinin nimdaş vəziyyətdə olduğu aşkar edilmişdir. Eyni zamanda, cərimə təcridxanasında üç məhkumun ayrı-ayrı kameralarda tək saxlanıldığı müəyyən olunmuşdur.

Daha sonra Tibb-sanitar hissəsinə (TSH) baxış keçirilmiş, orada bir sıra nöqsanlar aşkar edilmişdir. Belə ki, TSH-da antisanitar vəziyyətin hökm sürdüyü və bir çox dərmanların istifadə müddətinin bitdiyi aşkar edilmişdir.

MPQ üzvləri tərəfindən bir sıra məhkum qəbul edilmiş, onların müraciətləri dinlənilmiş, hər birinə qanunvericiliyin tələbləri, o cümlədən Ombudsmanın səlahiyyətləri izah edilmiş, habelə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, bəzi müraciətləri yerində təmin edilmişdir.

Yekunda müəssisə rəisi ilə təkrar görüş keçirilmiş, məhkumların qəbul zamanı qaldırdıqları məsələlər konfidensiallıq nəzərə alınmaqla diqqətə çatdırılmış, saxlanma şəraitinin və rəftarın təkmilləşdirilməsi, o cümlədən məhkumların səhhətlərinin və psixoloji durumlarının nəzarətdə saxlanılması ilə bağlı qanunamüvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən Penitensiar Xidmətin ***4 saylı Cəzaçəkmə Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

BMT-nın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun, CPT və SPT-nin tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd qadın məhkumlar üçün nəzərdə tutulmuş müəssisədə saxlanılan bəzi məhkumların qəbul edilməsi olmuşdur.

Başçəkmənin əvvəlində müəssisənin rəisi ilə görüş keçirilmişdir. Rəisin verdiyi məlumata görə 550 nəfər saxlanma limiti olan müəssisədə başçəkmə günündə 513 məhkum olmuşdur.

Başçəkmə zamanı məhkumlarla konfidensial qaydada söhbət aparılmış, Ombudsmana ünvanlanan ərizələri qəbul edilmiş, saxlanma şəraiti, rəftar məsələləri, sağlamlıq, qidalanma, telefon danışığı, görüş və digər hüquqlarının təmin olunması vəziyyəti ilə bağlı sorğu aparılmış, şəxslərə hüquqları, Ombudsmanın səlahiyyətləri və müvafiq qanunvericiliyin tələbləri izah olunmuşdur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın tapşırığı ilə MPQ üzvləri tərəfindən Penitensiar Xidmətin ***1 saylı Cəzaçəkmə Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd müəssisədə saxlanma şəraiti və rəftar məsələlərinin monitorinqi və burada cəza çəkən bəzi məhkumların qəbul edilməsi olmuşdur.

Başçəkmənin əvvəlində müəssisənin rəhbərliyi ilə görüş keçirilmiş, ilkin məlumatlar əldə edilmişdir. Verilən məlumata görə, 1200 məhkum üçün nəzərdə tutulmuş cəzaçəkmə müəssisəsində başçəkmə günü 1073 məhkum olmuşdur.

Cərimə təcridxanasına baxış keçirilərkən orada 23 məhkumun saxlanıldığı müşahidə olunmuş, onların hər biri ilə konfidensial qaydada söhbət aparılmışdır.

Cərimə təcridxanasında nəzarətçinin otağında açıq seyfdə qandallar və dərman preparatları aşkar edilmişdir. MPQ üzvləri tərəfindən müəssisənin həkimi çağırılaraq ona dərman vasitələrinin saxlanma qaydası ilə bağlı tövsiyələr verilmişdir. Cərimə təcridxanasının kameralarına baxış keçirilərkən yataq dəstləri ilə bağlı vəziyyətin ürəkaçan olmadığı, nimdaş vəziyyətdə olan yorğan-döşəklərin xeyli müddətdir dəyişdirilmədiyi müəyyən edilmişdir. Məhkumlardan bəziləri verilən yeməklərdən, qidanın keyfiyyətindən narazılıqlarını bildirmişlər. Məhkumlardan biri bu səbəbdən bir müddətdir yalnız su içdiyini bildirmişdir. Eyni zamanda məhkumlar tibbi xidmətin keyfiyyətsiz olduğunu, həkimlərin fəaliyyətinin formal xarakter daşıdığını qeyd ermişlər. Digər bir məhkum isə, cərimə təcridxanasında siçovulların, tarakanların olduğunu, bildirmişdir.

Başçəkmənin yekununda 1 saylı Cəzaçəkmə müəssisəsinin rəisi ilə görüş keçirilmiş, aşkar edilmiş nöqsanların aradan qaldırılmasının vacibliyi onun diqqətinə çatdırılmışdır.

Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən Penitensiar Xidmətin ***7 saylı Cəzaçəkmə Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd bu müəssisədə saxlama şəraiti və rəftar məsələlərinin, məhkumların beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin, habelə Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması olmuşdur.

Baxış zamanı cərimə təcridxanasında kompleks təmir işlərinin aparılmasına ehtiyac olduğu, o cümlədən buradakı sanitar qovşaqlara qapıların olmadığı və əvvəllər tibb otağı kimi istifadə olunmuş, hazırda istifadəyə yararsız vəziyyətdə olan otağın qapısına surğuc vurulmadığı, onun təmir üçün bağlandığı və ya istifadə olunmadığına dair müvafiq məlumatların asılmadığı müəyyən edilmişdir.

Başçəkmə zamanı ümumilikdə 20-dən çox məhkum konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti araşdırılmışdır. Qəbul edilmiş şəxslərə Ombudsmanın səlahiyyətləri izah olunmuş, qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, bəzilərinin təqdim etdiyi ərizələri qəbul olunmuşdur.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən Avropa Penitensiar Qaydalarına müvafiq şəkildə saxlanma şəraiti, rəftar, tibbi xidmət və sənədləşmə ilə bağlı çatışmazlıqların aradan qaldırılması üzrə müvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən Penitensiar Xidmətin ***8 saylı Cəzaçəkmə Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir. Baxış zamanı cərimə təcridxanasında kompleks təmir

işlərinin aparılmasına ehtiyac olduğu, sanitar qovşaqlarda qapıların olmadığı müşahidə edilmişdir.

Yeməkxanada antisanitariya qaydalarına lazımi şəkildə əməl olunmaması, natəmizliyin olması, menyuda dəyişiklik edilsə də, bunun sənədləşdirilməməsi, yemək nümunələrinin götürülməməsi kimi nöqsanlar aşkar edilmişdir.

Tibbi sanitar hissədə də vaxtı keçmiş dərman preparatları aşkar edilmiş, o cümlədən sənədləşmə işlərinin təkmilləşdirilməsinə ehtiyac olduğu müəyyən edilmişdir.

Saxlanma şəraiti və rəftar məsələlərinin araşdırılması məqsədilə bəzi məhkumlar MPQ üzvləri tərəfindən qəbul edilmişlər. Təkbətək söhbət zamanı bəzi məhkumlar müəssisə əməkdaşlarının onlara saqqal saxlamamaqla bağlı tələb qoymalarından şikayət etmişlər.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanma şəraiti, tibbi xidmət və sənədləşmə ilə bağlı çatışmazlıqların aradan qaldırılması üzrə müvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən ***Penitensiar Xidmətinin Müalicə Müəssisəsinə*** 2023-cü ildə üç dəfə başçəkmə həyata keçirilmişdir. Başçəkmələrdə məqsəd burada müalicə alan məhkumların və təqsirləndirilən şəxslərin saxlanma şəraiti və onlarla rəftar məsələləri, hüquqlarının təmini, tibbi yardım, habelə psixoloji işin təşkili məsələlərinin araşdırılması olmuşdur.

Müalicə Müəssisəsində sıxlıq olduğu, başçəkmələrdən birində 600 nəfər üçün nəzərdə tutulmuş müəssisədə 619 şəxsin saxlanıldığı müəyyən edilmişdir.

Başçəkmələr zamanı burada müalicə alan bəzi şəxslər, o cümlədən Tərbiyə Müəssisəsindən Müalicə Müəssisəsinə köçürülən 4 şəxslə fərdi qaydada görüş keçirilmişdir. Yetkinlik yaşına çatmayanlardan bəziləri səhhətlərində hər hansı bir şikayət olmadan, əsassız yerə Müalicə Müəssisəsinə köçürüldüklərini, bu müddət ərzində müalicə almadıqlarını, geyim əşyaları, yataq ləvazimatları, o cümlədən gigiyenik vasitələrlə təmin olunmadıqlarını, isti suyun verilmədiyini, telefon danışıqlarına icazə verilmədiyini, ibadət etmək üçün şərait yaradılmadığını bildirmişlər.

Söhbət zamanı qeyd olunan məsələlərlə bağlı şəxsi işlər araşdırılmış və həmin şəxslərin saxlanıldığı yerlərə baxış keçirilmişdir. Müvafiq sənədlərdə iki nəfərin psixoloji gərginlik keçirməsi səbəbilə Müəssisəyə yerləşdirildiyi qeyd olunsa da, aparılan araşdırma zamanı müəssisənin psixoloqunun məzuniyyətdə olduğu və şəxslərlə bağlı heç bir müayinə-müalicə tədbirlərinin həyata keçirilmədiyi aşkar edilmişdir.

Saxlanıldıqları əraziyə baxış zamanı isə, orada sanitar-gigiyena norma və qaydalarının pozulduğu, isti suyun gəlmədiyi, o cümlədən geyim, yataq ləvazimatların, gigiyenik vasitələrin olmadığı aşkar edilmişdir.

Yetkinlik yaşına çatmamış şəxsin təcrid palatasına keçirilən baxış zamanı onun yetkinlik yaşına çatmış 3 nəfər şəxslə bir yerdə saxlanıldığı MPQ üzvləri tərəfindən müşahidə edilmişdir. Bu isə, həm milli, həm də beynəlxalq normaların tələblərinə ziddir.

Təkliflərin icrasının və nöqsanların aradan qaldırılıb-qaldırılmamasının monitorinqi məqsədilə müəssisəyə keçirilən təkrar başçəkmə zamanı şəxslərin geyim dəstləri, yataq ləvazimatları, o cümlədən gigiyenik vasitələrlə təmin olunduğu, onların gəzintiyə çıxarıldığı, ailə üzvləri ilə görüşə və telefon danışıqlarına icazə verildiyi müəyyən edilmişdir.

Penitensiar Xidmətinin ***İxtisaslaşdırılmış Müalicə Müəssisəsinə*** başçəkmə zamanı qadın şöbəsinin, karantin, həmçinin qısamüddətli və uzunmüddətli görüş otaqlarının təmir olunduğu, cərimə təcridxanasının yenidən təmir olunması üçün işlərə başlanıldığı müşahidə edilmişdir.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan üç nəfər konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti araşdırılmışdır. Şəxslərdən biri cəzadan vaxtından əvvəl şərti azad olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Digər şəxs Bakı Ağır Cinayətlər Məhkəməsinin icraatında olan cinayət işinə obyektiv baxılmasında köməklik göstərilməsini xahiş etmişdir. Qəbul edilən növbəti şəxs isə mədəsində ağrıların olduğunu, müəssisə həkimlərinin ona qastroduodenoskopiya olunmasının məsləhət gördüyünü, lakin müvafiq ixtisaslı həkim məzuniyyətdə olduğuna görə müayinəsinin gecikdiyini bildirmişdir. Şəxsin atasının Ombudsmanın Çağrı Mərkəzinə ünvanladığı eyniməzmunlu müraciətilə bağlı Ədliyyə Nazirliyinin Tibb baş idarəsinə sorğu göndərilmişdir. Əlavə olaraq müəssisə rəhbərliyi qeyd olunan həkimin məzuniyyət müddətinin yekunlaşmaq üzrə olduğunu, 2 gün sonra onun işə çıxacağını və dərhal da şəxsin qastroduodenoskopiya olunacağını bildirmişdir. Bu barədə şəxsin özünə də məlumat verilmişdir.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən Avropa Penitensiar Qaydalarına müvafiq şəkildə saxlanma şəraiti və rəftar məsələlərinin təkmilləşdirilməsilə bağlı tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən Penitensiar Xidmətin ***13 saylı Cəzaçəkmə Müəssisəsinə*** əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir.

BMT-nın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədən məqsəd saxlanılan şəxslərin saxlanma şəraitinin, rəftar məsələlərinin, habelə daxil olmuş müraciətlərin araşdırılmasından, məhkumların hüquqlarının təminatı ilə əlaqədar vəziyyətin öyrənilməsindən ibarət olmuşdur. Başçəkmə zamanı müəssisənin obyektlərinə, o cümlədən cərimə təcridxanasına, tibb-sanitar hissəsinə, yeməkxanaya, mətbəxə baxış keçirilmiş və 20-dən artıq məhkum qəbul edilmişdir.

13 saylı Cəzaçəkmə Müəssisəsində planlı başçəkmə zamanı müəssisənin rəis müavini ilə görüş keçirilmiş, müəssisə haqqında ümumi məlumat əldə edilmişdir. Müəssisə rəisi ümumi tutumu 1050 nəfərdən ibarət olan müəssisədə 1053 məhkumun saxlanıldığını, cərimə təcridxanasında 6 məhkumun olduğunu və tibb-sanitar hissəsində 20 məhkumun müalicə aldığını qeyd etmişdir. O, həmçinin müəssisədə təmir-bərpa işlərinə başlanıldığını, hazırda bu işlərin davam etdirildiyini bildirmişdir. Belə ki, özünəxidmət yerinin, məscidin və yeməkxananın tam təmir olunduğunu qeyd etmişdir.

Bundan sonra MPQ üzvləri tərəfindən cərimə təcridxanasına keçirilən baxış zamanı orada ümumilikdə 9 kameranın mövcud olduğu, həmin kameralarda 6 məhkumun saxlanıldığı müşahidə olunmuşdur. Baxış zamanı bəzi kameralarda döşəklərin yararsız vəziyyətdə olduğu, paltarların köhnəldiyi, qidanın normal olmadığı, belə ki, gündəlik normaya uyğun təqdim edilmiş qidanın qəbul edilmədiyi, o cümlədən diş fırçası və sabun

verilmədiyi, gündəlik olaraq həkimin yoxlama həyata keçirmədiyi, istiliyin aşağı həddə olduğu, kranların işləmədiyi və dərmanların istifadə vaxtının keçdiyi müəyyən edilmişdir.

MPQ üzvləri tərəfindən su kranlarının dəyişdirilməsi və istiliyin artırılması ilə bağlı müəssisə əməkdaşlarına verilmiş tövsiyə nəzərə alınaraq, yerində məsələ həllini tapmış, yeni su kranları quraşdırılmış və istilik artırılmışdır.

Daha sonra müəssisədə saxlanılan bəzi məhkumlarla konfidensial şəkildə görüş keçirilmişdir. Qəbul edilmiş və dinlənilmiş hər bir məhkuma qanunvericiliyin tələbləri, o cümlədən Ombudsmanın səlahiyyətləri izah edilmiş, habelə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmişdir.

Başçəkmənin sonunda müəssisə rəisi ilə yekun görüş keçirilmiş, nöqsanların aradan qaldırılması, saxlanma şəraitinin və rəftarın təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın tapşırığı ilə MPQ üzvləri tərəfindən Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin ***14 saylı Cəzaçəkmə Müəssisəsinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd əvvəlki başçəkmələr zamanı müəyyən edilmiş nöqsanların aradan qaldırılması, Ombudsmanın tövsiyələrinin icrası vəziyyətinin, saxlanma şəraitinin və rəftarın öyrənilməsi, habelə müəssisədə saxlanılan bəzi məhkumların qəbul edilməsi olmuşdur.

Başçəkmə zamanı müəssisədə illərdir mövcud olan su probleminin həll edildiyi, yeni su xəttinin çəkildiyi müəyyən edilmişdir. Burada yeni istilik sistemi qurulmuş və isti su problemi də həllini tapmışdır. Bundan başqa, tibbi-sanitar hissədə kosmetik təmir işlərinin görüldüyü, müəssisənin ərazisində sanitar qovşağın olduğu yerlərin təmir edildiyi müşahidə edilmişdir. Məhkumların özünəxidmət yerində və mətbəxdə təmir işlərinin başlanıldığı müşahidə edilmişdir. Eyni zamanda, müəssisə ərazisində kiçik kafe də açılmışdır.

10 kameranın olduğu cərimə təcridxanasında başçəkmə günü 11 nəfərin saxlanıldığı məlum olmuşdur. Bir çok kamerada su kranlarının yararsız vəziyyətdə olduğu, bir kameranın isə əsaslı təmirinə ehtiyac olduğu məyyən edilmişdir.

Rəftar məsələlərinin araşdırılması məqsədilə həmin şəxslərlə fərdi qaydada söhbət aparılmışdır. Müəyyən edilmişdir ki, kameralara döşəklər və yataq dəstləri (mələfə) yalnız axşam saatlarında verilir və növbəti gün səhər saat 09:00-da yığışdırılır. Bu isə, cərimə təcridxanasında olan məhkumların günün digər saatlarında dincəlməsinə mane olan hal kimi qiymətləndirilir.

Cərimə təcridxanasının girişində təşkil edilmiş axtarış otağında antisanitariya şəraitinin hökm sürdüyü müşahidə edilmişdir. Buranın eyni zamanda cərimə təcridxanasının kamerası kimi istifadə edildiyi ehtimal edilir.

Mətbəxə baxış zamanı çörək saxlanılan otaqda paltar, dəsmal, gödəkçə və digər əşyaların saxlanıldığı, ümumi natəmizliyin hökm sürdüyü müşahidə edilmişdir. Keyfiyyətli qida ilə təminatın araşdırılması məqsədilə anbara baxış keçirilmiş, orada saxlanılan bəzi ərzaqların istifadəyə yararlılıq müddətini müəyyən etmək mümkün olmamışdır.

Başçəkmənin gedişində rəftar məsələlərinin öyrənilməsi və mümkün müracitlərinin dinlənilməsi məqsədilə 20 məhkum fərdi qaydada qəbul edilmişdir.

### 2.2.3. Səhiyyə Nazirliyinin müəssisələri

Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində 2023-cü il ərzində Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən Səhiyyə Nazirliyinin müəssisələrinə 25 başçəkmə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd saxlanılan pasiyentlərlə rəftar, saxlanma şəraiti, tibbi yardımın təşkili vəziyyəti və əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyətinin araşdırılması olmuşdur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyevanın tapşırığı əsasında Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Səhiyyə Nazirliyinin Respublika Psixiatriya Xəstəxanasına*** başçəkmə həyata keçirilib.

Başçəkmədə məqsəd bu müəssisədə olan 3 saylı Uşaq Evinin sakini M.H. ilə bağlı kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə yayımlanmış məlumatın araşdırılmasından ibarət olmuşdur.

İlk olaraq, müəssisənin baş direktorunun müavini ilə görüş keçirilmiş, M.H. ilə bağlı ümumi məlumat əldə edilmişdir. Bildirilmişdir ki, 26.11.2006-cı il təvəllüdlü həmin şəxs müəssisəyə 29 mart tarixdə qəbul edilib, müayinə zamanı ona XBT-10 üzrə F92 diaqnozu təyin olunub (emosiya və davranışın qarışıq pozuntusu). Daha sonra 15-ci şöbədə müalicə alan şəxslə onun olduğu palatada fərdi qaydada görüş keçirilmişdir. O, xəstəxana ilə bağlı şikayətinin olmadığını, ona yaxşı baxıldığını, lakin 3 saylı uşaq evinin rəhbəri ilə bağlı şikayətlərinin olduğunu qeyd etmişdir.

Respublika Psixiatriya Xəstəxanasının 15-ci şöbəsinin müdiri Sevinc Hüseynova ilə görüş zamanı o, həmin şəxsin emosiya və davranışın qarışıq pozuntusundan əziyyət çəkdiyini, lakin xəstəxanada qalmağa ehtiyacın olmadığını, azyaşlının yerləşdirilməsi üçün digər yerin olmaması səbəbilə uşağın orada qaldığını bildirmiş, M.H.-nin qardaşı tərəfindən müəssisədən çıxarılacağının gözlənildiyini qeyd etmişdir.

Qeyd olunmalıdır ki, növbəti dövrdə Respublika Psixiatriya Xəstəxanasının baş həkimi və 3 saylı Uşaq Evinin direktoru işdən azad edilmişlər.

MPQ üzvləri tərəfindən Səhiyyə Nazirliyinin ***2 saylı Kliniki Psixiatriya Xəstəxanasına*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd müəssisədə müalicə alan şəxslərlə rəftar, saxlanma şəraiti, tibbi yardımın təşkili vəziyyəti, saxlanmanın qanuniliyini təsdiq edən sənədlərin və əvvəlki başçəkmə zamanı verilmiş tövsiyələrin icra vəziyyətinin araşdırılması olmuşdur.

Saxlanma şəraitinin araşdırılması zamanı müəssisənin əsaslı təmirə ehtiyacının olduğu, divarlarda yüksək rütubət nəticəsində qabarmaların yarandığı, o cümlədən qadın və kişi şöbələrində sıxlıq olduğu, bu səbəblə çarpayıların bitişik yerləşdirildiyi müəyyən olunmuşdur. Kişi şöbəsində pasiyentlərin sərbəst şəkildə hərəkət etdiyi ümumi sahədə müəssisə əməkdaşları tərəfindən ütü işlərinin görüldüyü müşahidə edilmişdir. Əməkdaşlar bunun müəssisədəki sıxlıq və boş sahələrin olmaması ilə əlaqələndirmişdir. Xəstəxanada əsaslı təmir işlərinin aparılmasını, təhlükəsizlik tədbirlərinin gücləndirilməsini, habelə sıxlığın aradan qaldırılması istiqamətində müvafiq tədbirlərin

görülməsini vacibdir.

Müəssisənin qadın, kişi və qarışıq şöbələrinin “Xəstələrin sarınma və bağlanma” jurnallarında bəzi hallarda pasiyentlərin sarınma vaxtı göstərilsə də, açılması ilə bağlı saatın qeyd edilmədiyi, həkim imzalarının olmadığı aşkar edilmişdir.

Başçəkmə zamanı gündüz stasionar şöbəsində uşaqların qəbul edilməsi üçün xüsusi hissənin olmadığı, onlara fərq qoyulmadan böyüklərlə eyni şəraitdə xidmət göstərildiyi müşahidə edilmişdir. **Qeyd olunanları, habelə müraciət edənlər sırasında azyaşlı sayının çoxluğunu nəzərə alaraq, müəssisədə uşaqların qəbul edilməsi məqsədilə müvafiq şəraitin yaradılmasını təklif edirik.**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin ***Gəncə Psixiatriya Xəstəxanasına*** plan üzrə başçəkmə həyata keçirilmişdir.

Xüsusilə də həkim ştatlarının vakant olması çoxsaylı pasiyentləri olan xəstəxana üçün əsaslı çətinliklər yaradır. Xəstəxananın şöbələrində görüş otaqlarının mövcud olmadığı, qayğı otağı kimi istifadə olunan, xüsusilə ağır dəcərəli pasiyentlər üçün nəzərdə tutulmuş dəmir qapılı palatalardakı su krantlarının açıb-bağlamaq hissələrinin işlək olmadığı müşahidə olunmuşdur.

Xəstəxananaya baxış zamanı tibb otaqlarında saxlanılan psixotrop maddələrin ayrıca dəmir seyfdə deyil, digər dərmanlarla birgə saxlanılığı müşahidə edilmişdir.

Müəssisəyə əvvəlki başçəkmələr zamanı aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində verilən təkliflər nəzərə alınmaqla bəzi məsələlər müsbət həll edilmişdir. Belə ki, dərman vasitələrinin rəsmi qeydiyyat vərəqələrinin qanunvericiliyə uyğun tərtib olunduğu, xüsusi saxlanma rejimi tələb edən dərman preparatlarının yararlıq müddətləri ərzində keyfiyyətini itirməməsi üçün xəstəxanın aptekində müvafiq şəraitin təşkil olunduğu, 2-8°C temperaturda saxlanılması nəzərdə tutulan dərman preparatları üçün soyuducunun mövcud olduğu müşahidə olunmuşdur. Eyni zamanda, tibbi tullantılarla bağlı aşkar edilmiş nöqsanların aradan qaldırıldığı, tibbi otaqlarında xüsusi tibbi tullantılar üçün nəzərdə tutulmuş və işarələnmiş zibil qutularından istifadə olunduğu müşahidə olunmuşdur.

Qeyd edilən müsbət məqamlarla yanaşı, pasiyentlərin müəssisədə gündəlik gəzintiyə çıxarılmaları və telefon danışıqlarından istifadə imkanları məhdudlaşdırıldığı müəyyən edilmişdir ki, bu da Psixiatriya yardımı haqqında Azərbaycan Respublikasının Qanununun 23.2.3 və 23.2.4-cü maddələrinin tələblərinin pozulmasıdır.

Xəstəxanın 3-cü kişi şöbəsində stomatoloji kabinet olsa da, həmin kabinetin zəruri stomatoloji alət və vasitələrlə təchiz olunmadığı müşahidə edilmişdir. Xəstəxanada bütün növdən olan yumşaq inventarların, yuyucu və təmizləyici vasitələrin olmasına baxmayaraq, pasiyentlər üçün diş pastası və diş fırçalarının mövcud olmadığı müəyyən edilmişdir.

“Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə əsasən psixiatriya stasionarında yerləşdirilən pasiyentin hüquqları, o cümlədən nəzarətsiz məktublaşmaq, bağlama, banderol və pul baratları almaq və göndərmək, telefondan və digər rabitə vasitələrindən istifadə etmək, yaxınları ilə görüşmək hüquqları təsbit olunub. Həmin hüquqların həyata keçirilməsinin qeydiyyatının aparılması müəssisədə saxlanılan şəxslərin hüquqlarının təminatı və pasiyentlərə qarşı sui-istifadə hallarının və laqeyd münasibətlərin qarşısının alınması üçün zəruri olsa da

müvafiq qeydlər aparılmır. Həmçinin müəssisədə pasiyentlərin hüquq və vəzifələri haqqında məlumatlandırıcı lövhələrin də quraşdırılmasına ehtiyac vardır.

MPQ-nin üzvləri tərəfindən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin ***Qazax Psixiatriya Xəstəxanasına*** plan üzrə başçəkmə həyata keçirilmişdir.

Xəstəxananın ştatında 16 nəfər həkim ştatı olmasına baxmayaraq onlardan 10 ştatın vakant olduğu bildirildi.

Xəstəxananın dərmanların saxlanılması üçün istifadə olunan otağına baxış zamanı əvvəlki başçəkmə zamanı qeyd olunmuş nöqsanların aradan qaldırıldığı, həmin otağın qapısının və pəncərəsinin dəmir barmaqlıqlarla üzləndiyi, yararlılıq müddəti ötmüş dərman preparatlarının mövcud olmadığı, dərman vasitələrinin rəsmi qeydiyyat vərəqlərinin tərtib olunduğu, xüsusi saxlanma rejimi tələb edən dərman preparatların yararlıq müddətləri ərzində keyfiyyətini itirməməsi üçün otağın müvafiq soyuducu ilə təchiz olunduğu, psixotrop maddələrin saxlanılması üçün dəmir seyflə təchiz olunduğu müşahidə olunmuşdur.

Bununla yanaşı xəstəxananın birinci və ikinci mərtəbəsində yerləşən tibb otaqlarında psixotrop dərmanların hələ də digər dərmanlarla birgə açıq şəkildə saxlanıldığı müşahidə olunmuşdur.

Müəssisənin ümimi ərazisinə və bütün mövcud olan tibb otaqlarına, palatalara baxış zamanı MPQ üzvləri tərəfindən əvvəlki başçəkmə zamanı qeyd olunmuş şəraitlə bağlı bəzi nöqsanların aradan qaldırılmadığı, binanın əsaslı təmirə ehtiyacı olduğu, xüsusilə də sanitar qovşaqlarda və hamamda natəmizliyin və anti-sanitariyanın hökm sürdüyü, xəstəxanada müalicə alan pasiyentlərin bəzilərinin bədənlərinə zərər verici həşaratların (bit, birə və s.) ziyan vurduğu müəyyən edilmişdir.

Bir neçə palatada içməli sudan ağzı açıq olan dəmir vedrələrdən plastik su stəkanları ilə götürülməklə istifadə edildiyi, plastik su qablarının və stəkanların çarpayıların altında anti sanitar vəziyyətdə saxlanıldığı müşahidə olunmuşdur.

Başçəkmə zamanı müəssisədə ərzaq anbarı kimi istifadə olunan otağın əsaslı təmirə ehtiyacı olduğu, bir sıra qida məhsullarının-yumurta məhsullarının saxlanılması qaydalarına riayət olunmadığı, həmin məhsulların soyuducuda yox, açıq yerdə saxlanıldığı, həmçinin xəstələrin immuniteti üçün zəruri olan gündəlik qəbul edilməli olan meyvələrdən heç birinin mövcud olmadığı müşahidə olundu.

Xəstəxananın mətbəxi ilə tanışqlıq zamanı yeməklərin bişirilməsi üçün qazanların, həmçinin plastik qab-qacaqların köhnə olduğu, gigiyena və anti-sanitariya qaydalarına riayət olunmadığı, mətbəx işçilərinin paltarları üçün nəzərdə tutulmuş şkafda yemək alətlərinin, bıçaqların saxlanıldığı müəyyən olundu.

Qidalanma menyusunun gündəlik olaraq hazırlansa da, təqdim edilmiş son üç günün qidalanma menyusunda pasiyentlərə təqdim olunan qidaların eyni olduğu, menyuda gündəlik qida müxtəlifliliyinə riayət olunmadığı müəyyən edildi.

Pasiyentlər barəsində aparılmış tibbi məhdudlaşdırmaların "Fiksasiya" (məhdudlaşdırma) jurnalındada qeydə alınsa da, həmin məhdudlaşdırmaların başlanğıcı və bitmə müddətləri barədə aktlar tərtib olunmadığı, bu barədə fərdi tibbi kitabçalarda müfəssəl qeydlərin aparılmadığı müəyyən olunmuşdur.

"Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə əsasən psixiatriya stasionarında yerləşdirilən pasiyentin hüquqları, o

cümlədən nəzarətsiz məktublaşmaq, bağlama, banderol və pul baratları almaq və göndərmək, telefondan və digər rabitə vasitələrindən istifadə etmək, yaxınları ilə görüşmək hüquqları təsbit olunub. Həmin hüquqların həyata keçirilməsinin qeydiyyatının aparılması müəssisədə saxlanılan şəxslərin hüquqlarının təminatı və pasiyentlərə qarşı sui-istifadə hallarının və laqeyd münasibətlərin qarşısının alınması üçün zəruri olsa da müvafiq qeydlər aparılmır. Həmçinin müəssisədə pasiyentlərin hüquqları haqqında məlumatlandırıcı lövhələrin də quraşdırılmasına ehtiyac vardır.

Həm kişilərin, həm də qadınların müalicə və reabilitasiya şöbələrində yaşayış sahəsinin mövcud saxlanılam normalarına uyğun olmaması (çarpayılar arası məsafənin az olması və ya olmaması)müşahidə edilmişdir.

MPQ üzvləri tərəfindən ***Lənkəran Şəhər Psixatriya Xəstəxanasına*** başçəkmə həyata keçirilmişdir. Müəssisədə tibbi yardımın təşkili məsələsi araşdırılarkən müəyyən olundu ki, Psixatriya Xəstəxanasında 16 həkim ştatı üzrə cəmi üç həkim-psixiatr fəaliyyət göstərir, bu da öz növbəsində göstərilən tibbi yardımın qeyri-effektiv olmasını şərtləndirir.

Başçəkmə zamanı müəssisədə dərman təchizatının qənaətbəxş olmadığı, Nazirlik tərəfindən lazımi miqdarda dərman verilmədiyi və dərmanların müəssisədə müalicə alan şəxslərin yaxınları tərəfindən alındığı müəyyən edilmişdir. Palatalarda olan çarpayılarda döşəklərin yararsız vəziyyətdə olması və yeniləri ilə əvəz edilməsinin zəruriliyi müşahidə edilmişdir. Bundan başqa, müalicə alan şəxslərin heç birinə əl-üz dəsmalının və şəxsi gigiyena vasitələrinin verilmədiyi müəyyən edilmişdir. Qeyd edilənlərin Səhiyyə Nazirliyi tərəfindən davamlı təminatı zəruridir. Pasiyentlərin içməli su və isti su ilə təminatında da problemlər olmuşdur.

Mətbəx və anbarda sanitar-gigiyena qaydalarına əməl olunmadığı, gündəlik menyunun tərtib edilmədiyi, yemək nümunələrinin götürülmədiyi, yeməyin keyfiyyətinə nəzarət edilmədiyi və bununla əlaqədar qeydiyyat jurnalının olmadığı və ərzaqların çox az olması müşahidə olunmuşdur.

MPQ üzvləri tərəfindən ***Quba Rayonlararası Psixonevroloji Mərkəzinə*** başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin palatalarına, mətbəxə və digər inzibati otaqlara baxışlar keçirilmiş, qidalanma, içməli su, isti və soyuq su təminatı və sənədləşmə araşdırılmışdır.

Başçəkmələr zamanı məlum olmuşdur ki, müəssisədə mövcud olan, 6 psixiator həkim ştatı 3 həkimlə komplektləşdirilmiş və orta tibb heyyəti 22 ştat vahidi əvəzinə 11 nəfərdən ibarətdir. Bu isə istər-istəməz, müyyən xidmətlərin təminində çətinliklərə səbəb olur. Müəyyən edilmişdir ki, müəssisəyə verilən psixotrop dərmanların əksəriyyəti Ukrayna Respublikasında istehsal olunduğundan, son zanamlar qeyd olunan dərman preparatlarının təminatında fasilələr yaranır.

***Şəki Rayon Psixiatriya Xəstəxanasına*** plan üzrə başçəkmə keçirilmişdir. Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Qax, Zaqatala və Balakən rayonlarını əhatə edən xəstəxanada həkim personalının çatışmazlığını və stomatoloji avadanlıqların olmadığı müəyyən edilmişdir.

Müəssisənin bir sıra yerlərində divarların aşağı hissələrində qabarmalar, sanitar qovşaqların və dəhlizin tavanının bəzi hissələri yarasız vəziyyət saxlanma şəraiti ilə bağlı əsas problemlərdir.

Xəstəxanada kitabxananın olmadığı, ultrasəs müayinə (USM), elektrokardioqrama (EKQ), elektroensofaloqramma (EEQ) və rentgen müayinələri üçün cihazlar olsa da, mütəxəssis olmadığından istifadəsiz qaldığı müşahidə edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin ***Gəncə şəhər Narkoloji Dispanserinə*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı xəstəxana binasının ümumilikdə köhnə və natəmiz olması, stasionar şöbənin palatalarının, eləcə də palatalardakı çarpayı və digər əşyaların köhnə, səliqəsiz, şəraitsiz olması, istilik sisteminin olmaması, istifadə olunan palataların elektrik qızdırıcıları ilə qızıdırılması, xəstələrin asudə vaxtlarının təşkili üçün heç bir şəraitin (televizor, idman qurğusu və.s.) olmaması müşahidə edilmişdir.

Müəssisədə dərmanların saxlanılma qaydalarına riayət olunmaması, həmçinin zəruri dərman preparatlarının mövcud olmaması müəyyən edilmişdir. Aptek otağına məsul tibb bacısının məlumatına əsasən dərmanlar tez bitdiyindən zəruri dərmanların alınması xəstələrin öz hesabına həyata keçirilir.

Müəssisənin müayinə otağı ilə tanışlıq zamanı müxtəlif narkotik maddələrin aşkarlanması məqsədilə narkoloji müayinələr üçün test çatışmazlığının mövcud olduğu müəyyən edilmişdir. Belə ki, verilən məlumata görə bir sıra narkotik maddələrin MET (metamfetamin), AMP (amfetamin), THC (marixuana), OPİ (heroin), TML (tramadol), MTD (metadon) aşkar edilməsi üçün həmin maddələrə müvafiq xüsusi testlərdən istifadə olunmalıdır. Lakin, həmin testlər əksər hallarda kifayət qədər verilmədiyindən test çatışmamazlığı problemi yaşanır.

Müəssisənin mətbəxi ilə tanışlıq zamanı mətbəxin binasının köhnə və uzun müddətli aşınmalara məruz qaldığından burada yeməklərin hazırlanması və qabların yuyulması üçün zəruri sanitar qaydalara riayət olunmasının mümkünsüzlüyü müşahidə edilmişdir.

***Lənkəran Rayonlararası Narkoloji Xəstəxanasına*** başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd müəssisədə saxlanma şəraiti və rəftarın qiymətləndirilməsi, qidalanma və dərman təchizatı, tibbi xidmət və diqqət yetirilməli olan digər məsələlərin dairəsinin müəyyənləşdirilməsindən ibarət olmuşdur.

Cənub bölgəsində yerləşən 7 rayon – Lənkəran, Masallı, Astara, Cəlilabad, Lerik, Yardımlı və Biləsuvardan olan narkotik, alkoqolik və toksik maddə aludəçiləri üçün nəzərdə tutulan müəssisədə başçəkmə günü 4 nəfər müalicə olunurdu.

Lənkəran Rayonlararası Narkoloji Xəstəxanasına baxış zamanı ikinci mərtəbədə yerləşən bütün otaqların tavanlarının sıradan çıxdığı, yağış sularının palata və digər xidməti otaqlara axdığı və xəstəxananın dam örtüyünün qəzalı vəziyyətdə olduğu müşahidə edilmişdir. Mövcud vəziyyət xəstəxana əməkdaşlarının işini çətinləşdirir və müalicə olunanların hüquqlarını pozur, həmçinin bu vəziyyət xəstəxanada müalicə alan şəxslərin digər xəstəliklərə də yoluxma təhlükəsini yaradır.

Lənkəran Rayonlararası Narkoloji Xəstəxanasında psixoloq ştatının vakant olduğu müəyən edilmişdir.

Dərman anbarına baxış keçirilən zaman dərman preparatlarının azlığı və dərmanların lazım olan temperaturda saxlanılması üçün soyuducu sistem və ya kondisionerin olmaması müşahidə edilmişdir.

Milli Preventiv Mexanizm qismində fəaliyyəti çərçivəsində Səhiyyə Nazirliyinin ***1 saylı Körpələr Evinə*** həyata keçirilmiş planlı başçəkmə zamanı saxlanma şəraiti, rəftar məsələləri, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması, tibbi yardımın və psixoloji işin təşkili, müəssisədə saxlanılan valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının təmini vəziyyəti öyrənilmiş, aşkar olunmuş və yerində aradan qaldırılması mümkün olan problemlərlə bağlı müəssisə rəhbərliyinə tövsiyələr verilmiş, habelə uşaqların hüquqlarının qorunması və gələcəkdə onlara qarşı hər hansı pis rəftar hallarının baş verməsinin qarşısının alınması məqsədilə müəssisə rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Qeyd olunmalıdır ki, öncəki başçəkmələr zamanı müəyyən edilən bir sıra çatışmazlıqlar verdiyimiz təklif və tövsiyələr də nəzərə alınmaqla həll olunmuşdur. Belə ki, Körpələr evinin yemək menyusunda meyvə çeşidliliyi artırılmış, süd məhsulları (pendir, kəsmik) əlavə olunmuş, uşaqlarla psixoloji işin aparılması məqsədi ilə müəssisənin fəaliyyətinə müvəqqəti cəlb olunan psixoloqlar tərəfindən uşaqlarla psixoloji iş aparılmışdır. Müəssisədə cari təmir işlərinn getdiyi müşahidə edilmişdir.

Bunlarla yanaşı başçəkmə zamanı bir sıra nöqsan və çatışmazlıqlar da aşkar edilmişdir.

Qidalanma ilə bağlı məsələlər araşdırılan zaman, müəssisədə körpələrə yalnız quru süd verildiyi, təbii süd ilə təchizatın nəzərdə tutulmadığı, anbardakı soyuducuda istifadəyə yararlılıq müddəti bitmiş qida məhsulu (mayonez) olduğu, bəzi ərzaq məhsullarının (ət, un və paxlalılar) saxlama müddətinə dair qeydlərin olmadığı aşkar edilmişdir. Ümumilikdə müəssisənin yemək (qidalanma) menyusunun azyaşlıların enerjiyə olan tələbatı nəzərə alınaraq müasir standartlara uyğun şəkildə təkmilləşdirilməsinə ehtiyac vardır.

Başçəkmə zamanı müəssisədə əməkdaş/uşaq nisbətinin tövsiyə edilən sayda olmadığı, işçilərin fiziki olaraq körpələrə baxmağa imkanlarının yetmədiyi, uşaqların psixoloji inkişafı ilə məşğul olan daimi mütəxəssislərin olmadığı, azyaşlıların yaşlarına uyğun və inkişafetdirici oyuncaqlarla demək olar ki təmin edilmədiyi, qrup məşğələlərinin effektiv keçirilmədiyi və müvafiq qaydada planlaşdırılmadığı müəyyən edilmişdir. Müəssisə rəhbəri buna səbəb kimi kadr çatışmazlığını qeyd edərək, 5 həkimdən 2 həkimin öz ərizəsi ilə işdən ayrıldığını, 1 həkimin əmək məzuniyyətində olduğunu bildirmişdir. Körpələr evinə müvafiq ixtisaslı kadrların cəlb olunması istiqamətində tədbirlərin görülməsini uşaqların hüquqlarının qorunması və inkişafı üçün vacib hesab edirik. Bundan başqa, körpələrin bədən səthində həşərat sancması nəticəsində yaranan qızartılar, habelə bişməcələr, o cümlədən geyimlərinin nimdaş olduğu müşahidə edilmişdir.

Başçəkmə zamanı müəssisədə sanitar-gigiyenik normalara qismən əməl edildiyi, əməkdaşların şəxsi əşyalarının (geyim, kosmetik vasitələr, ərzaqlar və s.) körpələrin yaşadığı sahədə yerləşdirildiyi, habelə kənar şəxslərin müəssisəyə daxil olması ilə bağlı qaydaların olmadığı (məsələn, şəxslərə baxil verilmədiyi), camaşırxanada ümumi səliqəsizlik, iki paltaryuyan maşından birinin işlək olmadığı, həyətyanı sahədə yerləşən zibil qutularının müəssisənin camaşırxanasının darvazasına söykəndiyi və bunun

nəticəsində ziyanvericilərin (siçovul, həşəratlar) müəssisəyə daxil olduğu müəyyən edilmişdir. Müəssisədə sanitar-gigiyenik normalara düzgün riayət olunması, əməkdaşların şəxsi əşyalarının saxlanması üçün yerin ayrılması, ərzaqların istifadə müddəti və qaydalarına uyğun saxlanılması mühüm tələblərdəndir.

### 2.2.4. Elm və Təhsil Nazirliyinin müəssisələri

2023-cü ildə Ombudsmanın MPM fəaliyyəti çərçivəsində Elm və Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrə əvvəlcədən xəbərdarlıq etmədən 45 başçəkmə həyata keçirilmişdir.

Təşkil olunmuş başçəkmələrdə məqsəd beynəlxalq təcrübə nəzərə alınmaqla təhsil müəssisələrində saxlanma şəraiti və rəftar məsələlərinin, təhsil alan uşaqların hüquqlarının təmini, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması, habelə müəssisələr üzrə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin araşdırılması olmuşdur.

MPM mandatı çərçivəsində növbəti başçəkmələr Sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 nömrəli Respublika xüsusi internat məktəbinə, 1 nömrəli ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbinə, Quba Xüsusi Peşə Məktəbinə, Quba şəhər Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəbinə, R.Kəlbiyev adına Xınalıq kənd internat tam orta məktəbinə, Siyəzən şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyaya, Zaqatala şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyaya, Balakən rayon İnteqrasiya təlimli internat tipli gimnaziyaya, Mingəçevir şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyaya, Lənkəran şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya, Goranboy şəhər R.Ağakişiyev adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya, Ağdaş rayonu M.Şeyxzadə adına İnternat Tipli Texniki, Humanitar və Təbiət fənlər təmayüllü gimnaziyaya həyata keçirilmişdir. Başçəkmələrdə məqsəd bu müəssisələrdə təhsil alan uşaqların hüquqlarının təmini vəziyyəti, rəftar məsələləri və saxlanma şəraiti, tibbi yardımın və psixoloji işin təşkili, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması, o cümlədən əvvəlki başçəkmələr zamanı müəyyən edilmiş nöqsanların aradan qaldırılması ilə bağlı tapşırıqların icrası məsələlərinin yerində araşdırılması olmuşdur.

Qeyd olunmalıdır ki, Elm və Təhsil Nazirliyinin tabeliyindəki müəssisələrə əvvəlki başçəkmələr zamanı müəyyən edilən çatışmazlıqların aradan qaldırılması istiqamətində verilən təklif və tövsiyələr də nəzərə alınmaqla bir sıra məsələlərin həll edildiyi müşahidə edilmişdir.

Bunlarla yanaşı başçəkmələr zamanı bir sıra nöqsan və çatışmazlıqlar aşkar edilmişdir. Belə ki, sağlamlıq imkanları məhdud uşaqların təhsil aldığı internat məktəblərində xüsusi təhsilə cəlb olunmuş azyaşlıların, ibtidai sinif şagirdləri istisna olmaqla, müvafiq dərslik və dərs vəsaitləri ilə təmin edilmədiyi müəyyən olunmuşdur. «Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında» Azərbaycan Respublikasının Qanunun 5-ci maddəsində sağlamlıq imkanları məhdud şəxslərin xüsusi təhsil proqramları və fərdi tədris planı əsasında məktəbəqədər və ümumi təhsil almaq hüquqları təsbit olunmuşdur. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”nın 1.4-cü bəndində 2015-2023-cü illər ərzində sağlamlıq imkanları

məhdud şəxslərin inkişafı və inklüziv təhsili üzrə dövlət proqramının hazırlanması, təsdiqi və həyata keçirilməsinin nəzərdə tutulduğu qeyd edilmişdir. ***Yuxarıda göstərilənləri nəzərə alaraq, sağlamlıq imkanları məhdud uşaqların hərtərəfli inkişaf hüququnun, o cümlədən keyfiyyətli təhsil almaq hüququnun təmini məqsədilə onların müvafiq dərsliklərlə təmin olunmasını, bu sahədə dövlət standartlarının və təhsil proqramlarının (kurikulum) mümkün olan ən qısa zaman ərzində tərtib olunmasını vacib hesab edirik.***

Başçəkmələr zamanı uşaqların istifadəsində olan sanitar qovşaqların kabinə qapılarının nəzərdə tutulmadığı aşkar edilmiş, müəssisə əməkdaşları bunu uşaqların təhlükəsizliyinin təmin edilməsi ilə izah etmişlər. Lakin aşkar edilən vəziyyətin tələblərə uyğun olmadığını söyləmək olar. Belə ki, müvafiq normalara əsasən oğlanlar və qızlar üçün kilidsiz qapılı kabinələri olan sanitar qovşaqlar nəzərdə tutulur.

Uşaqların sağlamlıq və inkişaf hüquqlarının təmini məsələləri araşdırılan zaman, "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş, eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları"nda təsbit olunmuş psixoloji xidmətin fəaliyyət istiqamətlərinə əməl olunmadığı, uşaqların fərdi inkişaf planlarının əsasən tərtib olunmadığı və ya bunun formal xarakter daşıdığı, digər pedaqoji işçilərlə əməkdaşlıq çərçivəsində azyaşlılara yönəlmiş kompleks tədbirlərin həyata keçirilmədiyi, psixoloji və loqopedik işin aparılması üçün nəzərdə tutulmuş didaktik materialların çatışmazlığı müşahidə olunmuşdur. Söhbət zamanı məktəb psixoloqlarına uşaqların müxtəlif həssas kateqoriyalardan olduqları bildirərək hər bir uşağa fərdi yanaşmaqla yanaşı, psixoloji işin aparılması üçün baza sənədlərin, protokolların hazırlanmasının vacib olduğu bildirilmişdir.

***Bu baxımdan uşaqların sağlamlıq və inkişaf hüquqlarının təmini məqsədilə azyaşlıların psixi sağlamlığına göstərilən diqqətin artırılmasını, qeyd olunan çatışmazlıqların aradan qaldırılmasını vacib hesab edirik. Yuxarıda göstərilənləri nəzərə alaraq, uşaqlarla psixoloji işin aparılmasında müvafiq standartlaşdırılmış sənədlərin, fərdi iş planlarının formalarının işlənib hazırlanmasını, müəssisələrdə təlim ehtiyaclarının qiymətləndirilməsini, əməkdaşların dəstəklənməsini, superviziya imkanlarının və resurs mərkəzinin yaradılmasını, müəssisə rəhbərlərinin və əməkdaşlarının ixtisasartırma proqramlarına, təlimlərə cəlb edilməsini, uşaqlarla müxtəlif tipli məşğələlərin aparılması üçün psixoloji kabinetlərin əyani vəsaitlərlə təmin olunmasını tövsiyə edirik***.

Başçəkmələr zamanı azyaşlıların asudə vaxtının səmərəli təşkilinə, maraqlarının və qabiliyyətlərinin, o cümlədən peşə maraqlarının öyrənilməsinə ehtiyacın olduğu müəyyən edilmişdir. Eyni zamanda, əksər məktəblərdə əmək təlimi, peşə hazırlığı işlərinin aparılması üçün maddi-texniki bazanın, o cümlədən emalatxanaların olmadığı müşahidə olunmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 78 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamə"nin 30-cu bəndinə əsasən xüsusi təhsil müəssisələrində əmək təlimi, peşəyönümü və peşə hazırlığı işlərinin təşkili ən vacib məsələ kimi nəzərdə tutulur və şagirdlərin müstəqil həyata hazırlanması və sosial uyğunlaşmasının başlıca şərti hesab olunur. ***Qeyd olunanları nəzərə alaraq, məktəblərdə peşəyönümü işlərin davamlılığının təminini, müvafiq məşğələ saatlarının tədris planına əlavə olunmasını və emalatxanaların***

***açılmasını, azyaşlıların asudə vaxtının səmərəli təşkili istiqamətində kompleks tədbirlərin görülməsini təklif edirik.***

İnternat tipli məktəblərdə uşaqlarla və müəssisə əməkdaşları ilə aparılan söhbətlər zamanı azyaşlıların hamam otağındakı krandan su içdikləri və əlavə içməli su ilə təmin olunmadıqları, gecələyən şagirdlərin bəzi hallarda susuz qaldığı müəyyən edilmişdir. ***Təməl ehtiyaclarından olan su tələbatının müvafiq keyfiyyət parametrlərinə uyğun təmin olunması vacib və təcili məsələlərdəndir.***

Başçəkmələr zamanı sənədləşməyə aid bir sıra çatışmazlıqlar da aşkar edilib. Belə ki, əksər məktəblərdə gecələyən uşaqların müxtəlif tipli dəftər və ya jurnallarda adlı siyahının tərtib olunmadan yalnız say ilə (misal, 21.09.23-cü il tarixdə 17 uşaq gecələyib) qeydiyyatının aparıldığı, bununla bağlı vahid bir qaydanın olmadığı, bu sənədlərdə çoxsaylı düzəlişlərin aparıldığı müşahidə olunmuşdur. Uşaqların təhlükəsizliyinin təmin etmə, hesabatlılığın şəffaf aparılması baxımından məsələ ilə bağlı standart qaydanın tətbiq olunması məqsədəmüvafiqdir.

***Sənədləşməyə aid digər problem müəssisələrin Nizamnamələrinin olmaması və ya yenilənməməsi ilə bağlıdır ki, bu məsələyə tezliklə baxılmasını məqsədəuyğun hesab edirik.***

Qeyd olunan ümumi problemlərlə yanaşı, başçəkmələr zamanı konkret müəssisələr üzrə müəyyən olunmuş bir sıra nöqsan və çatışmazlıqları aşkar edilmişdir.

***Sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 nömrəli Respublika xüsusi internat məktəbinə*** keçirilən başçəkmə zamanı məktəbin 2/3 hissəsində 136 qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdığı, bu səbəblə uşaqların yataq otaqlarında sıxlıq yaşandığı, məktəb ərazisinin böyük hissəsinin nəzarətsiz qaldığı, o cümlədən müəssisəyə giriş-çıxışın tənzimlənmədiyi müşahidə edilmişdir. “Uşaq hüquqları haqqında” Konvensiya, “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu hər bir uşağın təhlükəsiz mühitdə fiziki, əqli və mənəvi cəhətdən inkişaf etmək, həyat və sağlamlığının mühafizə edilməsi hüququnu təsbit edir. Qeyd edilən məktəb ərazisinin böyük hissəsinin nəzarətsiz qalması və giriş-çıxışının tənzimlənməməsi özünü müdafiə imkanı olmayan sağlamlıq imkanları məhdud uşaqların həyat və sağlamlığını təhlükə altına qoyur. Adıçəkilən qanunun “İnternat müəssisələrində uşaqların saxlanmasının və tərbiyəsinin şərtləri” adlanan 33-cü maddəsində uşaq evlərində və uşaq internat müəssisələrində uşaqların hərtərəfli fiziki və mənəvi inkişafı, şəxsiyyətinin formalaşması məqsədilə ailə şəraitinə yaxınlaşan zəruri maddi və mənəvi-psixoloji şəraitin yaradılması qeyd edilir.

Məktəbin yataqxanasında işıqlandırmanın normadan zəif olduğu, bəzi hallarda çarpayıların bitişik yerləşdiyi aşkar edilmişdir.

Xüsusi təhsilə cəlb olunmuş uşaqların, ibtidai sinif şagirdləri istisna olmaqla, müvafiq dərslik və dərs vəsaitləri ilə təmin edilmədiyi müəyyən olunmuşdur.

Yeməkxana korpusunun digər korpuslardan kənarda yerləşdiyi, şagirdlərin məcburi köçkünlərin yaşayış sahəsi kimi istifadə etdiyi ərazidən keçməməsi məqsədilə yeni qapının quraşdırıldığı, lakin onun açıq saxlanıldığı, başçəkmə günündə təsdiq olunmuş menyuda tərəvəzli salat nəzərdə tutulsa da, uşaqlara yalnız doğranmış soğanın salat kimi təqdim edildiyi aşkar olunmuşdur.

Müəssisədə yalnız bir psixoloq fəaliyyət göstərir ki, 538 sağlamlıq imkanları məhdud uşağa münasibətdə bu kifayət deyil. Bununla yanaşı əyani vəsaitlərin çatışmazlığını,

aparılan psixoloji işin qənaətbəxş olmadığı da nəzərə alınsa, bu sahədə müvafiq tədbirlərin görülməsi zəruridir.

1 nömrəli ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbinə həyata keçirilən başçəkmə zamanı müəssisənin direktoru tərəfindən şagirdlərin əksəriyyətinin çətin tərbiyə olunan uşaqlar olduğu, zəruri hallarda məktəbə polis əməkdaşlarının dəvət edildiyi, 7-9-cu sinif şagirdi olan 12 azyaşlı barədə müxtəlif qurumlara edilən çoxsaylı müraciətlərin nəticəsiz qaldığı, hal-hazırda məktəbin nizam-intizamının tənzimləməsində çətinliklərlə üzləşdiyi bildirilmişdir. Milli Preventiv Qrup (MPQ) üzvləri tərəfindən uşaqlarla keçirilən görüşlər zamanı, davamiyyətin aşağı olduğu, uşaqların nizam-intizamı tənzimləyən qayda və prosedurlara riayət etmədiyi, 9-cu siniflərdə oxuyan şagirdlərin belə gələcək həyatla və peşə seçimləri ilə bağlı hər hansı fikirlərinin olmadığı, bu istiqamətdə yaranan suallara cavab verəcək şəxslərə ehtiyac duyduqları, bəzi uşaqların kriminal aləmin nümayəndələrinin həyat tərzini və düşüncələrini özlərinə nümunə hesab etdikləri müşahidə olunmuşdur. Eyni zamanda, həmin uşaqların demək olar ki, heç bir sosial fəaliyyətinin olmaması, asudə vaxtlarının tamamilə müəssisədaxili və ya yaxın ətrafda (Maştağa qəsəbəsi) keçirməsi müəyyən mənada onların cəmiyyətdən təcrid olunduğunu deməyə əsas verir. Bu kimi müəssisələrdə oxuyan uşaqların çətin ailə mühitindən gəlməsi, ailədaxili münasibətlərin problemli olması, ümumilikdə həssas kateqoriyaya aidliyi onlarla aparılan işə diqqətin artırılmasını, müvafiq tədbirlərin həyata keçirilməsini zəruri edir. Belə ki, rəhbərlik tərəfindən uşaqlarla fərdi və qrup şəklində görüşlərin keçirildiyi bildirilsə də, aparılan işin təkmilləşməsinə (korreksiyaedici tədbirlər şifahi söhbətlərdən ibarətdir, bu istiqamətdə müəyyən proqram və ya sistem yoxdur, eyni zamanda rəğbətləndirmə tədbirlərinə də yer verilmir), asudə vaxtın səmərəli təşkilinə (sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkili, müxtəlif dərnəklərin yaradılması, maddi-texniki bazanın, o cümlədən emalatxanaların təşkili və s.) psixoloqların və digər əməkdaşların dəstəklənməsinə, peşə seçimi prosesinin uşaqlarla aparılan işin tərkib hissəsinə çevrilməsinə böyük ehtiyac var. Eyni zamanda, çətin tərbiyə olunan uşaqlarla bağlı ümumtəhsil məktəblərinin işçilərinin bilik və bacarıqlarının artırılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik.

Uşaqların istifadəsi üçün nəzərdə tutulmuş hamam otağının yataqxanadan kənar ərazidə yerləşdiyi, bu səbəblə, xüsusilə hava temperaturunun aşağı olduğu zamanlarda azyaşlıların əziyyət çəkdiyi müəyyən edilmişdir. Hamam otağında duş kabinələrinin, arakəsmələrin olmadığı, uşaqların yalnız cinsiyyəti nəzərə alınaraq qrup şəklində çimizdirildiyi (qızlar və oğlanlar fərqli vaxtlarda), sanitar qovşaqlarda isə kabinələrin qapılarının olmadığı müəyyən olunmuşdur. Aşkar edilən faktlar beynəlxalq standartların tələblərinə uyğun gəlmir.

Başçəkmə günündə menyuda balıq nəzərdə tutulsa da, bütün hallarda toyuq əti ilə əvəz olunduğu müşahidə edilmişdir ki, bu da menyunun formal xarakter daşıdığına ehtimal verir.

***Quba Xüsusi Peşə Məktəbinə*** keçirilən başçəkmələr zamanı orada saxlanma şəraitinin standartlara cavab vermədiyi və uşaqlar üçün uyğun olmadığı, binanın qəzalı vəziyyətdə olduğu, o cümlədən müəssisənin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında" nümunəvi nizamnaməsində təsbit olunan uşaqların davranışının korreksiyası və cəmiyyətə uyğunlaşması, o cümlədən onların tibbi,

sosial reabilitasiyası, habelə psixoloji reabilitasiya və psixoloji korreksiyasını təmin etmək, təhsili üçün şərait yaratmaq məqsədlərinə cavab verməbdiyi, habelə müəssisənin tibb otağına baxış keçirilən zaman, bir sıra dərman preparatlarının yararlılıq müddətinin bitdiyi aşkar edilmişdir.

Başçəkmə zamanı müəssisədə 9 oğlan uşağının qaldığı qeydə alınmışdır. Lakin qanunvericiliyə əsasən müəssisənin yaradılması və fəaliyyəti üçün minimum 25 uşağın olması tələb olunur. **Qeyd edilənləri nəzərə alaraq, müəssisənin standartlara uyğun şəkildə yenidən təşkilini, uşaqların sağlamlıq və inkişaf hüquqların təmin edilməsini və müəyyən olunmuş nöqsanların aradan qaldırılması vacibdir.**

***R.Ağakişiyev adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** başçəkmə zamanı müəssisənin yataqxana, kitabxana, anbar və idman zalının qəzalı vəziyyətdə olduğu, siniflərin və dəhlizlərin pəncərələrinin sınmış hissələrinin taxta və digər materiallarla örtüldüyü, tualet sahəsinin sanitariya qaydaları və normalarına uyğun olmadığı, buranın şagirdlərin və pedaqoji heyətinin ortaq istifadəsində olduğu müşahidə edilmişdir. Qeyd olunan amillər uşaqların sağlam və təhlükəsiz mühitdə yaşamaq və təhsil almaq hüququnun təmin edilməsində çətinlik yaradır. Gimnaziyanın əsaslı təmir edilməsi və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi vacibdir.

Təhsil müəssisəsinin psixoloji xidmətin təşkili üçün nəzərdə tutulmuş avadanlıq və didaktik materiallarla təchiz edilmədiyi, həkim ştatının uzun müddətdir ki, vakant olduğu müşahidə edilmişdir.

***Zaqatala şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** keçirilən başçəkmə zamanı müəssisənin istifadəyə yararsız vəziyyətdə və əsaslı təmirə ehtiyacının olduğu, ***Şəki şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyanın*** da təmir edilməsinə zərurət yarandığı, ***Balakən şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyada*** isə müəssisə direktoru tərəfindən uşaqların fərdi-gigiyenik əşyalarla təminatı ilə bağlı etdiyi müraciətlərin nəticəsiz qaldığı, yorğan sayının yataq sayına uyğun verilmədiyi (80 çarpayı – 35 yorğan, başçəkmə tarixində gecələyən şagird sayı - 87), 1 ildən artıq müddətdir ki, həkim ştatının vakant olduğu bildirilmiş, o cümlədən məktəbin təmir edilməsinə ehtiyacın və sanitar qovşaqların istifadəyə yararsız vəziyyətdə olduğu, gecələyən şagirdlərin qeydiyyatında nöqsanlar müəyyən edilmişdir.

***Mingəçevir şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyada*** aparılan monitorinq zamanı isə, müəssisədə 17 məcburi köçkün ailəsinin məskunlaşması səbəbilə tədris korpusunun və yataqxananın təmir işlərinin yekunlaşdırılmadığı, idman, akt zallarının və texnologiya emalatxanasının tikilməsinin, habelə təhlükəsizlik kameralarının və internet xəttinin quraşdırılmasının mümkün olmadığı, həmçinin məktəbin girişində mühafizəçi otağının olmamasının burada təhlükəsizliyin təmin edilməsinə çətinlik yaratdığı müəssisə rəhbərliyi tərəfindən bildirilmişdir.

***Sumqayıt şəhər internat tipli gimnaziyaya*** keçirilən başçəkmə zamanı yataqxananın əsaslı təmirinə ehtiyac olduğu, işıqlandırmanın normalara cavab vermədiyi, pəncərə tutacaqlarının olmadığı, pəncərələrdə torların nəzərdə tutulmadığı, pərdələrin (jalüz) istifadəyə yararsız vəziyyətdə olduğu, hamam otağı nəzərdə tutulsa da, bu otağın və sanitar qovşaqların bir qisminin hələ də istifadəyə yararsız vəziyyətdə olduğu müşahidə edilmişdir.

Başçəkmə zamanı məktəbin tibb işçilərinin sertifikasiyadan keçmədiyi, müəssisənin 1992-ci ildə təsdiq olunan Nizamnaməsinin isə yenilənmədiyi müəyyən edilmişdir.

Yeməkxanaya baxış keçirilən zaman orada yer azlığı səbəbilə böyük sıxlığın olduğu müşahidə edilib. Menyuda edilən dəyişikliklərin (nahar üçün nəzərdə tutulmuş salatın ümumiyyətlə olmadığı; nahar üçün ayran, axşam yeməyi üçün kompot və qatıq nəzərdə tutulsa da, eyni zamanda uşaqlarla söhbət zamanı onlar ayran içməyi sevdiklərini bildirsələr də, ayran və kompotun yeri dəyişdirilib) səbəbi göstərilməklə aktlaşdırılmadığı müşahidə olunub.

***Sumqayıt şəhər sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəbə*** başçəkmə zamanı, müəssisədə fiziki məhdudiyyəti olan şəxslərin maneəsiz hərəkət etməsi üçün müvafiq şəraitin yaradılmadığı (pandus quraşdırılmamış, infrastrukturun müyəssərliyi təmin edilməmişdir), yeməkxanada isə ventilyasiya sisteminin olmadığı təkrarən müəyyən olunmuşdur. Halbuki, Azərbaycan Respublikasının qoşulduğu BMT-nin Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası və onun Fakültativ Protokolunda, habelə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununda əlilliyi olan şəxslərin təhsil alması və peşə hazırlığı keçməsi üçün lazımi şəraitin yaradılmasının vacibliyi təsbit olunmuşdur.

***Sağlamlıq imkanları məhdud uşaqlar üçün 12 nömrəli xüsusi internat məktəbində*** xüsusi təhsilə aid müvafiq dərs vəsaitlərinin olmadığı, psixoloji və loqopedik xidmətin göstərilməsi üçün vəsaitlərin çatışmadığı müəyyən edilmişdir. Yeməkxanaya baxış zamanı menyunun dəyişdirildiyi, lakin müvafiq qaydada aktlaşdırılmadığı, tibb otağında istifadəyə yararlılıq müddəti bitmiş dərman preparatının mövcudluğu aşkar olunmuşdur. Müəssisədə fiziki məhdudiyyəti olan şəxslərin maneəsiz hərəkət etməsi üçün müvafiq şəraitin yaradılmasına ehtiyac var. Belə ki, tədris korpusunun girişlərinə pandusların quraşdırılmadığı müşahidə olunmuşdur.

***Lənkəran şəhər sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbinə*** başçəkmə zamanı tibbi xidmətin göstərilməsi ilə əlaqədar heç bir qeydiyyat jurnalının olmadığı, tibb bacısı tərəfindən sanitar-gigiyena qaydalarına nəzarət edilmədiyi, uşaqların dırnaqlarının tutulmadığı müşahidə edilmişdir.

Müəssisənin yeməkxanasına baxış zamanı gündəlik menyuya riayət edilmədiyi, baş aşpazın istəyi ilə menyunun dəyişdirildiyi müəyyən edilmişdir.

### 2.2.5. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Müəssisələri

2023-cü il ərzində Ombudsman və onun Milli Preventiv Qrupunun üzvləri tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələrinə 9 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu, beynəlxalq standartlar, CPT və SPT tövsiyələri, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası", "Psixi xəstə şəxslərin müdafiəsi və psixiatrik yardımın yaxşılaşdırılması Prinsipləri", BMT-nin ahıl şəxslərə dair Prinsipləri, BMT Baş Assambleyasının Əhalinin

qocalması problemləri üzrə Beynəlxalq Fəaliyyət Planı üzrə tövsiyələri əsasında həyata keçirilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın tapşırığı ilə MPQ üzvləri tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin ***Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Reabilitasiya Mərkəzinə*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmənin əvvəlində müəssisənin rəhbəri ilə söhbət aparılmışdır. Müəssisə rəhbərinin verdiyi məlumata əsasən başçəkmə günü müəssisənin ümumi sakin sayı 64 nəfər olmuşdur ki, bunlardan altı nəfər uşaq, üç nəfər görmə məhdudiyyətli şəxsdir.

Başçəkmə zamanı ümumilikdə 20 sığınacaq sakini ilə konfidensial görüşülmüş, müraciətləri dinlənilmiş, bir şəxs tərəfindən Ombudsmana ünvanlanmış ərizə qəbul edilmişdir.

Otaqlara baxış zamanı otaq şəraitinin təmiz və səliqəli olduğu müşahidə edilmişdir.

Yeməkxanaya baxış zamanı yeməklərin menyu ilə uyğun olmadığı müəyyən edilmiş və bu barədə müəssisə rəhbərinə məlumat verilmişdir.

MPQ üzvləri tərəfindən həkim otağına baxış zamanı “Smekta” dərman preparatının, iki ədəd “Streptoçid” adlı mazın yararlıq müddətinin bitdiyi, dərman qoyulması üçün nəzərdə tutulan rəflərdə şəxsi əşyaların qoyulduğu, eyni zamanda mətbəxdə soyuducuda mənşəyi məlum olmayan dərman olduğu müəyyən edilmişdir.

Rəislə söhbət zamanı polis bölmələrinin inzibati binalarında əvvəllər qeydiyyatda olmuş şəxslərin qeydiyyatdan çıxarılması və onların qeydiyyata alınmaması sakinlər üçün ciddi problemlərin yaratdığını bildirilib, belə ki, həmin şəxslərin şəxsiyyət vəsiqələrinin deaktiv olması səbəbindən onlara müəyyən sosial, tibbi, psixoloji yardımım göstərilməsində çətinliklərin mövcudluğu müəyyən olunmuşdur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən ***2 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsinə*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd bu müəssisədə yaşayan, abilitasiya və reabilitasiyaya cəlb olunmuş uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaqların hüquqlarının təmin edilməsi vəziyyətinin araşdırılması olmuşdur.

MPQ üzvlərinin, həkim və sosial iş sahəsində ekspertin də iştirak etdiyi başçəkmə zamanı saxlanma şəraitinin araşdırılması məqsədilə müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, reabilitasiya otaqlarına, yeməkxana və mətbəxinə, asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş otaqlara, ümumi əraziyə baxış keçirilmişdir. Eyni zamanda, müəssisədə yaşayan uşaqlara yanaşmalar, habelə müəssisə rəhbərliyi, əməkdaşlar və tibb işçiləri ilə fərdi və hüquqi maarifləndirici söhbətlər əsasında mövcud vəziyyət öyrənilmişdir.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən sosial xidmət müəssisəsinin rəhbərliyi və əməkdaşları ilə milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyası əsasında hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması, bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

Ombudsman fəaliyyəti çərçivəsində 2023-cü ildə də ahılların hüquqlarının təmini məsələsini diqqətdə saxlamışdır. Bu məqsədlə Ombudsmanın tapşırığı əsasında mütəmadi olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sosial xidmət müəssisələrində monitorinqlər davam etdirilmişdir.

Sosial Xidmətlər Agentliyinin ***Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində*** həyata keçirilən növbəti monitorinq zamanı bütün inzibati, xidməti, həmçinin yataq və tibb otaqlarına baxış keçirilmişdir. Müəssisəyə sonuncu başçəkmə zamanı aşkar olunan çatışmazlıqlarla bağlı verilmiş tövsiyələrin bir hissəsinin yerinə yetirildiyi müşahidə olunmuşdur.

Bununla yanaşı, ahılların sosial-psixoloji reabilitasiyası və inteqrasiyasına yönəlmiş tədbirlərin artırılmasına, habelə vakant psixoloq ştatına təyinat aparılmasına ehtiyac olduğu müəyyən edilmişdir.

Yeməkxanada aktual həftəlik yemək menyusunun olmadığı, xidmət göstərən personalın sayının azlığı müşahidə olunmuşdur.

Monitorinqin sonunda müəssisənin rəhbərliyinə mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən Sosial Xidmətlər Agentliyinin ***Göygöl rayonu 3 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinə (publik hüquqi şəxsinə)*** planlı başçəkmə həyata keçirilmişdir.

Müəssisədə saxlanılan şəxslərlə görüşlər zamanı saxlanılma şəraiti və rəftarla bağlı şikayət daxil olmamışdır.

Başçəkmə zamanı bəzi nöqsan və çatışmazlıqlar aşkar edilmişdir. Belə ki, müəssisədə psixoloq ştatının vakant olması müəssisə sakinlərinin “Psixoloji yardım haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq hüququnun təminatında çətinliklər yaradır.

Bundan başqa, müəssisənin profilinə uyğun olaraq sakinlərə keyfiyyətli sosial xidmətlərin göstərilməsi üçün ixtisaslı sosial işçilər yoxdur və ştat cədvəlindıə olan 2 sosial işçi ştatı vakantdır, həmçinin müəssisədə cəmi bir nəfər ixtisaslı nevropatoloq həkim çalışır ki, bu da müəssisədə sakinlərə ixtisaslı sosial xidmətlərin, fərdi reabilitasiya kurslarının keyfiyyətlə həyata keçirilməsinə imkan vermir.

Müəssisədə dini ayinlərin icrası üçün ayrıca yer ayrılmadığı da müşahidə edilmişdir.

Sənədləşmənin araşdırılması zamanı müəssisənin müvafiq jurnallarında zəruri qeydlərin aparıldığı müəyyən edilmişdir. Bununla yanaşı, müəssisəyə qəbul edilərkən xəstələrin üzərində xəsarətlərin olub-olmaması barədə aktlar tərtib edilsə də, müəssisədən çıxarkən tibbi müayinə barədə aktların tərtib olunmadığı müşahidə edilmişdir.

Ümumiyyətlə, müəssisə əməkdaşlarının qanunvericilik aktları, xüsusilə də “Psixoloji yardım haqqında”, “Sosial xidmət haqqında” qanunların tələbləri barədə məlumatlılığının artırılmasına ehtiyac vardır.

MPQ üzvləri tərəfindən Sosial Xidmətlər Agentliyinin ***Gəncə şəhər 4 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinə (publik hüquqi şəxs)*** planlı başçəkmə həyata keçirilmişdir.

Burada da, psixoloq ştatı və sosial işçi ştatlarından biri vakantdır ki, bu da sakinlərin psixoloji yardımın, sosial xidmətlərin və fərdi reabbilitasiya kurslarının keyfiyyətlə həyata keçirilməsinə imkan vermir.

Sosial xidmət haqqında Azərbaycan Respublikası Qanununun 8.0.9-cu maddəsinə əsasən sosial xidmət müəssisələrində saxlanılan şəxslərin daxili intizam qaydalarını pozmamaq şərti ilə dini ayinlərin icrası üçün ayrıca yerlə təmin olunmaq hüququ olsa da, müəssisədə bu məqsədlə yer ayrılmadığı müşahidə edilmişdir.

### 2.2.6. Uşaq evləri

2023-cü ildə Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə, o cümlədən uşaq evlərinə də başçəkmələr həyata keçirilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***3 saylı Uşaq Evinə*** başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı müəssisədə yaşayan uşaqların hüquqlarının təmini vəziyyəti, saxlanma şəraiti və rəftar məsələləri, tibbi yardımın və psixoloji işin təşkili, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması, o cümlədən əvvəlki başçəkmələr zamanı müəyyən edilmiş nöqsanların aradan qaldırılması ilə bağlı təkliflərin icrası vəziyyəti yerində araşdırılmışdır.

Uşaqların yaşlarına uyğun qruplara yerləşdirilmədiyi, yaşca böyük uşaqların azyaşlılara qarşı aqressiv olduğu və şiddət göstərdiyi müəyyən olunmuşdur. Söhbət zamanı davranış pozuntusu diaqnozu qoyulan uşaqlarla bağlı müvafiq tədbirlərin (psixoterapiya və s.) görülmədiyi aşkar edilmişdir.

Yuxarıda sadalananlar uşaq evində psixoloji işin aparılmasına ciddi ehtiyacın olduğunu göstərir. Bununla bağlı, müəssisə rəhbəri uşaq evinin psixoloqunun analıq məzuniyyətində olduğunu, ötən il həyata keçirilmiş başçəkmədən hazırkı vaxtadək əməkdaşın əvəz olunmadığını bildirmişdir. Qeyd olunmalıdır ki, əvvəlki başçəkmələr zamanı verilən tövsiyələr nəzərə alınaraq uşaqların fərdi inkişaf (qayğı) planları tərtib olunmuş, lakin müəssisə əməkdaşlarının superviziya imkanlarının, habelə müvafiq nümunələrin olmaması səbəbilə həmin sənədlərin standartlara cavab vermədiyi müəyyən edilmişdir.

Müəssisədəki qeyri-sağlam psixoloji mühit, zorakılıq və ayrı-seçkilik hallarının aradan qaldırılması, habelə uşaq evinin analıq məzuniyyətində olan psixoloq əməkdaşını əvəz edəcək və uşaqlarla mütəmadi psixoloji iş aparacaq mütəxəssisinin işə cəlb olunması, uşaqların yaş qruplarına uyğun qruplara yerləşdirilməsi, azyaşlıların asudə vaxtının səmərəli təşkili, o cümlədən əməkdaşların bilik və bacarıqlarının artırılması istiqamətində müvafiq tədbirlərin görülməsini məqsədəmüvafiqdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən ***Gəncə Uşaq Evinə*** burada yaşayan uşaqların hüquqlarının təmini vəziyyəti, saxlanma şəraiti və rəftar məsələləri, tibbi yardımın və psixoloji işin təşkili, qidalanma səviyyəsi, müvafiq sənədləşmənin aparılması, o cümlədən əvvəlki başçəkmələr zamanı müəyyən edilmiş nöqsanların aradan qaldırılması ilə bağlı verilmiş təkliflərin icrası vəziyyətinin yerində araşdırılması məqsədilə başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində sənədləşmənin araşdırılması zamanı müəssisənin nizamnaməsinin qüvvədə olan qanunvericiliyə uyğun olmadığı müəyyən edilmişdir. Bu baxımdan, nizamnamənin müasir standartlara uyğun olaraq yenilənməsi məqsədəuyğundur.

Müəssisədə nitq problemləri olan uşaqların yaşadığını, onlardan 5 azyaşlının əqli pozuntusunun olduğunu, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 iyul 2006-cı il tarixli 172 nömrəli "Uşaq evlərinin rəhbər işçilərinin, pedaqoji, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları haqqında" Qərarında müəllim-loqoped ştatının təsbit olunduğunu nəzərə alaraq, Uşaq Evində müəllim-loqopedin fəaliyyət göstərməsi üçün müvafiq tədbirlərin görülməsi vacibdir.

***Lənkəran şəhər O.Mirzəyev adına Qarışıq Tipli Uşaq Evinə*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində müəssisənin tədris korpusuna, yataqxana korpusuna, ərzaq anbarına, mətbəxə, idman zalına, hamam və digər yardımçı otaqlara baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma və təminatla bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Tibb otağına baxış zamanı uşaqlara tibbi yardımın göstərilməsi və digər zəruri tədbirlərlə əlaqədar qeydiyyat kitablarının olmadığı müəyyən edilmişdir.

Mətbəxə baxış zamanı həmin günə aid menyunun, habelə gündəlik bişirilən yeməklərin keyfiyyətinə və buraxılması jurnalının olmadığı aşkar edilmişdir. Sanitar-gigiyenik qaydalara əməl edilməsi baxımından mətbəxdə çalışan işçilərin steril geyim və əlcəklərdən istifadə etmədiyi də müşahidə edilmişdir.

Müəssisənin idman zalının döşəmə hissəsinin müxtəlif yerlərdən çökdüyü, süni işıqlandırmanın işləmədiyi və heç bir idman avadanlığının olmadığı müəyyən edilmişdir.

Yataq otaqların döşəməsinin və divarlarların aşındığı, çarpayıların və qapıların sınıq olduğu, əl-üz dəsmalları və şəxsi-gigiyena vasitələrinin olmadığı da müşahidə edilmişdir.

Müəssisənin kompüter otağına baxış keçirilən zaman mövcud 7 kompüterin heç birinin işləmədiyi və uşaqların kompüterlərə ciddi ehtiyaclarının olduğu müşahidə edilmişdir.

Müəssisənin birinci və ikinci mərtəbsində yerləşən istirahət otaqlarının vəziyyəti və televizorların işləməməsi uşaqların asudə vaxtlarının səmərəli təşkilinə maneə yaradır.

### 2.2.7. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri

2023-cü ildə Ombudsman və onun Milli Preventiv Qrupunun üzvləri tərəfindən Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin Müvəqqəti saxlama yeri və istintaq təcridxanasına əvvəlcədən xəbərdarlıq etmədən başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd bu müəssisədə saxlanma şəraiti və rəftar məsələlərinin, saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olmuşdur.

Başçəkmələr zamanı saxlanma şəraiti, qidalanma, tibbi yardım, gəzinti və digər hüquqların təmin olunması vəziyyəti, rəftar məsələləri araşdırılmış, bu məqsədlə təqsirləndirilən şəxslər fərdi qaydada qəbul edilmişdir.

Ombudsman başçəkmə zamanı erməni əsilli təqsirləndirilən şəxsi fərdi qaydada qəbul etmiş, onun saxlanma şəraiti və rəftar məsələləri, qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarının təmin olunma vəziyyətini araşdırmışdır. Həmin şəxsin müraciətləri Ombudsman tərəfindən yerində cavablandırılmışdır. O, şəxsi istifadə üçün eynəklə, kitabxanadan istifadə və informasiyaya çatım imkanları ilə təmin olunmuşdur.

Təqsirləndirilən şəxs saxlanma şəraitindən şikayət etməmiş, müəssisəyə daxil olduğu zaman tibbi müayinədən keçdiyini qeyd etmişdir. Hüquqlarının müdafiəsi məqsədilə vəkillə təmin olunduğu müəyyən edilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun ixtisasca həkim və psixoloq ekspertlərinin də iştirak etdiyi başçəkmə çərçivəsində qəbuldan sonra ona öz dilində qanunvericilik aktları, Ombudsmana müraciət imkanını izah edən nəşrlər də təqdim edilmişdir.

Müəssisəyə növbəti başçəkmə zamanı MPQ üzvləri tərəfindən qəbul edilmiş şəxslərdən biri əsassız tutulduğunu, müstəntiq tərəfindən onun ailə üzvləri ilə görüş və telefon danışığı hüququna, o cümlədən ailəsinə məxsus pul vəsaitindən istifadə edilməsinə qanunsuz və əsasız olaraq məhdudiyyət qoyulduğunu, habelə səhhətində yaranmış problemlərlə əlaqədar hərtərəfli müayinə və müalicə olunmasına şərait yaradılmadığını və saxlanılan zaman götürülmüş peşə fəaliyyəti ilə bağlı avadanlıqların hazırki vaxta qədər geri qaytarılmadığını bildirmiş, məsələnin obyektiv araşdırılmasında köməklik göstərilməsini xahiş etmişdir. Həmin şəxsin həyat yoldaşının eyniməzmunlu ərizəsi əsasında Azərbaycan Respublikasının Baş Prokurorluğuna müraciət edilmişdir.

Qəbul edilmiş digər şəxslər də əsassız tutulduqlarını, barələrində başlanmış cinayət işləri üzrə istintaqın obyektiv aparılmasında köməklik göstərilməsini xahiş etmişlər. Onlara Ombudsmanın səlahiyyətləri izah edilməklə hüquqi məsləhət verilmişdir.

Qəbul edilmiş şəxslər müəssisədəki saxlama şəraiti və rəftardan şikayət etməmişlər.

### 2.2.8. Dövlət Miqrasiya Xidmətinin tabeliyindəki müəssisə

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Dövlət Miqrasiya Xidmətinin Qanunsuz miqrantların saxlanılması mərkəzlərinə də preventiv başçəkmələr həyata keçirilir.

2023-cü ildə Milli Preventiv Qrupun üzvləri tərəfindən Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin ***Bakı şəhər Qanunsuz miqrantların saxlanılması mərkəzinə*** başçəkmə həyata keçirilmişdir.

BMT-nın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakültətiv Protokolu, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Haqqında Konstitusiya Qanununun, Azərbaycan Respublikasının miqrasiya qanunvericliyi, CPT və SPT-nin tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanılma şəraitinin və rəftarın, mərkəzdə qalan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinin inzibati binasına, könüllü saxlanılanların müvəqqəti saxlanılma binasına, mətbəxə, yeməkxanaya, ərzaq anbarına, görüş, tibb və digər xidməti otaqlara, kitabxanaya, idman meydançasına baxış keçirilmişdir.

Başçəkmənin nəticələrinə görə Mərkəzdə ümumi şərait qənaətbəxş olsa da, müəyyən nöqsanlar da aşkar edilmişdir. Belə ki, Mərkəzin tibb otağında saxlanılan dərman preparatlarının saxlanılması qaydalarına tam riayət edilmədiyi, adətən tətbiq olunan "satıla bilməz" etiketinin dərman vasitələrəinin üzərində qeyd edilmədiyi, son istifadə müddəti bitmiş "Papaverin", "Askorbin turşusu" kimi preparatların mövcudluğu aşkar edilmişdir. Eyni

zamanda, miqrantlara tibbi xidmətin stomatoloq tərəfindən deyil, müvafiq ixtisaslı həkim tərəfindən göstərilməsinin zəruriliyi müəyyən edilmişdir.

Mərkəzin yeməkxanasında müəyyən natəmizliyin olduğu, əlcək və baxildən istifadə edilmədiyi müəyyən edilmişdir. Eyni zamanda yeməkxana ərazisində həşəratların olduğu müşahidə olunmuşdur.

Başçəkmə zamanı konfidensial qaydada 20-dək saxlanan şəxs qəbul edilmiş,bəzi şəxslərdən Ombudsmana ünvanlanmış ərizələr götürülmüşdür. Konfidensial söhbətlər zamanı saxlanan şəxslərin bir çoxu müəssisəyə daxil olarkən tibbi müayinədən keçirilmədiklərini və ya tibbi müayinənin formal xarakter daşıdığını bildirmişlər.

Ombudsman Aparatının əməkdaşları tərəfindən Çağrı Mərkəzi və Milli Preventiv Qrupun mandatı ilə bağlı materiallar Mərkəzə təqdim edilmişdir.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi ilə aşkar edilmiş nöqsanlar müzakirə edilmişdir.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 87.1.6.-cı maddəsinə görə, Mərkəzdə saxlanılan şəxslərin öz dövlətinin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliyi və ya konsulluğu ilə, yaxud ona himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla təxirə salınmadan əlaqəyə girmək hüququ vardır. Bu baxımdan Mərkəzin ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəliklərinin və beynəlxalq təşkilatların telefon nömrələrini əks etdirən məlumat kitabçası ilə təmin edilməsi təklif edilir.

## BÖLMƏ 3

## HÜQUQİ TƏHLİL

Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində həyata keçirilən fəaliyyət istiqamətlərindən biri də preventiv başçəkmələr və hüquqi maarifləndirmə tədbirləri zamanı əldə olunmuş məlumatların hüquqi təhlilidir.

Ombudsman və MPQ üzvləri tərəfindən həyata keçirilən başçəkmələr çərçivəsində şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə qəbullar zamanı Müvəkkilə ünvanlanmış yazılı müraciətlərlə yanaşı, 24 saat fəaliyyət göstərən 916 Çağrı Mərkəzinə daxil olan zənglərin mahiyyəti də təhlillər üçün əhəmiyyətli olmuşdur.

Şəxslərin maraqlarına bu və ya digər şəkildə toxunan normaların hüquqi təhlili nəticəsində hazırlanmış təklif və tövsiyələr Müvəkkil tərəfindən aidiyyəti dövlət orqanlarına göndərilir və əsas etibarilə öz müsbət həllini tapır.

2023-cü ildə Ombudsmanın MPM mandatı çərçivəsində polis orqanları, müvəqqəti saxlama yerləri, istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri, qanunsuz miqrantların saxlanılması mərkəzləri, psixiatriya müəssisələri, dövlət uşaq müəssisələri və s. daxil olmaqla ümumilikdə ölkə üzrə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə 347 başçəkmə həyata keçirilmişdir. Bunlardan 104-ü plandankənar olmuşdur.

Tutulmuş və həbs edilmiş şəxslər, eləcə də şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslər saxlanıldıqları müəssisələrdə fərdi qaydada qəbul edilmiş, saxlanma şəraiti, rəftar, tibbi xidmətin təmini məsələləri araşdırılmış, hüquqları izah edilmiş, zəruri hallarda aidiyyəti dövlət qurumlarına müraciətlər ünvanlanmışdır.

Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müxtəlif vaxtlarda törətdikləri cinayət əməllərinə görə 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, hərbi əməliyyatların dayandırılmasından, habelə 2023-cü ilin sentyabr ayında keçirilmiş lokal antiterror tədbirlərindən sonra müəyyən edilərək saxlanılan, məhkəmə qərarı əsasında barələrində həbs qətimkan tədbiri seçilmiş erməni əsilli təqsirləndirilən şəxslər də saxlanıldıqları müəssisələrdə qəbul edilmişdir. Onların saxlanma şəraiti, rəftar, tibbi xidmətin təmini məsələləri, müraciətləri araşdırılmış, Ombudsmanın səlahiyyətləri barədə məlumat verilmiş, öz dillərində hüquqlarının əks olunduğu materiallar təqdim edilmiş, eyni zamanda ailə üzvləri ilə telefon danışığı hüquqları təmin edilmişdir.

Qeyd etmək lazımdır ki, penitensiar müəssisələrdə müəyyən edilən əsas problemlərdən biri də sıxlıqla bağlı olmuşdur. İstintaq təcridxanalarında və bəzi cəzaçəkmə müəssisələrində mövcud normadan artıq şəxsin saxlanıldığı müşahidə edilmişdir. Belə ki, 2.500 nəfər üçün nəzərdə tutulmuş Bakı İstintaq Təcridxanasında başçəkmələr zamanı limitdən daha çox şəxsin saxlanıldığı müəyyən olunmuşdur. Bununla yanaşı, 700 nəfərlik 2 saylı İstintaq Təcridxanasında 800, 1.050 nəfərlik 3 saylı İstintaq Təcridxanasında 1.400 nəfərin saxlandığı, 1.200 nəfər saxlanma limiti olan 2 saylı cəzaçəkmə müəssisəsində isə eyni anda 1.411 məhkumun cəza çəkdiyi müəyyən edilmişdir.

Penitensiar müəssisələrdə sıxlığın azaldılması istiqamətində kompeks tədbirlərə ehtiyac vardır. Belə ki, əksər hallarda həbs qətimkan tədbirinin seçilməsinə dair, habelə həbs müddətinin uzadılması ilə bağlı istintaq orqanları tərəfindən verilən təqdimatların

çoxluğu və bir qayda olaraq, həmin təqdimatların məhkəmələr tərəfindən təmin edilməsi istintaq təcridxanalarında sıxlığın yaranmasına səbəb olur.

Təhlillər göstərir ki, il ərzində barəsində həbs qətimkan tədbiri seçilmiş 100-dən çox şəxs sonradan məhkəmənin qərarı ilə bəraət alır (statistik məlumatlara əsasən 2020, 2021 və 2022-ci illərdə müvafiq olaraq, 122, 187 və 187). Bəzi illərdə 200-dək təqsirləndirilən şəxsin bəraət almasına baxmayaraq, cinayət prosesi gedişində həmin şəxslər barəsində həbs qətimkan tədbiri nəinki tətbiq edilmiş, bir sıra hallarda həm də uzadılmışdır.

Qeyd edilənlər, eyni zamanda Ombudsmana ünvanlanan ərizələrin təhlili, istintaq təcridxanalarında həyata keçirilən başçəkmələrin nəticələri nəzərə alınaraq, həbsə alternativ qətimkan tədbirlərinin seçilməsinin əhəmiyyəti bir daha diqqətə çatdırılır. Bu baxımdan, həbslə bağlı olmayan qətimkan tədbirlərinin daha çox tətbiqi, habelə cəza müəyyən edilərkən azadlıqdan məhrumetməyə alternativ cəzalara üstünlük verilməsi istiqamətində tədbirlərin genişləndirilməsi zəruridir.

Statistik məlumata əsasən, “cinayət törətmiş, habelə əvvəllər cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər”in sayı getdikcə artmaqdadır. Belə ki, bu rəqəm 2020-ci ildə 2.859, 2021-ci ildə 4.374 olmuş, 2022-ci ildə isə 5.127 nəfərədək artmışdır. Odur ki, aidiyyəti dövlət qurumları tərəfindən təhlillər aparılmalı, eyni şəxsin təkrar cinayət törətməsinə gətirib çıxaran səbəb və şərtlərin aradan qaldırılması istiqamətində addımlar atılmalıdır.

Məhkəmələr tərəfindən təyin olunan cəzanın qarşısına qoyulan vəzifələrin təmini məqsədilə cəza icra orqanları tərəfindən həyata keçirilən tədbirlər təhlil edilməli, onların effektivliyi məsələsi qiymətləndirilməlidir.

Məhkumların cəmiyyətə inteqrasiyasında və şəxsi inkişafının stimullaşdırılmasında təhsilin mühüm rolu vardır.

Təhsildən yararlana bilən, xüsusilə yetkinlik yaşına çatmayan və gənc məhkumların bu hüququnun təmin edilməsi və belə şəxslər üçün fərqli yanaşmaların tətbiqi vacibdir. Bu kateqoriyadan olanların şəxsiyyət olaraq formalaşma prosesinin davam etdiyi, xarici təsirlərə asanlıqla düşdüyü, onların fərqli və mürəkkəb ehtiyaclarının olduğu mütəxəssislər tərəfindən əsaslı arqumentlərlə sübut edilmişdir.

BMT Baş Assambleyasının 45/111 saylı qətnaməsi ilə qəbul edilən “Məhkumlarla rəftara dair əsas prinsiplər”in müddəalarına əsasən, bütün məhkumlar insan şəxsiyyətini tam inkişaf etdirməyə yönələn mədəni fəaliyyətdə və təhsildə iştirak etmək hüququna malikdir. Bu baxımdan, cəza-icra qanunvericiliyində və digər qanunvericilik aktlarında xüsusi ictimai təhlükə törətməyən və az ağır cinayət törətmiş yetkinlik yaşına çatmayan və gənc məhkumların fərqli rejimdə cəza çəkməsinə imkan verən dəyişikliklərin edilməsi, belə məhkumların cəzasını çəkməsi üçün xüsusi pilot müəssisənin yaradılması məqsədəmüvafiqdir.

Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin, 916 Çağrı Mərkəzinə edilmiş zənglərin, MPQ tərəfindən penitensiar müəssisələrdə keçirilən başçəkmələrin, mediada və sosial şəbəkələrdə dərc olunmuş məlumatların təhlili göstərmişdir ki, 2023-cü ildə Penitensiar Xidmətin fəaliyyətində məhkumların islah olunmasında müsbət nəticələrin əldə edilməsinə imkan verən bir sıra yeni yanaşmalar tətbiq olunmuşdur. Məhkumların cəza çəkdikləri müəssisələrin hüdudlarından kənara çıxma təcrübəsinin genişləndirilməsini buna misal göstərmək olar. Əvvəllər bu təcrübə olsa da, bu imtiyazdan əsasən yetkinlik yaşına çatmayan məhkumlar istifadə etmişlər. 2023-cü ildən artıq ilk dəfə

böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə məhkum olunmuş şəxslərin ailə üzvlərinin yaşadığı ünvana 7 günədək qısamüddətli səfərlərə buraxılmasına başlanılmışdır.

Penitensiar Xidmətin Çağrı Mərkəzinin fəaliyyətə başlaması, sosial şəbəkə hesablarının fəaliyyəti, saxlanma şəraiti, xüsusilə qidalanma və ərzaq məsələləri ilə bağlı yeniliklər Ombudsman tərəfindən müsbət qiymətləndirilir. Çağrı Mərkəzi vətəndaş müraciətlərinə daha çevik qaydada baxılmasının təmin edilməsinə mühüm töhfə verməklə yanaşı, müraciət edən şəxslərin penitensiar müəssisələrdə saxlanılan və ya cəza çəkən şəxslərin yaxınları barədə operativ məlumat alınmasına kömək edəcəkdir.

Saxlanılan şəxslərin saxlanıldıqları müəssisə dəyişdirilərkən ailə üzvlərinin məlumatlandırılması əhəmiyyət kəsb edir. Odur ki, qanunvericilikdə təsbit edilmiş telefon danışığı hüququ ilə yanaşı, müəssisənin dəyişdirilməsi, Müalicə Müəssisəsinə köçürülmə ilə bağlı məlumatı vermək hüququnun, saxlanılan şəxslərin şəhərlərarası zənglərinin dövlət hesabına ödənilməsinin qanunvericilikdə öz əksini tapması məqsədəmüvafiqdir.

Telefon danışıqları ilə yanaşı, videogörüşlərin də nəzərdə tutulması məqsədilə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli, 63 nömrəli qərarı ilə təsdiq edilmiş "İstintaq təcridxanalarının Daxili intizam Qaydaları"nda zəruri dəyişikliklərin edilməsi təklif edilir.

Saxlanılan şəxslərin hüquqi yardım almaq və vəkillə görüşmək hüququ həmin şəxslərin pis rəftardan müdafiəsinin əsas təminatlarındandır. Təcrübə göstərir ki, azadlığın məhdudlaşdırıldığı andan pis rəftar ehtimalı daha yüksək olur. Müvafiq olaraq, polis tərəfindən saxlanılan şəxslərin bu müddət ərzində vəkilə çatımlılığının təmin edilməsi pis rəftara qarşı əsas təsir mexanizmlərindən biridir.

Əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də Ombudsmanın 916 Çağrı Mərkəzi vəkillərin hüquqlarını müdafiə etdikləri şəxslərlə görüşmək hüququnun həyata keçirilməsində yarana biləcək çətinliklərin qarşısının alınmasında effektiv mexanizm kimi fəaliyyət göstərmişdir. Ombudsmanın müdaxiləsindən sonra bu görüşlər təmin edilsə də, problem aktual olaraq qalmaqdadır.

Tutulmuş, həbs edilmiş şəxslərin polis orqanlarında vəkilləri ilə müvafiq order təqdim edilməsinə baxmayaraq, görüşlərinə maneə yaradılması ilə bağlı müraciətlər əsasən, paytaxtda yerləşən, xüsusilə Xətai, Nəsimi, Nizami, Binəqədi Rayon Polis idarələrindən, habelə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsindən, eyni zamanda Abşeron RPİ-dən olmuşdur.

Bəzi hallarda polis orqanlarındakı sənədləşmədə olan nöqsan və çatışmazlıqlar qeydiyyat işinin düzgün təşkil edilməməsini, şəxslərin saxlanılması ilə bağlı prosessual müddətlərə riayət edilib-edilməməsini müəyyənləşdirməkdə çətinliklərə səbəb olur və bir çox hallarda belə pozuntuların aşkarlanmamasına xidmət edir.

Qanunvericiliyin tələbləri nəzərə alınaraq, hər bir saxlanılan şəxslə bağlı əhatəli və dolğun qeydiyyat aparılmalı, saxlanılan şəxsin adı, saxlanma səbəbi, saxlanmanın vaxtı, dindirmə, başqa yerə köçürülmə, onlar barədə bütün prosessual hərəkətlər və digər məlumatlar müfəssəl şəkildə təsvir olunmalıdır.

Saxlanılan şəxslərin tibbi müayinəsi pis rəftara qarşı əsas təminatlardandır. Bununla yanaşı, qanunvericilik öz növbəsində, həbs edilmiş şəxslərin həbs yerlərinə qəbul edildiyi andan 24 saat ərzində həbs yerinin tibb işçiləri tərəfindən tibbi müayinədən keçirilməsini

nəzərdə tutur. Tutulmuş və ya həbs edilmiş şəxsin, yaxud onun müdafiəçisinin vəsatəti ilə, cinayət prosesini həyata keçirən orqanın qərarı əsasında tibbi müayinə həmin şəxsin özünün seçdiyi digər tibb müəssisələrinin mütəxəssisləri tərəfindən də həyata keçirilə bilər. Qanunla bu halda tibbi müayinənin xərcləri tutulmuş və ya həbs edilmiş şəxsin öz vəsaiti hesabına ödənilir.

Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə həyata keçirilən başçəkmələrdə diqqət edilən məsələlərdən biri də şəxslərin tibbi yardımla təminatı ilə bağlıdır.

Başçəkmə keçirilmiş bəzi polis orqanlarının, məsələn, Qaradağ və Yasamal Rayon Polis idarələrinin, Göyçay Rayon Polis Şöbəsinin müvəqqəti saxlama yerlərinin tibb otaqlarında istifadə müddəti bitmiş dərman vasitələrinə rast gəlinmiş, eyni zamanda tibbi qeydlərin bəzi hallarda həkim tərəfindən deyil, polis əməkdaşları tərəfindən aparıldığı müəyyən edilmişdir.

Qanunvericilikdə saxlanılan şəxsin hüquqları barədə məlumatlandırılması hüququ və bu cür məlumatı vermə vəzifəsi təsbit edilmişdir. Buna görə də polis tərəfindən saxlanılmış şəxslərə onların hüquqları barədə gecikdirilmədən və anlaya bildikləri dildə məlumat verilməlidir. Bunun təmin olunması üçün polis tərəfindən saxlanılmış şəxslərə həbsə alınmalarının başlanğıcında hər bir halda hüquqlarının dəqiq əks olunduğu yazılı formalar verilməli, eyni zamanda həmin şəxslərə hüquqları barədə məlumatlandırıldıqlarını təsdiq edən ərizəni imzalamaları təklif edilməlidir.

Polis qanunvericiliyə uyğun olaraq, mümkün olan dərəcədə azadlıqdan məhrum edilmiş şəxslərə azadlıqdan məhrum edilmələrinin səbəbləri və onlara qarşı irəli sürülən hər hansı ittiham barədə məlumat verməli, azadlıqdan məhrum edilmiş şəxsləri konkret halda onlara tətbiq edilən prosedur barədə yubanmadan məlumatlandırmalıdır. Bu baxımdan, Ombudsmanın MPM fəaliyyəti çərçivəsində aparılan monitorinqlər zamanı saxlanılmış şəxslərin hüquqları və barələrində olan işlə bağlı məlumatlandırılmalarının yoxlanılması əsas araşdırma predmeti olmuşdur.

Bütün müəssisələr üzrə saxlanılan şəxslərin rahatlıqla oxuya biləcəyi yerdən onların hüquq və vəzifələrinin əks olunduğu yazılı lövhələrin asılması zəruridir.

MSY-lərdə aşkar edilən nöqsanlardan biri də tutulmuş və ya həbs edilmiş şəxslərin kameralara onların əvvəlki məhkumluğu, səhhəti nəzərə alınmadan yerləşdirilməsi ilə bağlı olmuşdur. Belə ki, Nizami RPİ-yə başçəkmə zamanı daxili intizam qaydalarına zidd olaraq, ilk dəfə tutulan şəxslərin əvvəllər məhkumluğu olan şəxslərlə bir kamerada saxlanıldığı müşahidə edilmişdir. MPQ üzvləri eyni hala Xətai RPİ, Səbail RPİ, Şəmkir RPŞ və Ağstafa RPŞ-nin müvəqqəti saxlama yerlərində də rast gəlmişlər. Göründüyü kimi, MSY-lərdə saxlanma şəraiti ilə bağlı bəzi çatışmazlıqlar hələ də qalmaqdadır.

Kameralarda işıqlandırmaya, istiliyin verilməsinə, saxlanılan şəxslərin sayına görə oturacaqların olmasına, gəzinti yerinin beynəlxalq standartlara uyğun təşkil edilməsinə, açıq havada fiziki hərəkətlərin icrası üçün zəruri şəraitin yaradılmasına diqqət artırılmalıdır.

2023-cü il ərzində Milli Preventiv Qrup üzvləri tərəfindən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki psixiatriya müəssisələrinə və narkoloji müalicə mərkəzlərinə başçəkmələr keçirilmiş, pasiyentlərin hüquqlarının təminatı vəziyyəti, saxlanma şəraiti və rəftar məsələləri araşdırılmışdır.

Paytaxtda və regionlarda yerləşən psixiatriya xəstəxanalarında sıxlıq probleminin olduğu, pasiyentlərin yaşayış sahəsinin mövcud standartlara uyğun olmadığı,

çarpayıların bir-birinə yaxın, bəzən bitişik yerləşdirildiyi müşahidə edilmişdir. Ölkə üzrə əksər psixiatriya müəssisələrinin əsaslı təmir edilməsi, yenidənqurma zamanı müasir standartların nəzərə alınması zəruridir.

Başçəkmə keçirilmiş həmin müəssisələrdə həkim və orta tibb heyəti üzrə vakansiyaların mövcud olmasına baxmayaraq, kadr çatışmazlığı keyfiyyətli və effektiv tibbi yardımın göstərilməsinə imkan vermir. Belə ki, Respublika Narkoloji Mərkəzinə həyata keçirilmiş başçəkmə zamanı müalicəyə cəlb olunmalı kifayət qədər şəxsin gözləmə növbəsində olduğu müəyyən edilmişdir. Bu səbəbdən, respublika üzrə narkoloji müəssisələrin sayının artırılmasına ehtiyac vardır.

Narkoloji müalicə müəssisələrində aşkar edilən problemlər, həmin müəssisələrdəki sıxlıq və müalicə gözləyən şəxslərin sayının çoxluğunu nəzərə alaraq, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir üsulların tətbiq edilməsi, narkoloq və klinik psixoloqların, narkoloji müalicə müəssisələrinin sayının artırılması, reabilitasiya mərkəzlərinin yaradılması bu sahədə qarşıya qoyulmuş məqsədlərə nail olunması üçün vacibdir. Narkotik asılılığından əziyyət çəkən yetkinlik yaşına çatmayan şəxslərin müalicə alması məqsədilə ixtisaslaşmış tibb müəssisələrində ayrıca şöbələrin yaradılması da məqsədəuyğundur.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan və Bakıda yerləşən Körpələr evinə və Uşaq Psixonevroloji Mərkəzinə keçirilən başçəkmələr zamanı uşaqların qidalanmasına aid davamlı xarakter daşıyan çatışmazlıqlar müəyyən edilmişdir. Belə ki, menyuların müasir standartlara cavab vermədiyi, qida məhsullarının azyaşlıların tələbatını ödəmədiyi, meyvə çeşidliliyinin olmadığı, uşaqların təbii süd məhsulları ilə təmin olunmadığı aşkar edilmişdir. Hər bir uşağın sağlam olmaq və sağlam inkişaf etmək hüququnu əsas götürərək “Körpələr evində, bağça-körpələr evində və uşaq evlərində uşaqlar üçün qida normaları”nın dəyişdirilərək müasir standartlara uyğunlaşdırılması da zəruridir.

Körpələr evində uşaqlarla psixoloji işin aparılmaması, psixoloq ştatının mövcud olmaması hələ də aktualdır. Ombudsman Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli, 61 nömrəli “Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında” Qərarında “uşaq psixoloqu” və “erkən inkişaf üzrə mütəxəssis” ştat vahidlərinin müəyyən edilməsi məqsədilə müvafiq dəyişikliklərin edilməsini vacib hesab edir.

Qeyd etmək lazımdır ki, Səhiyyə Nazirliyinin tabeliyində olan və MPM fəaliyyəti çərçivəsində mütəmadi olaraq başçəkmə həyata keçirilən Gəncə Körpələr Evi yerləşdiyi binanın 2021-ci ildən təmirə bağlanması səbəbilə fəaliyyət göstərmir və buranın azyaşlı sakinləri müvəqqəti olaraq Bakı şəhəri 1 Saylı Körpələr Evinə köçürülmüşdür.

İki ildən artıqdır ki, təmir məqsədilə fəaliyyəti dayanan Gəncə Körpələr Evində heç bir təmir bərpa işlərinin aparılmadığı və bu halın Gəncə şəhərindən və ətraf rayonlardan olan valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 3 yaşınadək uşaqlara sosial xidmət göstərilməsində çətinliklər yaratdığı nəzərə alınaraq, müəssisə üçün yeni, müasir binanın tikintisinin tezləşdirilməsi vacibdir.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki müəssisələrdə keçirilmiş başçəkmələr zamanı əvvəlki monitorinqlərdə verilmiş təklif və tövsiyələrin icra edildiyi müşahidə olunsa da, bəzi nöqsanlar hələ də qalmaqdadır. Nazirliyin tabeliyindəki

əsaslı təmirə ehtiyac olan müəssisələrdə, xüsusilə də inteqrasiya təlimli internat tipli gimnaziyalarda saxlanma şəraitinin təkmilləşdirilməsi vacibdir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsil aldığı internat məktəblərində, xüsusi təhsilə cəlb olunmuş orta və yuxarı sinif şagirdləri üçün müvafiq dərslik və dərs vəsaitlərinin təminatında çatışmazlıqların olduğu aşkar edilmişdir. Bundan başqa, belə məktəblərdə azyaşlıların psixi sağlamlığına göstərilən diqqətin artırılması, uşaqlarla psixoloji işin aparılmasında müvafiq standartlaşdırılmış sənədlərin, fərdi iş planlarının formalarının işlənib hazırlanması, bu istiqamətdə məşğələlərin aparılması üçün kabinetlərin əyani vəsaitlərlə təmin olunması zəruridir.

Başçəkmələr zamanı uşaqların asudə vaxtının səmərəli təşkilinə, maraqlarının və qabiliyyətlərinin, o cümlədən peşə maraqlarının öyrənilməsinə ehtiyacın olduğu müəyyən edilmişdir. Əksər məktəblərdə əmək təlimi, peşə hazırlığı işlərinin aparılması üçün maddi-texniki bazanın, emalatxanaların olmadığı müşahidə edilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki ayrı-ayı müəssisələrdə sosial işçi ştatlarının vakant olması, ixtisaslı həkim azlığı bu müəssisələrin sakinlərinə ixtisaslı sosial xidmətlərin, fərdi reabilitasiya kurslarının keyfiyyətlə həyata keçirilməsinə imkan vermir. Bu səbəbdən vakant olan yerlərə peşəkar mütəxəssislərin cəlb edilməsi təklif edilir.

Ombudsman haqqında Konstitusiya Qanununa edilən 2023-cü il 9 iyun tarixli dəyişikliklərlə milli preventiv mexanizmə başçəkmələr zamanı texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyat aparmaq və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələrini (o cümlədən prokurorluğun nümayəndəsini) dəvət etməklə tədbirlər görmək səlahiyyəti verilmişdir. Bu dəyişikliklər işgəncə və pis rəftar hallarının qarşısının alınması istiqamətində preventiv tədbirlərin effektivliyinə töhfə verməklə Ombudsmanın MPM kimi mandatını genişləndirir və öz iradəsi ilə tərk edə bilmədikləri yerlərdə olan şəxslərin hüquqlarının səmərəli müdafiəsinə imkanlar yaradır.

## BÖLMƏ 4

## HÜQUQİ MAARİFLƏNDİRMƏ

Müvəkkilin MPM qismində fəaliyyətinin əsas istiqamətlərindən biri də şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslər və onlarla işləyən xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işinin təşkilidir.

Cəmiyyətdə hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə Ombudsman tərəfindən əhalinin insan hüquqlarına dair məlumatlılıq səviyyəsinin artırılmasına xidmət edən müxtəlif mövzular üzrə hüquqi maarifləndirmə tədbirlərinin təşkili, eyni zamanda təsisatın əməkdaşlarının digər qurumlar tərəfindən keçirilmiş analoji tədbirlərdə məruzəçi və təlimçi qismində iştirakı təmin edilmişdir.

Ombudsman tərəfindən ənənəvi olaraq 2023-cü ildə də 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü ilə əlaqədar 18 may - 18 iyun tarixləri “İnsan hüquqları aylığı”, BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyasının qəbul edilməsinin ildönümü ilə bağlı isə 20 oktyabr - 20 noyabr tarixlərində “Uşaq hüquqları aylığı” elan olunmaqla Bakıda və regionlarda insan hüquqlarına dair müxtəlif aktual mövzulara həsr edilmiş hüquqi maarifləndirmə tədbirləri keçirilmişdir. Aidiyyəti dövlət qurumları, idarə, müəssisə və təşkilatlar, vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları və media nümayəndələri də həmin prosesdə fəal iştirak etmişlər.

İl ərzində Bakıda və ölkənin regionlarında təhsil müəssisələrində müəllim və şagirdlərin iştirakı ilə keçirilən müxtəlif maarifləndirmə tədbirləri şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələri, o cümlədən uşaq evlərini, internat məktəblərini də əhatə etmişdir.

Ombudsman Aparatı ilə Polis Akademiyası arasında insan hüquqları sahəsində maarifləndirmə istiqamətində davam etdirilən səmərəli əməkdaşlıqda bir sıra rayon (şəhər) polis idarə və şöbələrinin rəhbər heyətinə fənn müəlliminin birgə iştirakı ilə oxunmuş növbəti mühazirənin mövzusu korrupsiyaya qarşı mübarizə, polisin fəaliyyətində insan hüquqlarının qorunması, bu sahədə milli və beynəlxalq normativ hüquqi aktların tələblərinə həsr olunmuş mövzularda mühazirə oxunmuşdur. Polis Akademiyasında “Müasir dövrdə insan hüquqlarının təminatının aktual problemləri” mövzusunda təşkil edilmiş dəyirmi masada iştirak edənlərə Ombudsmanın Milli Preventiv Mexanizm (MPM) qismində fəaliyyəti, bu sahədə görülən işlər, həyata keçirilən başçəkmələr, hüquqi təhlil və müvafiq hesabatlar haqqında məlumatlar təqdim olmuşdur. Ədliyyə Akademiyasının dinləyiciləri üçün oxunmuş mühazirələrdə insan hüquqlarının milli və beynəlxalq müdafiə mexanizmləri, bu sahədə beynəlxalq qanunvericilik aktlarının implementasiyası məsələləri və tətbiqi əsasları, Ombudsmanın Milli Preventiv Mexanizm qismində fəaliyyəti, ölkədə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə müntəzəm keçirilən başçəkmələr, müvafiq müəssisələrdə saxlanılan şəxslərin hüquqlarının təmini, saxlama şəraiti və rəftar məsələləri, habelə irəli sürülmüş tövsiyələr və onların icrası vəziyyəti ilə bağlı ətraflı məlumat verilmişdir.

Ombudsman Aparatı ilə ali təhsil müəssisələri arasında əməkdaşlığa uyğun olaraq 2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Bakı Dövlət Universitetinin (BDU), Azərbaycan Dillər Universitetinin, Qərbi Kaspi Universitetinin, Bakı Avrasiya Universitetinin, Xəzər Universitetinin müvafiq

ixtisasları üzrə təhsil alan tələbələrindən, habelə BDU-nun Hüquq fakültəsinin "İnsan hüquqları" və "Tibbi hüquq" ixtisaslaşmaları üzrə magistrantlarından ibarət olmaqla təsisatda 69 tələbə və magistrant istehsalat və elmi-tədqiqat təcrübəsi keçmişdir. Tələbələr təcrübə müddətində Ombudsmanın Milli Preventiv Mexanizm qismində fəaliyyəti istiqamətində görülən işlərlə bağlı da ətraflı məlumat əldə etmişlər.

2023-cü ildə Milli Preventiv Qrupun (MPQ) üzvləri tərəfindən Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Tərbiyə Müəssisəsində və 4 saylı cəzaçəkmə müəssisəsində hüquqi maarifləndirmə tədbirləri təşkil olunmuşdur.

Tərbiyə Müəssisəsində saxlanan yetkinlik yaşına çatmayanlara BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın, habelə saxlanılan şəxslərin hüquqları haqqında milli qanunvericiliyin müddəaları əsasında təqdimatlar edilmişdir. MPQ üzvləri tərəfindən şəxslərin cəzaçəkmə müəssisələrindən azad edildikdən sonra qarşılaşdıqları çətinliklərin və sosial ehtiyacların həllinə, cəmiyyətə adaptasiyasına dəstək məqsədilə təqdimat olunmuşdur. Təqdimat zamanı uşaqlar "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanunun müddəaları ilə tanış edilmişdir. İnteraktiv şəkildə keçirilən təqdimatın gedişində onların sualları ətraflı cavablandırılmış, Müvəkkilin tövsiyələri çatdırılmışdır.

4 saylı cəzaçəkmə müəssisəsində keçirilən tədbirdə qadın məhkumlar "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Qanunda nəzərdə tutulmuş müvafiq müəssisələrdən azad edilmiş şəxslərə verilən təminatlar, dövlət tərəfindən təyin edilən yardım və sosial adaptasiyaya dəstək mexanizmləri barədə məlumatlandırılmışdır. Bu şəxslərin məşğulluğu, təhsil və peşə hazırlığının təşkili, tibbi, sosial, psixoloji və hüquqi yardımın göstərilməsi ilə bağlı geniş məruzələr təqdim edilmişdir.

MPQ üzvləri tərəfindən məhkumların hüquqlarının təmini, onlarla rəftar və saxlanma şəraiti, kameraların vəziyyəti, şəxsi gigiyena, sanitariya, tibbi və psixoloji xidmətin təşkili məsələlərinə dair suallar ətraflı cavablandırılmışdır.

Hüquqi maaarifləndirmə işinin əhəmiyyəti nəzərə alaraq, Ombudsman tərəfindən müxtəlif maarifləndirici nəşrlər hazırlanır. 2023-cü ildə əlilliyi olan şəxslərin hüquqlarının təmini ilə bağlı maarifləndirici vəsait hazırlanmışdır. Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə əlilliyi olan şəxslərin mövcudluğu nəzərə alınaraq, Ombudsmanın tapşırığı ilə MPM çərçivəsində keçirilən başçəkmələr zamanı "Əlilliyi olan şəxslərin hüquqlarının təmini" adlı buklet də saxlanılan şəxslər, habelə həmin müəssisələrin əməkdaşları arasında paylanılmışdır.

Ombudsman tərəfindən elan edilmiş "Uşaq hüquqları aylığı" çərçivəsində hazırlanmış "Ombudsmanın fəaliyyətində uşaq hüquqlarının müdafiəsi" adlı maarifləndirici vəsait başçəkmələr çərçivəsində dövlət uşaq müəssisələrində paylanılmışdır.

2023-cü ildə Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində digər bir maarifləndirici nəşr də hazırlanmışdır. "Hüquqlarını bil" adlı bukletin hazırlanmasında məqsəd uşaq müəssisələrində yaşayan və tərbiyə alan uşaqların rifahı, inkişafı və daha yaxşı şəraitdə yaşamaları üçün onları hüquqlarının bir qismi ilə tanış etməkdən ibarət olmuşdur. Vəsaitdə hüquqlarla yanaşı şəxsi gigiyenanın qayğısına qalmağın, sağlam qidalanmağın önəmi və insan sağlamlığındakı rolu da qeyd edilmişdir. Bukletdə MPQ

tərəfindən həyata keçirilən başçəkmələr zamanı aşkarlanmış çatışmazlıqlar əsas götürülərək hər bir uşağın beynəlxalq konvensiyalara və milli qanunvericiliyə uyğun olaraq təmin edilməli olan hüquqları mövzu ilə əlaqəli şəkillərlə birgə uşaqların daha rahat anlayacağı üslubda əks olunmuşdur.

Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının 4.1-ci bəndinə müvafiq olaraq, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolunun tələblərinin hüquq-mühafizə orqanlarının, digər aidiyyəti qurumların əməkdaşları, habelə vəkillər və hüquq sahəsində ixtisaslaşan qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən öyrənilməsi işi təşkil olunmuş, bununla bağlı hüquq-mühafizə orqanlarının akademiyalarında, o cümlədən Polis və Ədliyyə Akademiyalarında geniş müzakirələr aparılmışdır.

Polis Akademiyasında rayon, şəhər polis idarələri rəislərinin müavinləri və müdavimlər, Ədliyyə Akademiyasında hakimlər, məhkəmə ekspertləri və ədliyyə orqanlarına qulluğa qəbul olunanlar üçün mühazirələrdə Ombudsmanın MPM sahəsində fəaliyyəti, habelə keçirilmiş başçəkmələr barədə ətraflı məlumat verilmişdir.

Penitensiar Xidmətin müəssisələrində Ombudsman tərəfindən hüquqi maarifləndirmə tədbirləri də davam etdirilmişdir. Penitensiar Xidmətin müəssisələrində interaktiv qaydada təşkil edilən maarifləndirmə tədbirlərində dövlət tərəfindən təyin edilən yardım və sosial adaptasiyaya dəstək mexanizmləri barədə məlumat verilmiş, məhkumların sualları ətraflı cavablandırılmış, həmçinin Ombudsmanın tövsiyələri çatdırılmış, məhkumların müraciətləri qəbul edilmişdir.

## BÖLMƏ 5.

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

2023-cü ildə Müvəkkil MPM fəaliyyəti çərçivəsində ictimaiyyətlə, yerli, regional və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq əlaqələrini davam etdirmişdir.

Dövlət orqanları, vətəndaş cəmiyyəti institutları, o cümlədən QHT-lər, habelə KİV, regional və beynəlxalq təşkilatlarla, xarici ölkə MPM-ləri ilə informasiya və təcrübə mübadiləsinin aparılması, keçirilən tədbirlərdə qarşılıqlı iştirakın təmin olunması, eləcə də birgə tədbirlərin təşkili bu istiqamətdə fəaliyyəti inkişaf etdirmişdir.

Azərbaycan MPM-in fəaliyyəti barədə həm ölkə ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət mütəmadi olaraq məlumatlandırılmışdır. İl ərzində KİV-də başçəkmələrlə əlaqədar 39, maarifləndirmə və digər tədbirlərlə əlaqədar 24 olmaqla, cəmi 63 mətbuat açıqlaması (press reliz) yayımlanmışdır.

Mətbuat açıqlamaları, həmçinin MPM-in fəaliyyətinə dair hesabatlar, MPQ-nin tərkibi barədə məlumat, habelə müvafiq normativ aktlar Müvəkkilin rəsmi internet saytında yaradılmış xüsusi bölmədə Azərbaycan və İngilis dillərində yerləşdirilmişdir. Hesabatlar Ombudsmanın rəsmi internet səhifəsində yerləşdirilməklə yanaşı, aidiyyəti dövlət qurumlarına və beynəlxalq təşkilatlara da göndərilmişdir.

Azərbaycan xalqının Ümummili Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın təşəbbüsü ilə həyata keçirilmiş tədbirlər çərçivəsində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl ərəfəsində növbəti dəfə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Tərbiyə Müəssisəsində islah olunan yetkinlik yaşına çatmayanlardan iki nəfərinin paytaxtda yerləşən tarixi-mədəniyyət abidələrinə, istirahət və ictimai iaşə obyektlərinə bir günlük səfəri təşkil olunmuşdur.

Ombudsman yeniyetmələr ilə birlikdə Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etmiş, abidəsi önünə tər güllər qoymuş, xatirəsini dərin ehtiramla yad etmişlər.

Daha sonra şəhidlərin məzarı ziyarət edilərək, əziz xatirələri yad olunmuşdur.

Gəzinti çərçivəsində yetkinlik yaşına çatmayanların Heydər Əliyev Mərkəzinə və Bakı Kitab Evinə səfərləri təşkil olunmuş, onlara müxtəlif janrlarda olan kitablar hədiyyə olunmuşdur.

Ombudsman uşaqlarla birgə nahar etmiş, onları müstəqil Azərbaycanın dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin keçdiyi şərəfli ömür yolu, ölkəmizin inkişaf tarixindəki rolu barədə məlumatlandırmış, onlara fərdi inkişafları, hüquqlarının müdafiəsi, təhsilləri, peşə vərdişləri və islah olunmaları istiqamətində tövsiyələrini bildirmişdir. Uşaqlar üçün təşkil edilmiş mədəni proqramın sonunda onlara hədiyyələr təqdim olunmuşdur.

*Beynəlxalq əməkdaşlıq*. 2023-cü il ərzində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, aparılan təcrübə və fikir mübadilələri Azərbaycan MPM-nin fəaliyyətinin effektiv həyata keçirilməsinə geniş imkanlar açmışdır.

Ombudsman MPM qismində BMT və onun müqavilə qurumları, habelə İQK, İQA, İQAK, Avropa Şurası, Avropa İttifaqı, ATƏT, BQXK və digər beynəlxalq təşkilatlarla, müxtəlif ölkələrin MPM-ləri, o cümlədən Ombudsman birlikləri ilə sıx əməkdaşlıq edir, təcrübə mübadiləsi aparır.

Ombudsmanın MPM qismində beynəlxalq əlaqələrinin həyata keçirilməsi istiqamətləri kimi işgəncələrin qarşısının alınması sahəsində müxtəlif görüşlərin təşkili, birgə tədbirlərin həyata keçirilməsi, Ombudsman və MPQ-nin üzvlərinin beynəlxalq tədbirlərdə iştirakı və qarşılıqlı təcrübə mübadilələrini göstərmək olar.

2021-2024-cü illəri əhatə edən "Azərbaycanda yerdəyişmə üzrə tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBİLAZE-2)" layihəsi çərçivəsində əməkdaşlıq davam etdirilmişdir. Bu layihə çərçivəsində Ombudsman Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin dəvəti ilə 8-ci Vyana Miqrasiya Konfransında iştirak məqsədilə Avstriya Respublikasına səfər etmişdir. Səfər çərçivəsində həmin mərkəzin baş direktoru ilə ikitərəfli görüş zamanı miqrantların hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən fəaliyyət, o cümlədən qanunsuz miqrantların saxlama yerlərinə başçəkmələr haqqında məlumat verilmiş, əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair müzakirələr aparılmışdır.

Ombudsman Macarıstan Respublikasının Ombudsman Təsisatı tərəfindən təşkil edilmiş Türk Dövlətlərinin Ombudsmanlar və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyasının Budapeştdə keçirilən beynəlxalq konfansında çıxışı zamanı Milli Preventiv Mexanizm mandatı çərçivəsində görülən işlər barədə məlumat vermiş, başçəkmələr və bu sahədə fəaliyyəti özündə əks etdirən illik hesabatlarda ümumilikdə 200-dən çox təklif və tövsiyənin verildiyini qeyd etmişdir.

Səfər çərçivəsində Ombudsman digər rəsmilərlə yanaşı Macarıstanın Penitensiar Xidmətinin Baş direktoru ilə də görüşmüş, digər ölkələrdən olan həmkarları ilə birgə regional istintaq təcridxanasında olmuşdur.

Ombudsman UNICEF-in ölkəmizdə fəaliyyətini başa çatdıran nümayəndəsi Aleks Haykensi qəbul etmişdir. Görüşdə iki qurum arasında əməkdaşlığın əhəmiyyəti və imzalanmış Fəaliyyət Planına uyğun olaraq həyata keçirilən işlər, Ombudsmanın MPM fəaliyyəti çərçivəsində uşaq müəssisələrinə başçəkmələr və miqrant uşaqların hüquqlarının müdafiəsi barədə fikir mübadiləsi aparılmışdır.

Ombudsman Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçilərini qəbul etmiş, Ombudsmanın fəaliyyət istiqamətləri, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilən başçəkmələr barədə geniş məlumat vermişdir.

Ombudsman Aparatında Avropa Şurasının İnsan hüquqları və qanunun aliliyi direktoratlığının rəhbərinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə Ombudsmanın aparatında və regional mərkəzlərində müraciət edən şəxslərin qəbul edildiyi, həmçinin müraciətlərin 24 saat fəaliyyət göstərən Çağrı Mərkəzi, elektron müraciət forması və sosial şəbəkələr vasitəsilə qəbul olunduğu bildirilmişdir. Bundan əlavə, Ombudsmanın milli preventiv mexanizm mandatı çərçivəsində mütəmadi qaydada başçəkmələr həyata keçirildiyi, verilən tövsiyələrin icra vəziyyətinin monitorinqinin aparıldığı, müraciətlərin operativ olaraq araşdırıldığı və bu sahədə vəkillərlə əməkdaşlıq da diqqətə çatdırılmışdır.

Azərbaycan Ombudsmanı dünya üzrə müxtəlif ölkələrin milli insan hüquqları təsisatlarını özündə birləşdirən Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının (MİHTQA) 200-ə yaxın milli insan hüquqları təsisatının rəhbər və nümayəndəsinin, eləcə də BMT-nin müxtəlif qurumlarının ekspert və təmsilçilərinin iştirakı ilə Cenevrə şəhərində keçirilən növbəti illik iclasında, habelə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyi və Milli İnsan Hüquqları Təsisatlarının Statusuna dair Paris Prinsiplərinin 30 illiyinə

həsr edilmiş konfransda iştirak etmişdir. Tədbir çərçivəsində milli preventiv mexanizm fəaliyyəti ilə bağlı təcrübə mübadiləsi çərçivəsində Azərbaycan Ombudsmanı və onun milli preventiv qrupu tərəfindən həyata keçirilən başçəkmələr, bu fəaliyyət çərçivəsində tətbiq edilən yeniliklər və məhkum edilmiş şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində göstərilən səylər barədə məlumatlar vermiş, bununla bağlı müxtəlif ölkələrin təmsil olunduğu qrupda müzakirələr aparılmışdır.

Ombudsman MİHTQA, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, Ukrayna Ombudsman İnstitutu və Danimarka İnsan Hüquqları İnstitutu tərəfindən Kopenhagen şəhərində keçirilən Milli İnsan Hüquqları İnstitutlarının 14-cü iclasında iştirak etmişdir. “İşgəncə və digər pis rəftar: Milli insan hüquqları təsisatlarının rolu” mövzusuna həsr olunmuş iclasda çıxışı zamanı Ombudsman milli preventiv mexanizm mandatı çərçivəsində həyata keçirilən fəaliyyət, başçəkmələr barədə məlumat vermişdir. Ombudsmanın səlahiyyətlərinin genişləndirilməsi ilə bağlı Konstitusiya Qanununa dəyişikliklər edildiyi, habelə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirmək səlahiyyətinin verildiyi qeyd olunmuşdur. Ombudsman çıxışında Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozan əməllərinə, habelə azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə və quruculuq işlərinə də toxunmuş, bu işlərin aparılması zamanı azərbaycanlılara məxsus kütləvi məzarlıqların aşkarlandığını diqqətə çatdırmış, bu məsələ ilə bağlı hesabatların hazırlanaraq aidiyyəti beynəlxalq qurumlara göndərildiyini və mediada geniş yayımlandığını bildirmişdir.

2023-cü ildə də Milli Preventiv Qrupun üzvləri bir sıra tədbirdə iştirak etmiş, mövzular üzrə məruzələrlə çıxış etmiş və müxtəlif sahələr üzrə təcrübə mübadiləsi aparmışlar.

## BÖLMƏ 6

## TƏKLİF VƏ TÖVSİYƏLƏR

Ötən dövr ərzində Müvəkkilin MPM qismində həyata keçirdiyi fəaliyyətin nəticələrinin təhlili onun səmərəli olduğunu deməyə əsas verir. Bu ilk növbədə ölkədə aparılan hüquqi islahatların məntiqi nəticəsi və Milli Preventiv Mexanizmin gördüyü işlərin – preventiv başçəkmələrin, hüquqi maarifləndirmə tədbirlərinin genişliyi və effektivliyi ilə müşahidə olunur.

Bir çox təklif–tövsiyələrin irəli sürülməsi və icrası nəticəsində hüquq-mühafizə, cəzaları icra edən orqanların, digər dövlət qurumlarının insan hüquqlarının mahiyyətinə və təmin olunmasına münasibəti müsbətə doğru dəyişmiş, hüquq düşüncəsi yeni məzmunda formalaşmış, idarəetmənin təkmilləşdirilməsi istiqamətində addımlar atılmışdır.

Müvəkkil bu istiqamətdə də öz fəaliyyətini "Paris prinsiplərinə" uyğun aşağıdakı şəkildə qurur:

- milli qanunvericilik aktlarının və praktikanın dövlətin iştirakçısı olduğu insan hüquqlarına dair beynəlxalq sənədlərə uyğunlaşdırılması və həyata keçirilməsini təşviq edir;

- dövlətin beynəlxalq sənədlərə qoşulmasını və beynəlxalq normaların milli qanunvericiliyə implementasiyasını, eləcə də müvafiq tədbirlərin görülməsini təşviq edir;

- dövlətin beynəlxalq konvensiyalar üzrə həyata keçirdiyi fəaliyyətlə bağlı BMT qurumlarına, regional təsisatlara təqdim etməli olduğu məruzələrin hazırlanmasına yardım göstərir, müstəqillik prinsipinə uyğun olaraq bu hesabat barədə öz rəyini ifadə edir, habelə əlavə hesabatını təqdim edir.

Müvəkkilin 2023-cü ildə MPM qismində həyata keçirdiyi fəaliyyətin nəticələrini əsas götürülərək, saxlanılan şəxslərin hüquqlarının effektiv təmini məqsədilə aşağıdakılar təklif edilir:

1. Uşaq hüquqlarının etibarlı müdafiəsi məqsədilə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 228.2-ci maddəsinin yeni redaksiyada ("Yetkinlik yaşına çatmamış şahidin dindirilməsi psixoloqun, zəruri hallarda isə müəllimin, digər müvafiq ixtisaslı mütəxəssisin və onun qanuni nümayəndəsinin iştirakı ilə aparılır.") verilməsi;

2. Uşaq hüquqlarının etibarlı müdafiəsi məqsədilə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 432.5-ci maddəsindən ("16 yaşınadək və əqli cəhətdən zəiflik əlamətləri olan yetkinlik yaşına çatmayan şəxsin iştirakı ilə istintaq hərəkətlərinin aparılmasında müstəntiq müəllim və ya psixoloqun iştirakını təmin etməlidir.") "16 yaşınadək və əqli cəhətdən zəiflik əlamətləri olan" sözlərinin çıxarılması;

3. Müvafiq uşaq müəssisələrində uşaqların sağlam, təhlükəsiz və inkişaf etdirici mühitdə yaşamaq hüququnun təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 23 iyun tarixli, 157 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinin, internat tipli sanator ümumtəhsil məktəblərinin, internat tipli liseylərin və internat tipli gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədrisköməkçi və

xidmətedici heyətinin nümunəvi ştatları”nda “gecə dayəsi” və “psixoloq” ştatlarının sayının artırılması;

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 iyul tarixli, 172 nömrəli Qərarı ilə təsdiq edilmiş “Uşaq evlərinin rəhbər işçilərinin, pedaqoji, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi Ştatları” cədvəlinə “sosial işçi” ştat vahidinin əlavə edilməsi;

5. Körpələr evlərində və uşaq bağçalarında “uşaq psixoloqu” və “erkən inkişaf üzrə mütəxəssis” ştat vahidlərinin müəyyən edilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli, 61 nömrəli “Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında” Qərarında müvafiq dəyişikliklərin edilməsi;

6. Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə əlilliyi olan şəxslərə müyəssər olması üçün uyğunlaşdırılması məqsədilə maliyyə vəsaitinin ayrılması;

7. Cəza-icra qanunvericiliyində və digər qanunvericilik aktlarında xüsusi ictimai təhlükə törətməyən və az ağır cinayət törətmiş 18-24 yaş arası məhkumların fərqli rejimdə cəza çəkməsinə imkan verən dəyişikliklərin edilməsi və belə məhkumların cəzasını çəkməsi üçün xüsusi cəzaçəkmə müəssisəsinin yaradılması;

8. Məhkum edilmiş şəxslərin təhsil almaq hüququnun təmin edilməsi, orta ixtisas və ya ali təhsilini davam etdirməsi, öz bilik və bacarıqlarını artırması məqsədilə müvafiq mexanizmin, o cümlədən internet platformaların yaradılması;

9. Həbs edilmiş şəxslərin, müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin sağlamlığının qorunması hüququnun səmərəli təmini məqsədilə belə şəxslərin müayinə və müalicəsinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələrində aparılması mümkün olmadıqda, həmin tibbi xidmətlərin digər tibb müəssisələrində icbari tibbi sığorta hesabına həyata keçirilməsi ilə bağlı “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-2-ci maddəsinə müvafiq əlavə və dəyişikliklərin edilməsi;

10. Müvafiq uşaq müəssisələrində uşaqlara göstərilən xidmətlərin keyfiyyətinin artırılmasının təmini məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 9 yanvar tarixli, 6 nömrəli Qərarı ilə təsdiq edilmiş “Əqli və fiziki inkişafında pozuntular olan uşaqlar üçün internat tipli xüsusi ümumtəhsil məktəblərinin rəhbər işçiləri, inzibatitəsərrüfat, tədris-yardımçı və xidmət işçiləri heyətinin nümunəvi ştatları”nda “tibb bacısı”, “gecə dayəsi” və “psixoloq” ştatlarının sayının artırılması;

11. Körpələr evində, bağça-körpələr evində və uşaq evlərində uşaqların sağlamlığın qorunması hüququnun təmin edilməsi sahəsində səmərəliliyin artırılması məqsədilə “Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli, 103 nömrəli Qərarı ilə təsdiq edilmiş

“Körpələr evində, bağça-körpələr evində və uşaq evlərində uşaqlar üçün qida normaları”nın (3 nömrəli əlavə) müasir standartlara uyğunlaşdırılması;

12. Məhkumların və istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslərin şəhərlərarası telefon danışığı üçün ödənişin həmin şəxslərin hesabında vəsait olmadığı halda, dövlət büdcəsi hesabına ödənilməsinin təmin edilməsi;

13. Saxlanılan şəxslərin ilkin təminatlarından olan telefon danışığı hüququnun həyata keçirilməsi üçün bütün MSY-lərdə telefon köşklərinin təşkil edilməsi, işləməyən telefon aparatlarının təmir edilməsi və telefon danışıqları ilə bağlı qeydiyyatın hərtərəfli aparılması işinə nəzarətin gücləndirilməsi;

14. Cəzaların icrası qanunvericiliyində və həbs yerlərinin daxili intizam Qaydalarında şəxslərin öz iradəsi ilə tərk edə bilmədikləri müəssisələrdəki gəzinti sahəsinin təşkili ilə bağlı tələblərin beynəlxalq standartlara uyğunlaşdırılması;

15. Müvəqqəti Saxlama Yerlərində müxtəlif kateqoriyadan olan şəxslərin ayrı saxlanılması ilə bağlı milli qanunvericiliyin və beynəlxalq normaların düzgün tətbiqinə nail olunması;

16. Qanunvericiliyə müvafiq şəkildə MSY-də saxlanılan şəxslərin dövlət hesabına maddi-məişət və gigiyenik vasitələrlə təmin olunması işinin yaxşılaşdırılması;

17. Polis idarə, şöbə, bölmə və MSY-də müvafiq qeydiyyat jurnallarının və sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi, çatışmazlıqların aradan qaldırılması, sənədləşmə və ilkin tutma prosesinə nəzarətin gücləndirilməsi;

18. MSY-lərdə istifadəyə yararlılıq müddəti keçmiş dərman preparatlarının saxlanılması və istifadəsinin qarşısının alınmasına yönəlmiş tədbirlərin gücləndirilməsi və müntəzəm monitorinqinin aparılması;

19. Penitensiar Xidmətin istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində davam edən sıxlıq probleminin aradan qaldırılması istiqamətində tədbirlərin gücləndirilməsi, habelə 2 və 3 saylı istintaq təcridxanalarının yeni yerlərə köçürülməsi işinin sürətləndirilməsi;

20. İnşası davam etdirilən penitensiar müəssisələrin tikintisinin sürətləndirilməsi, təmirə ehtiyacı olan yerlərdə müvafiq tədbirlərin görülməsi;

21. Məhkumlar tərəfindən rejim pozuntusu hallarının azaldılması, habelə gələcəkdə belə şəxslərin cəmiyyətə reinteqrasiyasının uğurla gerçəkləşdirilməsi üçün kompleks tədbirlər həyata keçirməklə islah prosesinin təkmilləşdirilməsi;

22. Cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların islah olunması, şəxsiyyətinin inkişafı və azad olunduqdan sonra cəmiyyətə adaptasiyası məqsədilə “Cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların islah edilməsi və cəmiyyətə adaptasiyası” üzrə proqramın qəbul edilməsi;

23. İslah işləri çərçivəsində beynəlxalq təcübəyə əsaslanmaqla qanunvericiliyin verdiyi imkanlardan istifadə edərək, rejim pozuntularına görə cərimə təcridxanasına keçirilmə əvəzinə digər, ciddiliyinə görə daha yumşaq inzibati tənbeh tədbirlərinin (xəbərdarlıq, töhmət) seçilməsi;

24. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün sosial adaptasiya və reabilitasiya tipli müəssisələrin respublikanın region və bölgələrində geniş şəkildə yaradılması;

25. Penitensiar müəssisələlərdən azad edilmiş şəxslərin reabilitasiyası və sosial adaptasiyası sahəsində kompleks proqramların həyata keçirilməsi, sosial xidmətlərin inkişaf etdirilməsi;

26. “Psixoloji yardım haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq, penitensiar müəssisələrdə saxlanılan və psixi sağlamlığına potensial təhlükə yarana biləcək şəxslərə keyfiyyətli və adekvat yardımın göstərilməsi işinin təşkili;

27. Psixiatriya müəssisələrində müalicə alan şəxslərin vaxtında terapiyaya cəlb olunmaları üçün kadr çatışmazlığının aradan qaldırılması;

28. Psixiatriya müəssisələrində müalicənin farmako-terapiya ilə məhdudlaşdırılmaması, psixo-sosial reabilitasiya tədbirlərinin müasir standartlara uyğun təşkil olunması, pasiyentlərin müalicə planlarının tərtibatında iştirakının dəstəklənməsi, hər bir pasiyent üçün müalicə məqsədlərinin, terapiya üsullarının və müalicəyə cavabdeh olan əməkdaşların adlarının əks olunduğu fərdi müalicə planının tərtib olunması;

29. Narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir üsulların tətbiq edilməsi, narkoloq və klinik psixoloqların, narkoloji müalicə müəssisələrinin sayının artırılması, reabilitasiya mərkəzlərinin yaradılması;

30. Narkotik asılılığından əziyyət çəkən yetkinlik yaşına çatmayan şəxslərin müalicə alması məqsədilə ixtisaslaşmış tibb müəssisələrində ayrıca şöbələrin yaradılması;

31. 2021-ci ildən təmir məqsədilə fəaliyyəti dayanan Gəncə Körpələr Evində təmir bərpa işlərinin aparılması və tikintisinin tezləşdirilməsi;

32. Xüsusi internat məktəblərində ibtidai sinif şagirdləri istisna olmaqla, digər şagirdlərin müvafiq dərs vəsaitləri ilə təmin edilmədiyini nəzərə alaraq, sağlamlıq imkanları məhdud şəxslərin təhsili üzrə dövlət proqramının, dərslik və dərs vəsaitlərinin hazırlanması və sağlamlıq imkanları məhdud şəxslərin həmin vəsaitlərlə təmin olunmasının sürətləndirilməsi;

33. Ümumtəhsil internat məktəblərinin fəaliyyətini tənzimləyən əsasnamələrin Azərbaycan Respublikasının qanunvericiliyinin, o cümlədən ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə, habelə müasir çağırışlara uyğun yenidən işlənib hazırlanması və təsdiq edilməsi;

34. Qəzalı vəziyyətdə olan Quba Xüsusi Peşə Məktəbində saxlanma şəraitinin Azərbaycan Respublikasının qanunvericiliyi, o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"si ilə müəyyən edilmiş tələblərə uyğunlaşdırılması məqsədilə yenidən təşkil edilməsi;

35. Penitensiar müəssisələrdə psixoloji yardımla bağlı işin təkmilləşdirilməsi və məhkumlarla işləmək bacarığına malik peşəkar psixoloqlara olan ehtiyacın təmin edilməsi məqsədilə psixologiya ixtisası üzrə mütəxəssis hazırlayan ali təhsil müəssisələrində "penitensiar psixoloq" ixtisası üzrə mütəxəssislərin hazırlanması;

36. Elm və Təhsil Nazirliyinin tabeliyindəki müəssisələrdə çalışan psixoloqların mütəmadi olaraq təlimlərdə və ixtisasartırma proqramlarında iştirakının təmin edilməsi;

37. Elm və Təhsil Nazirliyinin tabeliyindəki müəssisələrdə, xüsusilə uşaqların gecələdiyi məktəblərdə istiliklə təchizatının təqvimə görə deyil, havaların temperaturuna uyğun olaraq təmin edilməsi;

38. Psixiatriya xəstəxanalarında və Narkoloji dispanserlərdə (mərkəzdə) müalicə olunan, müalicə müddəti bitmiş, lakin yaşayış yeri olmayan pasiyentlərin sosial xidmət müəssisələrinə köçürülməsi üzrə mexanizmin hazırlanması, eyni zamanda sosial xidmət müəssisələrində limitin (yaşayış yerlərinin) artırılması.

## STATİSTİK GÖSTƏRİCİLƏR

*Əlavə 1*

**Diaqram 1. 2022-ci ildə həyata keçirilən başçəkmələrin müəssisələr üzrə bölgüsü**




**Diaqram 2. MPM-in 2023-ci ildə həyata keçirdiyi başçəkmələrin sayı**



***Diaqram 3. MPM qismində həyata keçirilən başçəkmələrin illər üzrə sayı***




***Diaqram 4. MPM-in mətbuat açıqlamalarının sayı (illər üzrə)***



## İŞGƏNCƏLƏRƏ VƏ DİGƏR QƏDDAR, QEYRİ-İNSANİ YAXUD LƏYAQƏTİ ALÇALDAN RƏFTAR VƏ CƏZA NÖVLƏRİNƏ QARŞI KONVENSİYANIN

## FAKÜLTATİV PROTOKOLU

### Preambula

Hazırkı Protokolun iştirakçı dövlətləri,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəf-tarın və cəza növlərinin qadağan edildiyini və onların insan hüquqlarının ciddi pozuntuları olduğunu bir daha təsdiq edərək,

İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın (bundan sonra "Konvensiya" adlandırılacaq) məqsədlərinə nail olunması və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üzrə gələcək tədbirlərin zəruriliyinə əmin olaraq,

Konvensiyanın 2-ci və 16-cı maddələrinin hər bir iştirakçı dövlətin öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün səmərəli tədbirlərin görülməsini öhdəsinə qoyduğunu xatırlayaraq,

Dövlətlərin bu maddələrin həyata keçirilməsinə görə birbaşa məsuliyyət daşıdığını, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinin gücləndirilməsinin və onların insan hüquqlarına tam riayət olunmasının ümumi vəzifə olduğunu və Konvensiyanın tətbiqi üzrə beynəlxalq qurumların milli tədbirləri tamamladığını və möhkəmləndirdiyini etiraf edərək,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin səmərəli şəkildə qarşısının alınmasının maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb etdiyini xatırlayaraq,

Həmçinin, Vyanada 1993-cü ilin iyun ayında keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında işgəncələrin kökünün kəsilməsi üzrə səylərin ilk öncə onun qarşısının alınmasına yönəlməli olduğunu bəyan etdiyini və saxlanma yerlərinə mütəmadi başçəkmə üzrə preventiv sistemin yaradılması məqsədi daşıyan Konvensiyanın fakültativ protokolunun qəbul edilməsinə çağırdığını xatırlayaraq,

Azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin saxlanma yerlərinə mütəmadi başçəkmələrə əsaslanan preventiv xarakter daşıyan qeyri-məhkəmə tədbirləri əsasında gücləndirə bilinməsinə əmin olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

## I HİSSƏ

## ÜMUMİ PRİNSİPLƏR

***Maddə 1***

Hazırkı Protokolun məqsədi işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən mütəmadi başçəkmələr sisteminin yaradılmasından ibarətdir.

***Maddə 2***

1. Hazırkı Protokolda ifadə olunan funksiyaları yerinə yetirən İşgəncələrə qarşı Komitənin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üzrə Altkomitə (bundan sonra Qarşısını Alma üzrə Altkomitə adlandırılacaq) yaradılır.

2. Qarşısını Alma üzrə Altkomitə fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərinin, habelə Birləşmiş Millətlər Təşkilatının azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını rəhbər tutur.

3. Qarşısını Alma üzrə Altkomitə, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur.

4. Qarşısını Alma üzrə Altkomitə və iştirakçı dövlətlər hazırkı Protokolun həyata keçirilməsində əməkdaşlıq edir.

***Maddə 3***

Hər bir iştirakçı dövlət işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması məqsədilə milli səviyyədə (milli preventiv mexanizmlər adlandırılan) bir və ya bir neçə başçəkmə orqanını yaradır, təyin edir və ya dəstəkləyir.

***Maddə 4***

1. Hər bir iştirakçı dövlət Hazırkı Protokola, 2-ci və 3-cü maddələrdə qeyd olunan mexanizmlərə uyğun olaraq yurisdiksiyası və nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin dövlət orqanının sərəncamı və ya onun göstərişi, yaxud icazəsi və ya susmaqla razılığı əsasında saxlanıldığı və yaxud saxlanıla bildiyi hər bir yerə (bundan sonra saxlanma yerləri adlandırılacaq) başçəkmələrə icazə verir. Zərurət olduqda bu başçəkmələr belə şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi məqsədi ilə həyata keçirilir.

2. Hazırkı Protokolun məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl həbsdə saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

## II HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏ

***Maddə 5***

1. Qarşısını alma üzrə Altkomitə on üzvdən ibarətdir. Hazırkı Protokolun əllinci ratifikasiya fərmanının və ya ona qoşulma haqqında sənədin saxlanma üçün verilməsindən sonra Altkomitənin üzvlərinin sayı iyirmi beş nəfərə qədər artırılır.

2. Qarşısını alma üzrə Altkomitənin üzvləri yüksək mənəvi keyfiyyətlərə malik və ədalət mühakiməsi, xüsusilə də cinayət ədalət mühakiməsi sahəsində, penitensiar sistemdə və ya polis orqanlarında, yaxud azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla aid istənilən sahələrdə təsdiq edilmiş iş təcrübəsi olan şəxslər sırasından seçilir.

3. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı ədalətli coğrafi bölgü və iştirakçı dövlətlərin müxtəlif mədəniyyət formalarının və hüquq sistemlərinin təmsilçiliyinin zərurətinə lazımi diqqət yetirilir.

4. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı həmçinin bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri əsasında tarazlaşdırılmış gender təmsilçiliyinə diqqət yetirilir.

5. Qarşısını alma üzrə Altkomitənin tərkibinə eyni dövlətin birdən çox vətəndaşı daxil ola bilməz.

6. Qarşısını alma üzrə Altkomitənin üzvləri öz funksiyalarını şəxsi qisimdə həyata keçirir, onlar müstəqil və qərəzsiz olmalı və Altkomitənin tərkibində səmərəli işləməyə imkanları olmalıdır.

***Maddə 6***

1. Hər bir iştirakçı dövlət hazırkı maddənin 2-ci bəndinə uyğun olaraq 5-ci maddədə təsbit olunmuş ixtisas və tələblərə cavab verən iki namizədi irəli sürə bilər, bununla belə dövlət həmin namizədlərin ixtisası haqqında ətraflı məlumat təqdim edir.

2. a) Namizədlər hazırkı Protokolun iştirakçı dövlətinin vətəndaşı olmalıdır;

b) irəli sürülmüş iki namizəddən ən azı biri onun namizədliyini irəli sürən iştirakçı dövlətin vətəndaşlığına malik olmalıdır;

c) bir iştirakçı dövlətin vətəndaşı olan iki nəfərdən çox namizəd irəli sürülə bilməz;

d) hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin vətəndaşını namizəd kimi irəli sürməkdən əvvəl, o, həmin iştirakçı dövlətə sorğu verir və razılığını alır.

3. Seçkilərin keçirilməsi nəzərdə tutulan iştirakçı dövlətlərin müşavirəsinin başlanmasından ən azı beş ay əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi iştirakçı dövlətlərə üç ay ərzində öz namizədlərini irəli sürmək təklifi ilə məktub göndərir. Baş katib bütün namizədlərin, onları irəli sürmüş iştirakçı dövlətlər göstərilməklə əlifba qaydasında siyahısını təqdim edir.

***Maddə 7***

1. Qarşısını alma üzrə Altkomitənin üzvləri aşağıdakı qaydada seçilir:

a) əsas diqqət hazırkı Protokolun 5-ci maddəsinin tələblərinə və meyarlarına əməl edilməsinə yetirilir;

b) ilk seçkilər hazırkı Protokolun qüvvəyə minməsindən sonra altı ay müddətindən gec olmayaraq keçirilir;

c) iştirakçı dövlətlər Qarşısını alma üzrə Altkomitənin üzvlərini gizli səsvermə yolu ilə seçir;

d) Qarşısını alma üzrə Altkomitənin üzvünün seçkiləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən iki ildə bir dəfə çağırılan iştirakçı dövlətlərin iclaslarında keçirilir. İştirakçı dövlətlərin sayının üçdə iki hissəsi kvorum hesab edilən bu iclaslarda ən çox səs və iştirak edən və

səs verən iştirakçı dövlətlərin nümayəndələrinin mütləq səs çoxluğunu toplamış şəxslər Altkomitəyə seçilmiş üzvlər hesab olunur.

2. Seçkilər zamanı hər hansı iştirakçı dövlətin iki vətəndaşının Qarşısını alma üzrə Altkomitənin tərkibində işləmək hüququnu əldə etdiyi təqdirdə, ən çox səs toplamış namizəd Altkomitənin üzvü seçilir. Bu vətəndaşların eyni sayda səs topladığı təqdirdə, aşağıdakı prosedur tətbiq olunur:

a) namizədlərin yalnız biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə bu vətəndaş Qarşısını alma üzrə I Altkomitənin üzvü seçilir;

b) hər iki namizəd vətəndaş olduqları iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə, Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir;

c) namizədlərdən heç biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürülmədiyi təqdirdə Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir.

***Maddə 8***

Qarşısını alma üzrə Altkomitə üzlərindən birinin vəfat etdiyi və ya istefa verdiyi yaxud hər hansı digər səbəbdən Altkomitə üzvünün funksiyalarını yerinə yetirməsi mümkün olmadığı təqdirdə, onun namizədliyini irəli sürmüş iştirakçı dövlət seçilmək hüququ olan, 5-ci maddədə təsbit olunmuş ixtisasa malik və tələblərə cavab verən şəxsi teyin edir. Bu şəxs səlahiyyətlərin müxtəlif sahələri arasında müvafiq tarazlığın təmin edilməsi zərurəti nəzərə alınmaqla, iştirakçı dövlətlərin növbəti iclasına qədər olan səlahiyyət müddətinə, onun iştirakçı dövlətlərin çoxluğu tərəfindən təsdiq olunması şərti ilə teyin olunur. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin ehtimal edilən təyinat haqqında bildirişindən sonra altı ay ərzində iştirakçı dövlətlərin yarısı və ya yarısından çoxu tərəfindən belə təyinata qarşı çıxış edilmədiyi təqdirdə təsdiqetmə baş tutmuş hesab olunur.

***Maddə 9***

Qarşısını alma üzrə Altkomitənin üzvləri il 4 müddətinə seçilir. Namizədlikləri irəli sürüldüyü təqdirdə onlar bir dəfə təkrarən seçilə bilərlər. İlk seçkilərdə seçilmiş üzvlərin yarısının səlahiyyət müddəti iki illik müddət bitdikdən sonra başa çatır; ilk seçkilərdən dərhal sonra bu üzvlərin adları 7-ci maddənin 1 d bəndində qeyd olunan iclasın Sədri tərəfindən keçirilən püşk atma yolu ilə müəyyən olunur.

***Maddə 10***

1. Qarşısını alma üzrə Altkomitə öz vəzifəli şəxslərini iki il müddətinə seçir. Onlar təkrarən seçilə bilərlər.

2. Qarşısını alma üzrə Altkomitə öz prosedur qaydalarını müəyyən edir. Bu prosedur qaydalar xüsusilə aşağıdakıları nəzərdə tutur:

a) üzvlərin yarısı üstə gəl bir kvorum təşkil edir;

b) Qarşısını alma üzrə Altkomitənin qərarları iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul olunur;

c) Qarşısını alma üzrə Altkomitənin iclasları qapalı keçirilir.

3. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Qarşısını alma üzrə Altkomitənin ilk iclasını çağırır. İlk iclasdan sonra Qarşısını alma üzrə Altkomitə prosedur qaydalarına müvafiq olan intervalda iclaslarını keçirir. Altkomitə və İşgəncələrə qarşı Komitə ildə bir dəfədən az olmayaraq birlikdə toplaşırlar.

## III HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏNİN MANDATI

***Maddə 11***

Qarşısını alma üzrə Altkomitə:

a) 4-cü maddədə qeyd olunan yerlərə baş çəkir və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsi ilə bağlı iştirakçı dövlətlərə tövsiyələr təqdim edir;

b) milli preventiv mexanizmlərə münasibətdə:

i) zərurət olduqda, beləmexanizmlərin yaradılmasında iştirakçı dövlətlərə məsləhət verir və yardım göstərir;

ii) milli preventiv mexanizmlərlə birbaşa, zərurət olduqda konfidensial şəkildə əlaqə saxlayır və onların potensialının gücləndirilməsi məqsədi ilə peşəkar hazırlıq və texniki yardım sahəsində xidmətlər təklif edir;

iii) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri tədbirlərin qiymətləndirilməsi işində məsləhət verir və yardım göstərir;

iv) milli preventiv mexanizmlərinin imkanlarının və mandatının gücləndirilməsi məqsədi ilə işgəncələrin və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün iştirakçı dövlətlərə tövsiyə və iradları təqdim edir.

c) işgəncələrin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurum və mexanizmləri ilə, habelə bütün şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi marağından çıxış edən beynəlxalq, regional və milli təsisat və ya təşkilatlarla əməkdaşlıq edir.

***Maddə 12***

Qarşısını alma üzrə Altkomitənin 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirə bilməsi üçün iştirakçı dövlətlər aşağıdakıları öhdəsinə götürür:

a) Qarşısını alma üzrə Altkomitəni öz ərazisində qəbul etmək və hazırkı Protokolun 4-cü Maddəsində müəyyən olunmuş saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

b) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Qarşısını alma üzrə Altkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

c) Qarşısını alma üzrə Altkomitə və milli preventiv mexanizmlər arasında əlaqələri təşviq etmək və asanlaşdırmaq;

d) Qarşısını alma üzrə Altkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

***Maddə 13***

1. Qarşısını alma üzrə Altkomitə 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirilməsi məqsədilə iştirakçı dövlətlərə müntəzəm başçəkmələr proqramını ilk dəfə püşk atma yolu ilə müəyyən edir.

2. Məsləhətləşmələrin keçirilməsindən sonra, Qarşısını alma üzrə Altkomitə öz proqramı haqqında iştirakçı dövlətləri məlumatlandırır ki, onlar təxirə salınmadan başçəkmələrin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Başçəkmələr Qarşısını alma üzrə Altkomitənin ən azı iki üzvü tərəfindən həyata keçirilir. Zərurət olduqda, bu üzvləri hazırkı Protokolun əhatə etdiyi sahələr üzrə təsdiq olunmuş iş təcrübəsinə və biliklərə malik ekspertlər müşayiət edə bilər. Ekspertlər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı və Beynəlxalq Cinayətkarlığın Qarşısının Alınması üzrə Mərkəzi tərəfindən, iştirakçı dövlətlərin irəli sürdüyü təkliflər əsasında hazırlanmış ekspertlər siyahısından seçilir. Bu siyahının hazırlanması zamanı aidiyyəti iştirakçı dövlətlər 5 nəfərdən çox olmayaraq milli ekspert təklif edir. Aidiyyəti iştirakçı dövlət başçəkmə üçün təklif edilmiş ekspertin namizədliyini rədd edə bilər, bundan sonra Altkomitə digər eksperti təklif edir.

4. Qarşısını alma üzrə Altkomitə zəruri hesab etdiyi təqdirdə, müntəzəm başçəkmənin həyata keçirilməsindən sonra növbəti qısa başçəkmə təşkil etməyi təklif edə bilər.

***Maddə 14***

1. Qarşısını alma üzrə Altkomitə mandatını həyata keçirə bilməsi üçün hazırkı Protokolun iştirakçı dövlətləri ona aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər:

a) 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların saxlanma şəraiti haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

c) aşağıdakı 2-ci bəndə uyğun olaraq, bütün saxlanma yerlərinə, onların binalarına və obyektlərinə məhdudiyyətsiz buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda, tərcüməçi vasitəsilə, habelə Altkomitənin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi qaydada söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduğu yerləri və söhbət etmək niyyətində olduğu şəxsləri maneəsiz seçmək hüququ.

2. Konkret saxlanma yerinə başçəkməyə münasibətdə etirazlar yalnız təcili surətdə baş vermiş və başçəkməyə müvəqqəti maneə törədən milli müdafiə, dövlət təhlükəsizliyi, təbii fəlakət və ya baş çəkilməsi ehtimal edilən yerdə ciddi iğtişaşla bağlı inandırıcı mülahizələrə əsaslana bilər. Elan olunmuş fövqəladə vəziyyətin mövcudluğu başçəkmənin həyata keçirilməsinə etiraz səbəbi kimi gətirilə bilməz.

***Maddə 15***

Heç bir orqan və ya vəzifəli şəxs Qarşısını alma üzrə Altkomitəyə və ya onun üzvlərinə verilən hər hansı, istər doğru, istərsə də yalan, məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və heç bir belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

***Maddə 16***

1. Qarşısını alma üzrə Altkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə və zərurət olduqda, milli preventiv mexanizminə göndərir.

2. Qarşısını alma üzrə Altkomitə öz hesabatını iştirakçı dövlət tərəfindən müvafiq xahişin daxil olduğu təqdirdə, iştirakçı dövlətin iradları ilə birlikdə dərc edir. İştirakçı dövlət hesabatın bir hissəsini açıqladığı təqdirdə Altkomitə hesabatı tam və ya qismən dərc edə bilər. Bununla yanaşı şəxsi xarakter daşıyan məlumatlar müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olmadan dərc edilə bilməz.

3. Qarşısını alma üzrə Altkomitə fəaliyyəti haqqında açıq illik hesabatını İşgəncələrə qarşı Komitəyə təqdim edir.

4. İştirakçı dövlətin 12-ci və 14-cü Maddələrə uyğun olaraq Qarşısını alma üzrə Altkomitə ilə əməkdaşlıq etməkdən və ya Qarşısını alma üzrə Altkomitənin tövsiyələrinə müvafiq olaraq vəziyyətin yaxşılaşdırılması üçün tədbirlər görməkdən imtina etdiyi təqdirdə, İşgəncələrə qarşı Komitə Qarşısını alma üzrə Altkomitənin xahişi ilə iştirakçı dövlətə öz mülahizələrini ifadə etmək imkanı verdikdən sonra açıq bəyanatla çıxış etmək və ya Altkomitənin hesabatını dərc etmək barədə öz üzvlərinin səs çoxluğu ilə qətnamə qəbul edə bilər.

## IV HİSSƏ

## MİLLİ PREVENTİV MEXANİZMLƏR

***Maddə 17***

Hazırkı Protokolun qüvvəyə minməsindən, və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir iştirakçı dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, teyin və ya təsis edir. Mərkəzsizləşdirilmiş orqanlar tərəfindən təsis edilmiş mexanizmlər hazırkı Protokolun məqsədləri üçün, Protokolun tələblərinə cavab verdiyi təqdirdə, milli preventiv mexanizmlər qismində teyin edilə bilər.

***Maddə 18***

1. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin funksional müstəqilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir.

2. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin ekspertlərinin zəruri potensiala və peşə biliklərinə malik olmasının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlar gender balansını və ölkədə mövcud olan etnik və azlıq qruplarının bərabər təmsilçiliyini təmin edir.

3. İştirakçı dövlətlər milli preventiv mexanizmlərin fəaliyyəti üçün zəruri resursları təqdim etməyi öhdələrinə götürür.

4. Milli preventiv mexanizmlərin yaradılması zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və təşviq edilməsi üzrə milli təsisatların statusuna dair Prinsipləri nəzərə alır.

***Maddə 19***

Milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

b) Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

***Maddə 20***

Milli preventiv mexanizmlərin öz mandatının yerinə yetirə bilməsi məqsədilə, hazırkı Protokolun iştirakçı dövlətlər onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürür:

a) 4-cü Maddədə müəyyən olunmuş həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı;

c) bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə milli preventiv mexanizmin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ;

f) Qarşısını alma üzrə Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək hüququ.

***Maddə 21***

1. Heç bir orqan və ya vəzifəli şəxs milli preventiv mexanizmə verilən hər hansı, istər doğru, istərsə də yalan məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və hər hansı belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

2. Milli preventiv mexanizm tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir.

***Maddə 22***

Müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları milli preventiv mexanizmin tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün təbirlərlə bağlı dialoq aparır.

***Maddə 23*** Hazırkı Protokolun iştirakçı dövlətləri milli preventiv mexanizmlərinin illik hesabatlarının dərc etməyi və yaymağı öhdələrinə götürür.

## V HİSSƏ

## BƏYANAT

***Maddə 24***

1. Ratifikasiyadan sonra iştirakçı dövlətlər hazırkı Protokolun III Hissəsinə və ya IV Hissəsinə uyğun olaraq öz öhdəliklərinin yerinə yetirilməsinin təxirə salınması ilə bağlı bəyanat verə bilər.

2. Belə təxirə salınma ən çoxu üç il müddətində qüvvədə qalır. İştirakçı dövlət tərəfindən müvafiq materialların təqdim edilməsindən və Qarşısını alma üzrə Altkomitə ilə məsləhətləşmələrdən sonra İşgəncələrə qarşı Komitə bu müddəti daha iki il uzada bilər.

## VI HİSSƏ

## MALİYYƏ MÜDDƏALARI

***Maddə 25***

1. Hazırkı Protokolun həyata keçirilməsi zamanı Qarşısını alma üzrə Altkomitə tərəfindən sərf edilmiş xərclər Birləşmiş Millətlər Təşkilatı tərəfindən ödənilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokola uyğun olaraq Qarşısını alma üzrə Altkomitəni funksiyalarını səmərəli şəkildə yerinə yetirməsi üçün zəruri işçi heyət və vəsaitlə təmin edir.

*Maddə 26*

1. Başçəkmədən sonra Qarşısı alma üzrə Altkomitə tərəfindən iştirakçı dövlətə irəli sürülmüş tövsiyələrin həyata keçirilməsi və milli preventiv mexanizmləri üçün tədris proqramlarının maliyyələşdirilməsi məqsədilə Baş Assambleyanın müvafiq proseduruna uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının maliyyə müddəaları və qaydaları əsasında idarə olunan Xüsusi Fond yaradılır.

2. Bu Xüsusi Fond hökumətlər, hökumətlərarası, qeyri-hökumət və digər özəl və ya dövlət qurumları tərəfindən ödənilən könüllü ödəmələr hesabına maliyyələşə bilər.

## VII HİSSƏ

## YEKUN MÜDDƏALAR

*Maddə 27*

1. Hazırkı Protokol Konvensiyanı imzalamış istənilən dövlətə imzalanmaq üçün açıqdır.

2. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlət tərəfindən ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanları saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

3. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlətə qoşulmaq üçün açıqdır.

4. Qoşulma bu haqda sənədin saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilməsi yolu ilə həyata keçirilir.

5. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hər bir ratifikasiya fərmanının və ya qoşulma haqqında sənədin saxlanılması üçün təhvil verilməsi barədə hazırkı Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətləri məlumatlandırır.

*Maddə 28*

1. Hazırkı Protokol 20-ci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verildikdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Hazırkı Protokol iyirminci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün təhvil verildikdən sonra onu ratifikasiya edən, yaxud ona qoşulan hər bir dövlət üçün həmin dövlət öz ratifikasiya fərmanını, yaxud qoşulma haqqında sənədini saxlanılması üçün təhvil verdikdən sonra otuzuncu gün qüvvəyə minir.

*Maddə 29*

Hazırkı Protokolun müddəaları heç bir məhdudiyyət və istisna olmadan federativ dövlətlərin bütün hissələrinə şamil olunur.

*Maddə 30*

Hazırkı Protokola dair hər hansı qeyd-şərtlərə yol verilmir.

*Maddə 31*

Hazırkı Protokolun müddəaları saxlanma yerlərinə başçəkmə sisteminə əsaslanan istənilən regional konvensiyalar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə toxunmur. Təkrarlanmadan yayınmaq və hazırkı Protokolun məqsədlərinə səmərəli nail olunmasını təmin etmək üçün Qarşısını alma üzrə Altkomitəyə və belə regional konvensiyalara uyğun olaraq təsis edilmiş orqanlara məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək təklif olunur.

***Maddə 32***

Hazırkı Protokolun müddəaları 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və onlara dair 8 iyun 1977-ci il tarixli Əlavə Protokollar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə, habelə beynəlxalq humanitar hüquqla əhatə olunmayan vəziyyətlərdə iştirakçı dövlətin Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən saxlanma yerlərinə baş çəkməyə icazə vermək hüququna toxunmur.

***Maddə 33***

1. Hər hansı iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə hazırkı Protokolu denonsasiya edə bilər. Bundan sonra Baş katib hazırkı Protokolun və Konvensiyanın iştirakçı dövlətlərini bu barədə məlumatlandırır. Denonsasiya Baş katib belə bildiriş aldıqdan bir il sonra qüvvəyə minir.

2. Belə denonsasiya iştirakçı dövləti denonsasiya qüvvəyə mindiyi tarixə qədər baş verə bilən hər hansı hərəkətinə və ya vəziyyətinə görə və ya Qarşısını alma üzrə Altkomitə tərəfindən aidiyyəti iştirakçı dövlətə münasibətdə qət edilən və ya qət edilə bilən tədbirlərə görə hazırkı Protokol üzrə öhdəliklərindən azad etmir və denonsasiya qüvvəyə mindiyi tarixə qədər Altkomitədə baxılmış hər hansı məsələnin davam edən baxışına heç bir halda xələl gətirmir.

3. İştirakçı dövlət tərəfindən bəyan edilmiş denonsasiyanın qüvvəyə mindiyi tarixdən sonra Qarşısını alma üzrə Altkomitə həmin dövlətə aid yeni məsələnin baxılmasına başlaya bilməz.

***Maddə 34***

1. Hər hansı iştirakçı dövlət hazırkı Protokola dair düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Bundan sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi təklif olunmuş düzəlişi hazırkı Protokolun iştirakçı dövlətlərinə göndərərək, bu təklifə baxmaq və onu səsə qoymaq məqsədilə iştirakçı dövlətlərin konfransının çağırılmasına razı olub-olmamalarını ona bildirməyi xahiş edir. Bu məktubun göndərildiyi tarixdən keçən dörd ay ərzində iştirakçı dövlətlərdən ən azı üçdə biri belə konfransın çağırılmasına razılıq verdiyi təqdirdə Baş katib Birləşmiş Millətlər Təşkilatının himayəsi ilə konfrans çağırır. Baş katib bu konfransda və səsvermədə iştirak edən iştirakçı dövlətlərin üçdə ikisinin çoxluğu ilə qəbul edilən hər hansı düzəlişi təsdiq üçün bütün iştirakçı dövlətlərə göndərir.

2. Bu Maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş hazırkı Protokolun iştirakçı dövlətlərinin üçdə ikisi həmin düzəlişi öz konstitusiya prosedurlarına uyğun qəbul etdiklərini Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildirdikdən sonra qüvvəyə minir.

3. Düzəlişlər qüvvəyə mindikdən sonra, onları qəbul etmiş iştirakçı dövlətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə qəbul etmiş olduqları hazırkı Protokolun müddəaları və əvvəlki düzəlişlər məcburi olaraq qalır.

***Maddə 35***

Qarşısını alma üzrə Altkomitənin üzvlərinə və milli preventiv mexanizmlərinin üzvlərinə onların funksiyalarının müstəqil şəkildə yerinə yetirilməsi üçün zəruri olan imtiyaz və immunitetlər verilir. Altkomitənin üzvlərinə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və immunitetləri haqqında 13 fevral 1946-cı il tarixli Konvensiyasının 23-cü fəslinin müddəalarına əməl olunmaqla, həmin Konvensiyanın 22-ci fəslində sadalanan imtiyaz və immunitetlər verilir.

***Maddə 36***

İştirakçı dövlətə baş çəkərkən Qarşısını alma üzrə Altkomitənin üzvləri hazırkı Protokolun müddəa və məqsədlərinə və istifadə edə biləcəkləri imtiyaz və immunitetlərə xələl gətirmədən:

a) baş çəkilən dövlətin qanun və normalarına riayət edir;

b) vəzifələrinin qərəzsiz və beynəlxalq xarakteri ilə bir araya sığmayan hər hansı hərəkət və fəaliyyətdən çəkinir.

*Maddə 37*

1. İngilis, ərəb, ispan, çin, rus və fransız dillərindəki mətnləri bərabər olaraq autentik olan hazırkı Protokol saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokolun təsdiq edilmiş nüsxələrini bütün dövlətlərə göndərir.